RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 47 (9502) 1 mart 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan əsla güzəştə getməyəcək

## Erməni lobbisinin təsiri ilə Avropa Parlamenti, AŞPA və digər qurumlar ölkəmizə qarşı yeni bədnam kampaniyaya başlayıblar

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalmasının əsas səbəblərindən biri də bəzi beynəlxalq təşkilatların probleme ədalətsiz yanaşması, ikili standartlardan çıxış etməsi idi. İki gün əvvəl Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev bir daha buna diqqət çəkərək ikili standartların bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrildiyini bildirdi.

Xüsusilə torpaqlarımızda erməni separatizminə son qoyulmasından sonra erməni lobbisinin təsiri ilə həm Avropa Parlamenti, həm AŞPA və digər qurumlar ölkəmizə qarşı yeni bədnam kampaniyaya başlayıblar. Fransanın Azərbaycana qarşı təxribatı, Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali komissarı Cozep Borelin Azərbaycanın Ermənistana hücum edəcəyini bəyan etməsi, AŞPA-da Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərarın qəbulu göstərir ki, Qərb Azərbaycana qarşı total şəkildə təzyiq etməyə çalışır.

Lakin torpaqlarını işğaldan azad etməklə yalnız Ermənistanı deyil, Fransanın və digər Qərb dairələrinin timsalında dünya erməniliyini diz çökdürən Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Azərbaycana qarşı edilən riyakarlıqlara qarşı ölkəmiz qətiyyətli mövqe ortaya qoyur. Alman İqtisadiyyatının Şərq Komitəsinin nümayəndə heyəti ilə görüşdə Prezident İlham Əliyev xəbərdarlığını da edərək bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.

→ 2

# Macarıstan Azərbaycanın yaxın dostu və etibarlı tərəfdaşıdır

### Macarıstanın yeni seçilmiş Prezidenti zati-aliləri cənab Tamaş Şuyoka

Hörmətli cənab Şuyok.

Macarıstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Macarıstan Azərbaycanın yaxın dostu və etibarlı tərəfdaşıdır. Qarşılıqlı inam və etimada əsaslanan, gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin bütün sahələrdə genişlənməsinə, o cümlədən strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə xüsusi önəm veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Macarıstan arasında ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi, çoxşaxəli əməkdaşlığın bundan sonra da uğurla davam etdirilməsi naminə birgə səylər göstərəcəyik.



Sizə ən xoş arzularımı çatdırır, dost Macarıstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 fevral 2024-cü il*

# Sumqayıt şəhəri ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhəri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 8,1 milyon (səkkiz milyon yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 fevral 2024-cü il*

# Fransa Cənubi Qafqaza girmək üçün Ermənistanı silahlandırır

### Amma Paris bu məkrli məqsədinə çata bilməyəcək

Ölkəmiz üçün böyük uğurla yekunlaşan İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanması istiqamətində danışıqlar aparılmağa başlandı. Lakin Ermənistan yenə də əvvəlki ssenariyə uyğun olaraq müxtəlif bəhanələr uyduraraq sülh müqaviləsinin imzalanmasından yayınır. Xam xəyallarla yaşayaraq yenə də bölgədə gərginlik yaratmaq istəyir, sərsəm-sərsəm bəyanatlar verir. Fransadan, Hindistandan və başqa ölkələrdən silah alır. Bəri başdan deyək ki, sonda uduzan tərəf sülh müqaviləsinin imzalanmasını ləngidən Ermənistan olacaq. Çünki Ermənistan nə qədər silah alırsa-alsın, güclü, qüdrətli, dünyada söz sahibi olan Azərbaycanın qarşısında dayana bilməz.

Heç kimə sirr deyil ki, Ermənistan bu addımları özbaşına atmır. Fransa və başqa ölkələr bunu ona məcbur edir. Rəsmi Paris Cənubi Qafqaz regionunda gizli planlarını həyata keçirmək üçün vəziyyəti gərginləşdirir, Ermənistanı silahlandırır. Bunu da bütün dünya görür, amma susur. Ermənistanın baş naziri Nikol Paşinyanın Fransaya səfəri və burada Prezident Emmanuel Makronla görüşməsi, verilən açıqlamalar, gözlənildiyi kimi, bölgədə sülhə xidmət etmir. Əksinə, iki ölkə arasındakı vəziyyəti daha da gərginləşdirir.

→ 4

# Paris alovun üstünə benzin tökür

### İlham Əliyev ABŞ və Fransanı reallıqları qəbul edib, regionun lider dövləti olan Azərbaycanla işləməyə çağırdı

Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə İlham Əliyev əsl həqiqətləri açıqladı və bildirdi ki, ikili standartların hökm sürdüyü Avropa İttifaqı Azərbaycana qarşı saxta məlumatlar əsasında ittihamlar səsləndirir, ölkəmizin Ermənistana hücuma hazırlaşması ilə bağlı feyklər tirajlayır. Fransanın Avropa İttifaqının Ukraynanı ərazi bütövlüyünü təmin etmək üçün müdafiə etdiyi bir şəraitdə tam tərsinə, ərazi bütövlüyünü təmin etdiyinə görə Azərbaycanı günahlandırması anlaşılmazdır. Bu, islamofobiya nümunəsidir.

Dövlət başçısı onu da vurğuladı ki, vaxtilə ATƏT-in sabiq Minsk qrupunda olmuş Fransa, ABŞ və Rusiya kimi ölkələr Azərbaycanı öz yolundan döndərmək üçün illərlə müxtəlif alətlərdən istifadə ediblər.

Prezident konkret faktlarla, arqumentlərlə müqayisə apararaq reallıqları diqqətə çatdırıb. Belə ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olarkən barbar ermənilər həmin əraziləri dağıdıb yerlə yeksan ediblər. Bir milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşüb. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymayıb.

→ 6

# Xocalıda aşkar edilmiş kütləvi məzarlıqdan daha bir azyaşlının qalıqları çıxarılıb

Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Qeyd olunan ərazidə davam edən baxış istintaq hərəkəti nəticəsində bu gün daha bir azyaşlıya aid insan qalıqları aşkar edilib, bununla da kütləvi məzarlıqda basdırılan insan qalıqlarının ən azı 5 nəfərə (onlardan 2-sinin azyaşlı olması ehtimal edilir) məxsus olması, onların qeyri-insani rəftara və fiziki zorakılığa məruz qalması müəyyən edilib.

Hazırda ərazidə basdırılmış insan qalıqlarının tam müəyyən olunması istiqamətində hadisə yerinin müayinəsi davam etdirilir.



# Azərbaycandan keçən nəqliyyat marşrutlarına maraq artır

Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda Prezident İlham Əliyev tərəfindən qəbul olunması çox mətləbdən xəbər verir. İlk növbədə ondan soraq verir ki, son zamanlar Almaniyanın bəzi siyasətçilərinin Fransa Prezidenti E.Makrona qoşulub ölkəmizin əleyhinə bəyanatlar verməsi alman biznes dairələri tərəfindən ciddi qəbul olunmur. Yeri gəlmişkən, qeyd edək ki, ölkəmizə səfər edən qurum Almaniyada ən iri şirkətləri özündə birləşdirir və ölkələrində ciddi söz sahibidir.

Dövlətimizin başçısı ilə görüş zamanı Almaniya tərəfi açıq şəkildə bildirdi ki, onların ölkəmizə səfərinin əsas məqsədi Azərbaycanla biznes əlaqələrini genişləndirməkdir. Məlumdur ki, alman iş adamları dünyada investisiya qoyuluşunda yüksək həssaslıq göstərmələri ilə seçilirlər. O səbəbdən onların bu səfərini ölkəmizə olan inamın göstəricisi kimi də qəbul etmək mümkündür.

→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Bu yaxınlarda yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İsrail xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Onilliklər ərzində xalqlarımız ortaq məqsəd və maraqlara əsaslanan isti münasibətlərə malik olublar. Siz iyirmi il əvvəl prezidentliyə başladığınız vaxtdan bizim əməkdaşlığımız bir çox sahələrdə genişlənib və yeni zirvələrə yüksəlib.

Keçən il Azərbaycanın İsraildə səfirliyinin tarixi açılışında aydın şəkildə nümayiş etdirilən dostluq münasibətinə görə təşəkkür edirəm.

Qarşıdakı illərdə tərəfdaşlığımızı daha da inkişaf etdirmək üçün Sizinlə yaxından işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Benyamin NETANYAHU,***
***İsrail Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Zati-alinizi təbrik edirəm.

Ümidvaram ki, Braziliya və Azərbaycan arasında dostluq əlaqələri xalqlarımızın rifahı naminə beynəlxalq miqyasda da dərinləşməkdə davam edəcəkdir.

Fürsətdən istifadə edərək Azərbaycana bu il COP29-a evsahibliyi etməsi münasibətilə təbriklərimi çatdırıram.

Ölkələrimiz arasında əməkdaşlıq "Üçlük" - Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya çərçivəsində "1.5 dərəcə Selsi missiyası" istiqamətində xüsusilə aktual olacaqdır.

Cənab Prezident, Braziliya ilə Azərbaycan arasında münasibətlərin daha da yaxınlaşmasında maraqlı olduğumu bir daha bildirirəm. Sizə xoşbəxtlik, ali dövləti vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Luiz İnasio Lula da SİLVA,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Yenidən qardaş Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz arasında müştərək maraqların həyata keçirilməsi naminə xalqlarımızın münasibətlərinin möhkəmlənməsini və İslami Dəvət Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin inkişafını arzu edirəm.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Nuri Kamal Əl-MALİKİ,***
***İraq Respublikasının sabiq Baş naziri,***
***İslami Dəvət Partiyasının baş katibi***

# Azərbaycan əsla güzəştə getməyəcək

## Erməni lobbisinin təsiri ilə Avropa Parlamenti, AŞPA və digər qurumlar ölkəmizə qarşı yeni bədnam kampaniyaya başlayıblar

*Əvvəli 1-ci səh.*

Qərbin siyasi dairələri arasında elələri də var ki, Azərbaycana qarşı həm işğal, həm də sonrakı dövrdə nəinki ikili standartlardan, ümumiyyətlə, qərəzli və məkrli mövqedən çıxış ediblər və etməkdədirlər. Bu baxımdan Avropa Parlamenti (AP) Azərbaycana qarşı münasibətində və mövqeyində hər zaman qərəzli olub. Azərbaycana qarşı nifrət və düşmənçilik dolu qətnamələr qəbul etmək, qarayaxma kampaniyası aparmaq, ölkəmizin uğurlarına ləkə yaxmaq sanki bu təşkilatın əsas təməl prinsipidir.

Avropa Parlamentinin bu günlərdə yenidən qətnamə qəbul edərək Avropa İttifaqını Azərbaycana qarşı sanksiyalara çağırması bir daha AP-nin riyakarlığını ortaya qoydu. İlk dəfə deyil ki, AP Azərbaycana qarşı hansısa bədnam sənəd qəbul edir. Əvvəlkilər kimi bu qətnamə də Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Azərbaycanın hansısa təzyiq qarşısında güzəştə getməsi mümkün deyil. Bu barədə bir nümunə belə göstərmək olmaz. Digər tərəfdən, heç Aİ özü və üzv dövlətlər də sənəddə əks olunan xülyaları qəbul etmirlər. Çünki həmin qətnamədə yer alan çağırışar Aİ-nın prinsiplərinə uyğun deyil.

O da məlumdur ki, AP yeni seçkilərə hazırlaşır. Azərbaycana qarşı çağırışları isə erməni lobbisinin pulu ilə işləyən deputatlar səsləndirirlər. Araşdırmalar göstərir ki, bu maliyyələşmənin arxasında Brüsseldə yaşayan erməniəsilli Kaspar Karapetyan dayanır. Xatırlayırsınızsa, 2022-ci ilin sonlarında Brüsseldə AP-nin Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin adının hallandığı milyonlarla dollarlıq korrupsiya skandalı baş vermişdi. Araşdırmalar göstərir ki, Eva Kaili AP-nin Avropa İttifaqı-Ermənistan dostluq qrupunun üzvü olub. Həmin qrup isə K.Karapetyanın prezidenti olduğu Ədalət və Demokratiya uğrunda Ümumavropa Erməni Federasiyası təşkilatı ilə sıx əlaqəlidir. Məhz bu yolla AP-nin deputatlarına rüşvət verilib və bu mexanizm indi də işləyir. Azərbaycana qarşı çıxan deputatlar bundan əvvəl də AP-də eyni mövqedən çıxış edən və almaz qaçaqmalçısı olan K.Karapetyanın pulla ələ aldığı parlamentarilərdir. Bütün bu oyunların arxasında isə Makron kimiləri, islamafob, rasist və türkofob dairələr dayanır.

Azərbaycanın AP qarşısında heç bir öhdəliyi yoxdur. AP-də də yaxşı bilirlər ki, bu sənədlərin heç bir hüquqi qüvvəsi yoxdur və Azərbaycanı öz yolundan döndərə bilməz. Həm də korrupsiyalaşdığı sübut olunmuş bir qurumun qəbul etdiyi sənədlər heç Avropanın özündə belə artıq ciddi qəbul edilmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ombudsmanın məruzəsi müzakirə edilib

**Fevralın 29-da Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. Komitənin sədri Zahid Oruc gündəliyə bir məsələnin - Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsinin daxil edildiyini söyləyib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Zahid Oruc bildirib ki, ombudsman institutu bu məruzəni ilk dəfədir ki, öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmiş ölkəmizin vətəndaşlarının hüquq və azadlıqlarının vəziyyətini dəyərləndirərək hazırlayıb. O, ombudsmanın ünvanına daxil olan müraciətlərlə bağlı bəzi statistik göstəriciləri diqqətə çatdıraraq müraciətlərdə əks olunan məsələlərdən bəhs edib.

Komitə sədri vətəndaşların mənzil, torpaq, əmlak hüquqlarının təmin edilməsi, qeydiyyat, sənədləşdirmə ilə bağlı məsələlərə toxunub. Bununla yanaşı, 469 nəfər qadın və uşağın İraq və Suriyadan Azərbaycana qaytarılmasında ombudsmanın fəaliyyətinin təqdirəlayiq olduğu qeyd edilib.

Zahid Oruc məruzədə ombudsmanın cəzaçəkmə müəssisələrinə 347 dəfə baş çəkdiyi, əvvəllər verilmiş tövsiyələrin icra vəziyyətinin yoxlanıldığı barədə məlumat verildiyini söyləyib.

Komitə sədri məhkəmə qərarlarının icrası ilə bağlı məsələyə məruzədə geniş yer verildiyini bildirib. O, qanunvericilikdə məhkəmə qərarlarının məcburi həyata keçirilməsinin ehtiva olunduğunu deyib.

Məruzədə öz əksini tapmış sağlamlığın qorunması hüququ ilə bağlı məsələyə toxunan Zahid Oruc icbari tibbi sığortanın imkanlarından istifadə etmək üçün zəruri şəraitin yaradılması, dövlət hesabına müayinə və müalicənin təşkili ilə əlaqədar fikirlərini açıqlayıb, bu istiqamətdə maarifləndirmə işinin aparılmasının əhəmiyyətini qeyd edib.

Məsələ ətrafında müzakirələrdə çıxış edən komitə üzvləri və dəvət olunmuş qonaqlar ombudsmanın 2023-cü ildə fəaliyyətini müsbət dəyərləndiriblər, insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri ilə bağlı fikirlərini açıqlayıblar, bir sıra qeyd və təkliflərini səsləndiriblər.

İclasda çıxış edən Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı 2023-cü ildə ombudsmanın ünvanına 29.411 müraciətin daxil olduğunu və bu müraciətlərə müəyyən edilmiş müddətlərdə baxıldığını bildirib. O qeyd edib ki, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri öncəsi Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsman) aparatı və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə regionlarda vətəndaşların seçki hüququnun təmin edilməsi ilə bağlı geniş maarifləndirmə tədbirləri təşkil edilib.

Məruzədə əmək hüququ, sosial təminat hüququ, sağlamlığın qorunması hüququ, habelə qaçqınların, keçmiş məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin hüquqlarının təmin edilməsi məsələləri ilə bağlı ombudsmana ünvanlanan müraciətlərin diqqət mərkəzində saxlanıldığı bildirilir. Bununla yanaşı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar ombudsmanın ünvanına daxil olmuş müraciətlər araşdırılıb, bu kateqoriyadan olan şəxslərin hüquq və azadlıqlarının daha səmərəli təmini məqsədilə lazımi addımlar atılıb.

Bildirilib ki, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, şəhid ailələri və müharibə veteranları tərəfindən ombudsmana ünvanlanmış müraciətlər, əsasən onların sosial təminat hüququnun həyata keçirilməsi, tibbi və psixoloji yardımların göstərilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, məşğulluq məsələlərinin həllində kömək göstərilməsi ilə bağlı olub və bu problemlərin həlli üzrə müvafiq tədbirlər həyata keçirilib.

Sonra komitə sədri Zahid Oruc məruzə ilə bağlı səsləndirilən fikirlərə münasibət bildirib.

Müzakirələrin sonunda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 108** **QƏRAR** **Bakı şəhəri, 28 fevral 2024-cü il**

## “Beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik zolaqlarından istifadə hüququnun məhdudlaşdırıldığı zaman radiotezlik istifadəçilərinə kompensasiyanın ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 fevral tarixli 2022 nömrəli Fərmanının 2.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik zolaqlarından istifadə hüququnun məhdudlaşdırıldığı zaman radiotezlik istifadəçilərinə kompensasiyanın ödənilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 fevral tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

## Beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik zolaqlarından istifadə hüququnun məhdudlaşdırıldığı zaman radiotezlik istifadəçilərinə kompensasiyanın ödənilməsi QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 13.4-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır.

1.2. Beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının (bundan sonra - tədbir) keçirildiyi müddətdə radiotezlik istifadəçilərinin radiotezlik zolaqlarından istifadə hüququ Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra - DTX) təqdimatına əsasən Dövlət Radiotezliklər İdarəsi (bundan sonra - DRİ) qismində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) qərarı əsasında dövlət təhlükəsizliyi məqsədləri üçün müstəsna hallarda məhdudlaşdırılır.

1.3. Nazirliyin qərarı ilə radiotezlik zolaqlarından istifadə hüququ məhdudlaşdırılmış istifadəçiyə tədbirin təşkilatçısının vəsaiti hesabına kompensasiya ödənilir.

**2. İstifadəçi hüququnun məhdudlaşdırılması haqqında təqdimat**

2.1. DTX tərəfindən dövlət təhlükəsizliyi məqsədləri üçün radiotezlik zolaqlarından istifadə hüququnun məhdudlaşdırılması haqqında təqdimatda aşağıdakılar qeyd edilir:

2.1.1. tədbirin adı, müddəti və ərazisi barədə məlumat;

2.1.2. məhdudiyyət tətbiq olunacaq radiotezlik diapazonu, radiotezlik zolaqlarının sayı və radiotezlik istifadəçisi barədə məlumat.

2.2. Təqdimat təxirəsalınmaz hallar istisna olmaqla tədbirin keçirilməsinə 15 (on beş) gün qalmış Nazirliyə təqdim edilməlidir.

**3. Təqdimata baxılması**

3.1. Təqdimat daxil olduğu gün Nazirlikdə qeydiyyata alınır.

3.2.Təqdimata 3 (üç) iş günü müddətində baxılır və əsaslandırılmış qərar qəbul edilir.

3.3. Təqdimatda göstərilmiş radiotezlik zolağı digər xüsusi təyinatlı dövlət orqanları tərəfindən istifadə edildikdə və ya radiotezlik zolağı mobil rabitə operatorlarına məxsus mobil (sellülar) rabitə şəbəkəsində istifadə edildikdə təqdimatın təmin edilməməsi barədə qərar, digər hallarda müvəqqəti məhdudiyyətin tətbiq edilməsi barədə qərar qəbul edilir.

3.4. Məhdudiyyətin tətbiq edilməsi barədə qərarda aşağıdakı məlumatlar göstərilir:

3.4.1. qərarın qəbul edildiyi tarix;

3.4.2. radiotezlik istifadəçisi barədə məlumat;

3.4.3. tədbirin təşkilatçısı barədə məlumat;

3.4.4. məhdudiyyət tətbiq olunacaq müddət və ərazi barədə məlumat;

3.4.5. məhdudiyyət tətbiq olunacaq radiotezlik diapazonu və radiotezlik zolaqlarının sayı barədə məlumat;

3.4.6. radiotezlik istifadəçisinin kompensasiya almaq hüququ barədə qeyd, bu hüquqdan istifadənin təmin olunması məqsədilə müraciət edilməsinin müddəti və qaydası haqqında məlumat.

3.5. Məhdudiyyətin tətbiq edilməsi barədə qərar qəbul olunduqdan sonra 2 (iki) iş günü müddətində qərarın bir nüsxəsi DTX-yə, bir nüsxəsi tədbirin təşkilatçısına, bir nüsxəsi isə məhdudiyyət tətbiq olunacaq radiotezlik istifadəçisinə təqdim olunur.

3.6. Təqdimatın təmin edilməməsi barədə əsaslandırılmış qərar 2 (iki) iş günü müddətində DTX-yə təqdim olunur.

**4. Kompensasiya üçün müraciət edilməsi qaydası**

4.1. Radiotezlik istifadəçisi məhdudiyyət tətbiq edilmiş müddət üçün kompensasiya almaq hüququna malikdir.

4.2. Barəsində müvəqqəti məhdudiyyətin tətbiq edilməsi barədə qərarı almış radiotezlik istifadəçisi bu Qaydanın 5-ci hissəsinin tələbləri nəzərə alınmaqla 15 (on beş) gün müddətində kompensasiya almaq üçün ərizə ilə Nazirliyə müraciət edir.

4.3. Ərizədə aşağıdakı məlumatlar göstərilir:

4.3.1. radiotezlik istifadəçisi barədə məlumat;

4.3.2. məhdudiyyətin tətbiq edilməsi barədə qərarın nömrəsi və tarixi;

4.3.3. Nazirlik tərəfindən müəyyən edilmiş "Azərbaycan Respublikasında radiotezlik spektrindən istifadəyə görə birdəfəlik və müddətli (aylıq və ya illik) ödənişlərin hesablanması Metodikası"na əsasən DRİ tərəfindən istifadəçiyə təqdim olunan hesab və həmin hesab üzrə istifadəçi tərəfindən ödənişin icra edilməsi barədə sənədlərin nömrəsi və tarixi.

**5. Kompensasiyanın ödənilməsi qaydası**

5.1.Nazirlik kompensasiyanın ödənilməsi üzrə müraciətdəki məlumatlar əsasında radiotezlik zolaqlarından istifadə hüququ məhdudlaşdırılmış istifadəçiyə tədbir təşkilatçısının vəsaiti hesabına "Azərbaycan Respublikasında radiotezlik spektrindən istifadəyə görə birdəfəlik və müddətli (aylıq və ya illik) ödənişlərin hesablanması Metodikası"na əsasən məhdudiyyət tətbiq edilmiş müddətə müvafiq olaraq kompensasiya ödənilməsi barədə qərar qəbul edir. Qərarda aşağıdakılar qeyd edilir:

5.1.1. qərarın qəbul edildiyi tarix;

5.1.2. kompensasiyanın məbləği;

5.1.3. təşkilatçı və tezlik istifadəçisi barədə məlumatlar;

5.1.4. kompensasiyanın ödənilməsinin müddəti.

5.2. Bu Qaydanın 5.1-ci bəndinə nəzərdə tutulmuş qərarın qəbul edildiyi tarixdən 30 (otuz) gün müddətində kompensasiya istifadəçinin hesabına köçürülür.

5.3. Kompensasiyanın məbləği təyin olunarkən təşkilatçı və tezlik istifadəçisinin iştirakı təmin olunur və onun mövqeyi öyrənilir.

**6. Mübahisələrin həlli qaydası**

6.1. Bu Qaydanın icrası ilə əlaqədar yaranan mübahisələr Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məhkəmə yolu ilə həll edilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 109** **QƏRAR** **Bakı şəhəri, 28 fevral 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları”nda, 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”də və 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron notariat” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I) ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın 3.4.1-ci yarımbəndinə "qurumlarda" sözündən sonra "(maliyyə bazarlarını tənzimləyən qanunlarda müəyyən edilən tələblər nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin 11.3.11-ci yarımbəndində "bütün növ bank hesablarının qalıqları" sözləri "banklarda və digər kredit təşkilatlarında saxlancda əmlakının və hesabının mövcudluğu, habelə hesab üzrə qalıqlar" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 yanvar tarixli 52 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin 12.3.16-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12.3.17-ci yarımbənd əlavə edilsin:

"12.3.17. müştəri vəfat etdikdə onun hesabları və əmanətləri, habelə bank saxlancında olan əmlakı barədə məlumatlar (icraatında olan vərəsəlik işləri üzrə - notariuslara, habelə müvafiq notariat hərəkətlərini icra edən konsulluq idarələrinə münasibətdə).".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan ilə Almaniya arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində fevralın 29-da bu ölkənin Xarici İşlər Nazirliyinin dövlət katibi Tomas Bager ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı ikitərəfli əməkdaşlıq məsələləri, eləcə də Berlində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında aparılmış sonuncu danışıqlar barədə fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycanla Almaniya arasında münasibətlərin əhəmiyyətini vurğulayıb, münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıblar. Görüşdə həmçinin Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı və digər platformalar çərçivəsində ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasının qəbuledilməz olduğu Azərbaycan tərəfindən bildirilib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsinin, eləcə də Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin geniş əməkdaşlıq imkanları yaratdığı qeyd olunub. Qarşı tərəf Azərbaycanla Ermənistan arasında sülh prosesinin perspektivləri, aparılmış sonuncu danışıqlar barədə məlumatlandırılıb, ölkəmizin sülh sazişi layihəsi üzrə baxışları, Ermənistanla münasibətlərin və sülhün təsis edilməsi üçün vacib əhəmiyyət daşıyan məqamlar diqqətə çatdırılıb.

Prosesin irəlilədilməsi istiqamətində görüşlərin təşkilində dəstəyə görə Almaniya tərəfinə təşəkkür ifadə olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Türkiyəyə səfər edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin xarici işlər naziri Hakan Fidanın dəvəti ilə qardaş ölkəyə səfər edib.**

YAP nümayəndə heyəti Türkiyə Respublikası Prezidentinin himayədarlığı əsasında bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən "Böhranlar dönəmində diplomatiyanı önə çıxarmaq" mövzusunda keçirilən III Antalya Diplomatiya Forumunda iştirak edəcək.

Səfər çərçivəsində nümayəndə heyətinin bir sıra görüşləri də nəzərdə tutulub.

YAP nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov daxildirlər.

# Ceyhun Bayramov Türkiyəyə işgüzar səfərə yola düşüb

**Fevralın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə işgüzar səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun Antalya Diplomatiya Forumunda iştirakı, "Türk dünyasında institusionallaşma: 21-ci əsrdə Türk Dövlətləri Təşkilatı" panelində çıxışı, eləcə də çoxsaylı ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulur.

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib




**Fevralın 29-da hüquq ictimaiyyəti üçün önəmli olan aktual mövzuların müzakirəsinə hər zaman üstünlük verən baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.**

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin sədrliyi ilə keçirilən iclasda müxtəlif dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslar iştirak edib.

Giriş nitqi ilə çıxış edən baş prokuror fevralın 7-də keçirilən azad, ədalətli, şəffaf və bütün beynəlxalq standartlara cavab verən növbədənkənar prezident seçkiləri və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin seçkidə parlaq qələbəsindən söz açaraq bu zəfərin yeni dövrdə ölkəmizdə bütün sahələrdə elmi-texnoloji inkişafa, müasir texnologiyaların tətbiqinin genişləndirilməsinə böyük təkan olacağını diqqətə çatdırıb.

Vurğulanmışdır ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və dünyanın ən aktual bəşəri problemlərinin müzakirə edildiyi mühüm beynəlxalq platforma olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox əhəmiyyətli bir il olacağını göstərir.

Bundan başqa, müasir dövrün tələblərinə uyğun olaraq cinayət təqibinin üsul və vasitələri, cinayət prosesi və onun tərkib hissəsi kimi cinayət ədalət mühakiməsinin rəqəmsallaşmaya məruz qalmasını nəzərə alaraq, elektron cinayət təqibinin xüsusiyyətlərinin müzakirəsi və bu sahədə müvafiq təkliflərin hazırlanmasının zəruriliyi qeyd olunub.

Daha sonra prokurorluq əməkdaşları tərəfindən "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı qanunvericiliyin, hüquq tətbiqi təcrübəsinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr", "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı xarici ölkələrin təcrübəsi", "Azərbaycanda elektron cinayət təqibinin tətbiqi ilə bağlı təkliflər", "Cinayət təqibi zamanı blokçeyn texnologiyalarının tətbiqi imkanları" mövzularında məruzələr edilib, digər şura üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasda həmçinin Baş Prokurorluğun müvafiq idarələri tərəfindən hazırlanmış "Cinayət aktivlərinin aşkarlanması, izlənməsi və bərpası", eləcə də "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar qanunvericilik və istintaq təcrübəsi" adlı metodik vəsaitlərin təqdimatı keçirilib.

Sonda Azərbaycan Respublikası Baş Prokurorluğunun "Azərbaycan Prokuroru" elmi jurnalının ikinci buraxılışının təqdimatı keçirilib.

Qeyd olunan elmi nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə və beynəlxalq standartlara uyğun şəkildə dərc olunur.

# XİN Berlində Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə aparılan danışıqlar barədə məlumat yayıb





**Fevralın 28-29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında Almaniyanın paytaxtı Berlin şəhərində danışıqlar aparılıb.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər və onların heyətləri arasında "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəaları üzrə mövqelər müzakirə edilib. Bəzi əsas məsələlər üzrə əlavə işin davam etdirilməsinə ehtiyac olduğu vurğulanıb.

Səfər çərçivəsində nazirlər Almaniyanın xarici işlər naziri Annalena Berbok ilə də görüşüblər.

Nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında danışıqlara evsahibliyi etdiyinə görə Almaniya tərəfinə minnətdarlığını bildirib.

# Avropa Parlamentinin hesabatı Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir

**Ölkəmizə qarşı müddəaların əks olunduğu "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabatı" qətiyyətlə pisləyir və rədd edirik.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi tərəfindən hazırlanmış "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabatı" üzrə qəbul edilmiş qətnaməyə münasibətində bildirib.

A.Hacızadə vurğulayıb ki, Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olan, bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız bu müddəalar Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin gələcəyinə dair ciddi suallar yaradır.

"Təəssüf ki, xarici və təhlükəsizlik siyasətinə dair dayaz yanaşmanın əksi olan bu hesabat, həm də Avropa Parlamentinin üzvlərinin populist siyasətin əsiri olduqlarını, həmçinin regionumuzla bağlı düzgün strateji yanaşma inkişaf etdirməkdən nə qədər uzaq olduqlarını göstərir.

Bəyanatlarında ərazi bütövlüyü və suverenliyə hörməti aşılayan Avropa İttifaqının bir qurumu olan Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı nümayiş etdirdiyi bu hörmətsizlik, ölkəmizin öz suveren ərazilərində heç bir mülki əhalinin hədəf alınmadığı antiterror tədbirlərini pisləməsi və ərazilərimizdə separatçılığın və Ermənistanın keçmiş işğalçılıq siyasətinin təşviq olunması bir daha göstərir ki, Avropa Parlamenti üçün beynəlxalq hüquq və Avropa İttifaqının maraqları yox, parlament üzvlərinin şəxsi maraqları üstünlük təşkil edir.

Nə qədər ki, Avropa İttifaqı öz qurumlarında baş verən bu özbaşınalığa son qoymayacaq, təsisatın xarici və təhlükəsizlik siyasəti beynəlxalq münasibətlər sistemində öz utopik yanaşmalarının əsiri olmaqda davam edəcəkdir", - deyə mətbuat katibi qeyd edib.

# ABŞ ictimaiyyəti Qarabağ regionunun yenidən qurulması barədə məlumatlandırılıb

**Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim Vaşinqton şəhərində fəaliyyət göstərən Xəzər Siyasəti Mərkəzində hibrid formatda keçirilən tədbirdə çıxış edib.**

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, müzakirəyə evsahibliyi edən Xəzər Siyasəti Mərkəzinin baş icraçı direktoru Əfqan Nifti, mərkəzin idarə heyətinin üzvləri sabiq səfir Riçard Hoqlənd və Erik Rudenşiyold Azərbaycan səfirini və qonaqları salamlayıb.

Tədbirdə səfir X.İbrahim Azərbaycanda və Xəzər regionunda baş verən yeniliklər, inkişaflar, eləcə də ölkəsinin gələcəyi haqqında auditoriyanı ətraflı məlumatlandırıb.

Səfir çıxışı zamanı Azərbaycan-Ermənistan sülh danışıqları, Qarabağ iqtisadi regionunda mövcud olan mina problemləri, işğaldan azad olunmuş ərazilərin tamamilə dağıdılması, mövcud olan



məscidlərin tamamilə məhv edilməsi, Prezident İlham Əliyevin liderliyi və təsdiq etdiyi proqramlar çərçivəsində Qarabağ regionunun yenidən qurulması, məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması məqsədilə dövlətimiz tərəfindən davamlı olaraq görülən işlər, işğaldan azad edilmiş regionlarda iqtisadi və yaşıl zonaların yaradılmasından bəhs edib.

Tədbirin sonunda sual-cavab sessiyası baş tutub.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə "AzerGold" arasında birgə əməkdaşlığa dair memorandum imzalanıb



**Fevralın 29-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə "AzerGold" QSC arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.**

AZƏRTAC xəbər verir ki, sənədi komitənin sədri Bahar Muradova və "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov imzalayıblar.

Bildirilib ki, qarşılıqlı razılaşmanın əldə olunmasında əsas məqsəd gender bərabərliyi, qadınların məşğulluğunun artırılması, onların ictimai həyatda fəal iştirakının təşviqi, aztəminatlı ailələrdə böyüyən qızların təhsilinə dəstək, fiziki məhdudiyyətli şəxslərin və onların övladlarının cəmiyyətə inteqrasiyası, həmçinin digər müvafiq istiqamətlərdə sosial əhəmiyyətli birgə tədbirlərin həyata keçirilməsidir.

İmzalanma mərasimindən əvvəl çıxış edən Bahar Muradova dövlət komitəsi tərəfindən sosial layihələrin çərçivəsinin getdikcə genişləndirildiyini, həm müvafiq dövlət orqanları, həm biznes dairələri, həm beynəlxalq qurumlar, həm də qeyri-hökumət təşkilatları ilə intensiv əməkdaşlığın aparıldığını diqqətə çatdırıb.

Korporativ sosial məsuliyyət tədbirlərinə diqqət çəkən komitə sədri bu istiqamətdə görülən işlərin sistemli xarakter alması, nəticəyönümlü olması və hədəf qruplarının düzgün müəyyənləşdirilməsi məqsədilə belə sənədlərin imzalanmasının önəmini vurğulayıb.

B. Muradova qarşılıqlı əməkdaşlığın gələcəkdə daha geniş spektrləri əhatə edəcəyinə də inamını bildirib.

"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov çıxışında qeyd edib ki, cəmiyyət BMT-nin 2030-cu ilədək dövrü əhatə edən 17 Dayanıqlı İnkişaf Məqsədinə, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq məsuliyyət zonalarında Dayanıqlı İnkişaf Məqsədlərini diqqətdə saxlayır, dövlətimizin sosial sahədə yürütdüyü siyasətə töhfəsini verir. Bildirilib ki, hasilat və istehsalat fəaliyyəti həyata keçirilən bölgələrdə yerli icmaların hərtərəfli dəstəklənməsi, o cümlədən məşğulluq, təhsil, sağlamlıq və digər istiqamətlərdə inkişafı yönündə ardıcıl, sistemli layihələr icra edilir. Bu layihələr sırasında qadınların məşğulluğu, uşaqların fərdi inkişafı, fiziki məhdudiyyətli şəxslərin sosial həyata inteqrasiyası ilə bağlı məsələlər də xüsusi yer tutur.

Z.İbrahimov həmçinin komitə ilə tərəfdaşlıq əlaqələrinin yaradılmasının qeyd olunan istiqamətlər üzrə fəaliyyətin daha da genişləndirməsi və effektivliyinin artırılmasına əlavə töhfələr verəcəyinə əminliyini bildirib.

Çıxışlardan sonra imzalanma mərasimi keçirilib.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Fransa Cənubi Qafqaza girmək üçün Ermənistanı silahlandırır

### Amma Paris bu məkrli məqsədinə çata bilməyəcək

**Keçmiş Qarabağ münaqişəsinin həlli üçün Azərbaycan 30 ilə yaxın danışıqlar apardı. Amma bu danışıqlardan uğurlu bir nəticə hasil olmadı. Çünki Ermənistan müxtəlif bəhanələrlə danışıqlardan yayınır, münaqişənin ömrünü uzatmağa çalışırdı. Bununla da nəsə bir uğur əldə edəcəyinə ümid bəsləyirdi. 30 ilə yaxın davam edən Qarabağ münaqişəsini, nəhayət, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günə həll etdi.**

Ölkəmiz üçün böyük uğurla yekunlaşan İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanması istiqamətində danışıqlar aparılmağa başlandı. Lakin Ermənistan yenə də əvvəlki ssenariyə uyğun olaraq müxtəlif bəhanələr uyduraraq sülh müqaviləsinin imzalanmasından yayınır. Xam xəyallarla yaşayaraq yenə də bölgədə gərginlik yaratmaq istəyir, sərsəm-sərsəm bəyanatlar verir. Fransadan, Hindistandan və başqa ölkələrdən silah alır. Bəri başdan deyək ki, sonda uduzan tərəf sülh müqaviləsinin imzalanmasını ləngidən Ermənistan olacaq. Çünki Ermənistan nə qədər silah alırsa-alsın, güclü, qüdrətli, dünyada söz sahibi olan Azərbaycanın qarşısında dayana bilməz.

Heç kimə sirr deyil ki, Ermənistan bu addımları özbaşına atmır. Fransa və başqa ölkələr bunu ona məcbur edir. Rəsmi Paris Cənubi Qafqaz regionunda gizli planlarını həyata keçirmək üçün vəziyyəti gərginləşdirir, Ermənistanı silahlandırır. Bunu da bütün dünya görür, amma susur. Ermənistanın baş naziri Nikol Paşinyanın Fransaya səfəri və burada Prezident Emmanuel Makronla görüşməsi, verilən açıqlamalar, gözlənildiyi kimi, bölgədə sülhə xidmət etmir. Əksinə, iki ölkə arasındakı vəziyyəti daha da gərginləşdirir.

Həm görüş vaxtı, həm də görüşdən sonra Fransa Prezidenti Makronun səsləndirdiyi fikirlər arasında ötən il sentyabrın sonlarında Qarabağ iqtisadi rayonundan ermənilərin könüllü köçü ilə bağlı məsələ diqqəti daha çox cəlb edir. Hansı ki, həmin hadisə Fransanın bölgədə oynadığı pozucu siyasətin, Ermənistanı qızışdırmasının nəticəsi olaraq meydana çıxmışdı. Fransa 2020-ci ildən bəri Ermənistanın Azərbaycanla sülhə gəlməsinə müxtəlif yollarla əngəl törədir. Rusiyanı Cənubi Qafqazdan sıxışdıraraq burada möhkəmlənmək üçün daim İrəvanı qızışdırır, həm də silahlandırır.

Fransa Prezidentinin Qarabağ ermənilərinin qayıtmasıyla bağlı fikirlərindən onun ermənilərdən daha çox erməni olmağa çalışdığı aydın görünür. Demək olar ki, bu mövzu siyasi gündəmdən çıxıb. Amma Fransa Cənubi Qafqaz planlarını həyata keçirmək üçün bunu əlində bəhanə edərək regionda gərginlik yaratmağa çalışır.

Paşinyanın Paris səfərinin davam etdiyi günlərdə Fransanın Ermənistana yeni silah-sursat göndərəcəyinə dair yayılan məlumat tüstülənən ocağa yanacaq atmağa bənzəyir. Ölkənin "Le Figaro" qəzeti yazıb ki, Fransa Ermənistana yeni silah partiyası göndərəcək. Nəşrin yazdığına görə, Fransanın "Ground Master" (GM200) radarları, gecəgörmə cihazları və durbinlər Ermənistana yola salınacaq. Məlumatda o da qeyd olunur ki, tərəflər arasında imzalanan müdafiə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunda Fransa ordusunun bu il erməni hərbi qulluqçular üçün dağlıq şəraitdə döyüş hazırlığı kursu keçirməsi də nəzərdə tutulur.

Heç ermənilərin özləri də Fransanın göndərdiyi silahlara o qədər güvənmirlər. Ermənistan mediasında bu barədə müxtəlif fikir və rəylər yazılır. "Şərəf duyuram" parlament fraksiyasının katibi Tiqran Abramyan çıxışı zamanı bu barədə danışıb. Revanşist siyasətçi Fransadan gətirilən silahların Ermənistan ordusunun döyüş qabiliyyətini artıra biləcəyinə şübhə ilə yanaşıb. O deyib ki, düzdür, fransız silahları əlbəttə ki, müasirdir. Amma problem ondadır ki, onların bizdəki sistemlərlə nə dərəcədə uyğunlaşdığını anlamaq lazımdır. Onun sözlərinə görə, radarlar və hava hücumundan müdafiə sistemləri əsasən müxtəlif situasiyalarda bir-biri ilə əlaqəli fəaliyyət göstərir, əlaqələndirilmiş hərəkətlərin olmaması heç bir halda effektivliyi təmin etməyəcək.

Fransanın göstərişlərinə qul kimi boyun əyən Ermənistan Azərbaycanla sərhəddə yeni təxribat hazırlamaq istəyir. Təbii ki, bu, Fransanın sifarişidir. Amma bu, baş verərsə, Ermənistan çox ciddi zərbə altına düşəcək. Belə olan halda ermənilərin mövqeləri Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın ediləcək. Prezident İlham Əliyev 2024-cü il yanvar ayının 10-da yerli televiziya kanallarına müsahibəsində bunu bir daha bəyan edərək demişdir: "Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

Fransa hökuməti ümid edir ki, Ermənistanı silahlandırmaqla bölgədə gərginlik yaradacaq və bundan istifadə edib çirkin məqsədini həyata keçirəcək. Amma Fransa da, Ermənistan da anlamalıdır ki, atdıqları bu addımlarla heç nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan öz ərazilərini istənilən təcavüzdən qorumağa qadirdir. Ölkəmizin 44 günlük Vətən müharibəsindən qalib çıxmış və sonrakı müddətdə daha da güclənmiş qüdrətli ordusu var.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Avropa Parlamentinin 2024-cü il fevralın 28-də "Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi" ilə əlaqədar qəbul edilən illik hesabatına Azərbaycan Respublikası Milli Məclisinin münasibəti



Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2024-cü il fevralın 28-də "Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi" ilə bağlı qəbul etdiyi illik hesabatda öz əksini tapmış qərəzli, birtərəfli, beynəlxalq hüquq və ədalət anlayışları baxımından etinasız və laqeyd fikirləri kəskin şəkildə qınayır və onlara qətiyyətlə etirazını bildirir.

Uzun illər ərzində Avropa strukturlarının, xüsusən də Avropa Parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalının ağır nəticələrinə, törədilmiş vandallıqlara, bir neçə gün əvvəl növbəti ildönümü qeyd edilmiş Xocalı soyqırımına siyasi-hüquqi qiymət verməkdən ardıcıl surətdə imtina etməsi bu dairələrin selektiv və ikili standartlara əsaslanan yanaşması baxımından adi hala çevrilmişdi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın böyük qurbanlar hesabına öz torpaqlarını işğaldan azad edərək, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına təmin etməsinə göstərilən münasibət də əvvəlkilərdən fərqlənmirdi. Lakin belə görünür ki, Avropa Parlamenti Cənubi Qafqaz regionunda baş verən hadisələrə özünün riyakar və ikiüzlü yanaşmalarında "yeni nailiyyətlər" qazanmaq əzmini davam etdirmək niyyətindədir. Populizm və demaqogiyanı əlində rəhbər tutan, sülhə və sabitliyə xidmət etməyən sənədləri, açıqlamaları dövriyyəyə buraxmaqla özlərinə siyasi kapital qazanmağa çalışan avropalı siyasətçilər müəyyən dairələrin onlar üçün nəzərdə tutduğu "alət" rolunu inamla oynamaqda israrlıdırlar.

Avropa Parlamentinin illik hesabatında əks olunmuş bir sıra məqamlar da məhz bunu deməyə əsas verir. Ermənistanın rəsmi bəyanatları ilə eynilik təşkil edən həmin məqamlara nəzər yetirdikdə, bu sənədin erməni lobbisinin təsiri və diktəsi altında hazırlandığı özünü aydın şəkildə büruzə verir.

Qeyd olunan sənəd həm də Avropa Parlamentində Azərbaycanofob və islamofob təfəkkürün, şovinist və irqçi ideologiyanın getdikcə daha da güclənməkdə olduğunu göstərir. Bu zərərli tendensiyaların ardıcıl və davamlı şəkildə nümayiş etdirilməsi məsələsində Avropa Parlamentinin Avropa Şurası Parlament Assambleyası ilə açıq rəqabətə girdiyi aşkar sezilməkdədir.

Avropa Parlamentinin bu hesabatı Cənubi Qafqaz regionundakı mövcud reallıqları nəinki təhrif edir, həm də cərəyan edən proseslər baxımından kifayət qədər təhlükəli xarakter daşıyır.

Məhz Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində göstərdiyi səylər, Ermənistanın isə ötən dövr ərzində sülh prosesinə zərbə vuran siyasi-hərbi təxribatları, şərti sərhəddə yaratdığı gərginliklər Avropa Parlamenti tərəfindən nədənsə bilərəkdən görməzdən gəlinir.

Digər tərəfdən, Almaniyada sülh danışıqlarının davam etdiyi bir vaxtda qəbul edilmiş bu qətnamə və irəli sürülən absurd iddialar ciddi suallar doğurur: Avropa Cənubi Qafqazda sülhün bərqərar olmasında həqiqətən də maraqlıdırmı? Azərbaycana qarşı qəti addımların atılmasına, sanksiyaların tətbiqinə çağıran avropalı parlamentarilər üçün Azərbaycanın suverenliyi və ərazi bütövlüyü Ermənistanın suverenliyi və ərazi bütövlüyündən daha az əhəmiyyətlidirmi?

Hesabatda Ermənistanın silahlandırılmasının zəruriliyinə dair yer alan fikirlər isə regiondakı vəziyyəti gərginləşdirmək, sülh prosesini əngəlləmək niyyətini bariz şəkildə əks etdirir.

Görünən budur ki, Avropa Parlamenti artıq Fransanın anti-Azərbaycan siyasətini aşkar şəkildə mənimsəyib, Makron və Borel kimi "siyasətçilərin" konkret məqsədlərə xidmət edən düşüncələrini özünə siyasi xətt kimi seçib. Bu düşüncələri sülh, təhlükəsizlik və demokratiya səyləri ilə pərdələməkdən isə çəkinmirlər.

Avropa Parlamenti başa düşməlidir ki, daha əvvəl qəbul etdiyi qətnamələr kimi, bu sənəd də Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi heç kim tərəfindən şübhə altına alına bilməz. Heç kim Azərbaycana təzyiq göstərə bilməz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz artıq yeni dövrə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərini bərpa edən, məcburi köçkünləri öz doğma torpaqlarına qaytaran güclü və qətiyyətli Azərbaycan üçün bu dövr həm də beynəlxalq səviyyədə sülhə, ədalətə, dürüstlüyə və səmimiyyətə əsaslanan əməkdaşlığı və tərəfdaşlığı ehtiva edir. Avropa Parlamentinin rəhbər tutduğu "prinsiplər" isə birmənalı şəkildə rədd edilir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin regionda sülh və sabitliyin təmin olunması istiqamətində göstərilən səylərə zərbə vurmaq niyyətini qəti şəkildə qınayır, bu cür cılız təxribatlarla deyil, Avropanı narahat edən ciddi və təxirəsalınmaz məsələlərlə məşğul olmağı tövsiyə edir.

## Fransanın casus şəbəkəsi daha çox Ermənistan hakimiyyətinə təhlükə yaradır

**Ermənistan ölkəmizə qarşı ərazi iddiası başlatdığı gündən Azərbaycan problemin sülh yolu ilə həllinə üstünlük versə də, işğalçı dövlət himayədarlarının vasitəçiliyi ilə əldə etdiyi müvəqqəti qələbədən ruhlanaraq həmişə əks düşüncədə olduğunu nümayiş etdirib. 2020-ci ilin payızında baş vermis Vətən müharibəsindəki məğlubiyyətinə kimi Ermənistanın hərbi-siyasi rəhbərliyinin müxtəlif vaxtlarda yeni ərazilərimizi işğal etmək niyyətində olmaları barədə təhdidlərinə, hətta tanklarını Bakıya sürəcəkləri barədə sərsəmləmələrinə çox şahidlik etmişdik.**

Təəssüf ki, illərdir problemin həllində vasitəçi rolunda çıxış edən bəzi dövlətlər, xüsusilə Fransa vaxtaşırı "problemin hərbi yolla həlli yoxdur" kimi bəyanatlar versələr də, münaqişənin sülh yolu ilə həlli üçün heç bir iş görmürdülər. Əslində, işğalçı Ermənistanı birmənalı olaraq silahlandırıb, əraziləri işğal olunan və bir milyon vətəndaşı qaçqın-köçkün düşən Azərbaycandan "güzəşt" tələb edirdilər.

Azərbaycan Vətən müharibəsindəki möhtəşəm qələbədən sonra da prinsiplərinə sadiq qalaraq Ermənistana sülh təklif etdi. Sonralar baş verən proseslər də sübut etdi ki, Azərbaycan qarşı tərəfdən fərqli olaraq bölgədə sülhün təmin olunması istiqamətində ardıcıl olaraq prinsipial mövqedən çıxış edir. Ermənistan isə məkrli niyyətini gizlətmək üçün özünü sözdə sülh tərəfdarı göstərir, danışıqlar prosesini müxtəlif vasitələrlə uzadaraq revanş götürmək üçün vaxt qazanmağa çalışır…

Ermənistanın sülh müqaviləsini imzalamaq niyyətində olmaması faktdır. Birincisi, iqtisadi tənəzzül dövrünü yaşayan, xarici borc içində çabalayan bir ölkənin var gücü ilə yenidən silahlanması onun sülh niyyətində olmadığını isbat edir. İkincisi, Ermənistan hərbi-siyasi rəhbərliyi müstəqil qərar vermək gücündə deyil. Qərbdən asılılıq, xüsusilə Fransanın öz qlobal maraqları naminə Ermənistana sülh müqaviləsini imzalamamaq üçün təzyiq göstərməsi göz önündədir. Heç şübhəsiz ki, hakimiyyətə gələrkən Nikol Paşinyan Parisdən aldığı dəstək nəticəsində bu ölkə qarşısında öhdəliklər götürüb.

Ermənistanı Azərbaycandan "qorumaq" adı ilə Aİ-nin "müşahidə" missiyası adı ilə təqaüddə olan təcrübəli jandarm qüvvələrini Ermənistana yerləşdirməklə rəsmi Paris Nikol Paşinyan hakimiyyətini basqı altında saxlayıb, öz fikirlərini onun dili ilə səsləndirə bilir.

Fransa geosiyasi maraqları naminə Cənubi Qafqazda dayanıqlı sülhün olmasını qəti surətdə istəmir. 2020-ci ilin noyabrında üçtərəfli Bəyanat imzalandıqdan sonrakı dövrdə baş verən hadisələri izlədikdə Parisin sülh prosesinə mane olmaq üçün açıq surətdə müdaxilə etdiyi faktını heç cür gizlətmək mümkün deyil.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra Fransanın "Franse 24" telekanalına müsahibə verən Ermənistanın baş naziri iki ölkə arasında sülh sənədini "ağlagəlməz", yəni qeyri-mümkün adlandıraraq bunu "Bakının Ermənistanı Qərbi Azərbaycan hesab etməsi" ilə izah edib. Nikol Bakını "yeni ərazilər tutmağa" hazırlaşmaqda ittiham etməkdən də çəkinməyib. Bunun ardınca Fransanın müdafiə nazirinin Ermənistana ikigünlük səfərini də təsadüfi hesab etmək olmaz.

Təcrübədən məlumdur ki, Fransa Azərbaycana qarşı hər hansı bir təxribat planı hazırlayanda Emmanuel Makron adətən öz fikirlərini yedək təşkilatlardakı adamlarının dili ilə səsləndirir. Son günlər Fransanın və erməni lobbisinin təsiri altında olan KİV-də və beynəlxalq qurumlarda Azərbaycanın növbəti "hücum planı" haqqında gedən əsassız məlumatlar Fransanın regionla bağlı hazırladığı növbəti məkrli oyunundan xəbər verir. Aydın məsələdir ki, Paris Ermənistanda hərbi mövcudluğunu təmin etmək məqsədilə regionda növbəti toqquşmalara rəvac vermək niyyətindədir.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 28-də Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Cozef Borelin bəyanatına münasibət bildirərək qeyd edib: "Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlanması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər".

Dövlətimizin başçısı məsələyə münasibət bildirərkən ölkəmizin sülhə sadiq olması haqqında fikirlərini bir daha əminliklə vurğulayıb. Xatırladaq ki, bir qədər öncə fransalı general Ermənistan-Azərbaycan sərhədinə gələrək "binoklla" müşahidə aparmışdı. Bundan cəmi bir neçə gün sonra Ermənistan hərbçiləri snayperlə əsgərimizi yaraladılar...

Bu arada qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Fransaya baş tutan son səfəri zamanı iki ölkə arasında kəşfiyyat xidmətləri arasında sıx tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılıq əldə olunub. Bu fakt Fransaya əvvəllər Ermənistana yerləşdirdiyi casus şəbəkəsinə "qanuni" fəaliyyət göstərmək imkanı verəcək.

Əslində, Fransanın kəşfiyyat orqanlarının casus şəbəkəsinə Ermənistanda meydan verilməsi bu gün daha çox Nikol Paşinyan hakimiyyətinə təhlükə yaradır. Heç şübhəsiz ki, Qərbə, Fransaya boş vədlər verib, götürdüyü öhdəliklərini yerinə yetirə bilməyən Nikol bir gün də "böyük bacısı"nın İrəvana yerləşdirdiyi xüsusi xidmət orqanlarının fitnəsi ilə də hakimiyyətdən uzaqlaşdırılacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Makronun müharibə sayıqlaması...

### Ermənistanı silahlandıraraq savaşa hazırlayan Fransanın əsl niyyəti Cənubi Qafqazı qan gölünə çevirməkdir

**"Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir".**

Fevralın 28-də Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirdiyi kimi, Fransa Prezidenti Emmanuel Makron ölkəmizə qarşı şər, böhtan səsləndirir və bununla da, əslində, Parisin Bakıya qarşı qərəzini açıq şəkildə ortaya qoyur.

Ancaq Azərbaycan suverenliyini, ərazi bütövlüyünü beynəlxalq hüququn normaları çərçivəsində təmin edib və ölkəmizin bu məsələlərlə bağlı günahlandırılması cəhdləri absurd olduğu qədər də əbəsdir.

### Məkrli oyunlar

Azərbaycanın 2023-cü ilin sentyabrında suverenliyini tam təmin edərək Fransanın Qarabağa uzanan separatizm əlini sındırması və müstəmləkəçi ölkəni Cənubi Qafqazdan qovması sözün əsl mənasında Makronun yuxularını ərşə çəkib. Fransa Prezidentinin guya Azərbaycanın Ermənistana hücum edəcəyi kimi sərsəm sayıqlamaları isə onun gözüaçıq vayğa gördüyünə dəlalət edir.

Yoxsa Makronun başına hava gəlməyib ki, Almaniyanın təşəbbüsü ilə fevralın 17-də Münxendə Azərbaycan və Ermənistan liderlərinin görüşünün, iki ölkə arasında normallaşmaya nail olunması üçün yaranan münbit şəraitin fonunda müharibədən dəm vursun?

Paşinyanın "böyük bacısı"nın şübhəli və sualdoğuran digər davranışları isə, bir əli ilə Ermənistanı silahlandıraraq revanşa hazırlaması, digər tərəfdən də həyasızcasına Azərbaycanı savaşla suçlamasıdır...

Bəli, çox təəssüf ki, hazırda Fransa Prezidenti Makronun timsalında belə təzadlı bir xarakterə sahib şəxsin məkrli oyunları ilə üz-üzəyik...

Amma o da gerçəklikdir ki, islamofob, türkofob Fransa liderinin bu oyunları elə Ermənistanın özünü məhvə sürükləyir.

### Hadisələrin gedişatı Makronu qane etmir

Münxendəki görüşdən dərhal sonra Paşinyanın tələm-tələsik Fransaya Makronla görüşə yollanması da işin içində ayrı mətləblərin olduğunu açıq ortaya qoydu. Nədən ki, Ermənistanın baş nazirinin sözügedən səfəri zamanı verdiyi absurd açıqlamalar sülhdən daha çox müharibədən yana olduğunu göstərdi. Ermənistanın baş naziri "France 24" telekanalına müsahibəsində ölkəmizə qarşı yenidən əsassız iddialar səsləndirərək, guya Azərbaycanın Ermənistana hücuma keçməyə hazırlaşdığını söylədi. Makronun təhriki ilə Paşinyan bu dəfə də heç bir əsası olmayan və tamamilə iftira və böhtanlardan ibarət açıqlamaları ilə sülh danışıqlarına bilə-bilə zərbə vurdu.

Hər kəs xatırlayır, məhz Fransanın təxribatı nəticəsində Azərbaycan İspaniyanın Qranada şəhərində 2023-cü il oktyabrın 5-nə planlaşdırılan beştərəfli görüşdən imtina etmişdi.

Məsələ ilə bağlı Prezident İlham Əliyev bildirmişdi ki, Fransa Prezidenti televiziyaya verdiyi müsahibələrindən birində Azərbaycanın ünvanına müəmmalı və qəbuledilməz sözlərdən, ifadələrdən istifadə etdi və beləliklə, özünü prosesdən ayırdı. Çünki tam aydın idi ki, əgər siz neytrallığınızı itirirsinizsə, artıq vasitəçi ola bilməzsiniz, bu şansı əldən buraxırsınız: "Biz rəsmən bəyan etdik, artıq düzgün, yaxud münasib hesab etmirik ki, Fransanın hər hansı bir nümayəndəsi Ermənistanla Azərbaycan arasında normallaşma prosesində iştirak etsin. Buna görə bu məxsusi səbəbə görə mən Qranadaya getmədim".

Bütün bunlar da göstərir ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasını Paris heç zaman istəməyib və hazırda da bu, belədir. Buna görə də Fransanın Münxen görüşündən sonra prosesi pozmağa, aranı qarışdırmağa çalışması təəccüb doğurmadı. Həmçinin Fransa Prezidentinin Münxen görüşündən sonrakı təxribatçı davranışları Makronun Almaniya kansleri Olaf Şoltsun sülh prosesi istiqamətindəki təşəbbüsünü qısqanclıqla qarşıladığına başqa bir nümunə oldu.

### Ermənistan məhvə sürüklənir

Makron Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşmasını iddia etməklə, əslində, beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq və öz çirkin oyunlarını pərdələmək məqsədi güdür.

Fevralın 21-də Parisdə keçirilən brifinqdə Makronun Paşinyana "Fransa Ermənistanla müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirməyə davam edəcək. Fransa Ermənistana müdafiə silahlarının tədarükünə razılıq verib" deməsi isə Parisin ölkəmizə qarşı hərbi təxribatlarını da əyani göstərir.

Ancaq Fransa da yaxşı bilir ki, onun köhnə-külüş texnikaları ilə silahlanmış Ermənistan ordusu dünya orduları sırasında ilk sıralarda qərarlaşan Azərbaycan Ordusunun qarşısına çıxa bilməz. Əgər bu axmaq cürətə düşsə belə "dəmir yumruq" vasitəsilə yenidən külü göyə sovrular.

Buna görə də nə qədər ki, gec deyil, Makronun təhriki ilə müharibəyə iştahlanan Paşinyan Ermənistanın məhvi olacaq savaş variantından əl çəkib özlərinin xilası üçün sülhə yönəlməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Köhnə Dəyirman gələcəyə yeni enerji ilə gedir

COP29 ərəfəsində Azərbaycanın ekoloji gündəliyə sadiqliyinin bariz nümunələrindən biri: ölkəmizdə ilk müasir ofis binası olaraq 1997-ci ildə fəaliyyətə başlayan Landmarkda quraşdırılmış günəş panelləri.

İndiyədək Azərbaycanda bir çox ilklərə imza atmış Böyük Britaniyalı sərmayəçi Eran Müdüroğluna məxsus bu təşəbbüs digər iş adamları üçün də nümumə ola bilər.




©REZA / CREATIVE LEGENDS

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Paris alovun üstünə benzin tökür

### İlham Əliyev ABŞ və Fransanı reallıqları qəbul edib, regionun lider dövləti olan Azərbaycanla işləməyə çağırdı

**"Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış etdik. Əslində, biz sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, biz əgər sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!"**



Prezident İlham Əliyevin bu fikirləri son günlərdə Qərb mətbuatında "Azərbaycanın Ermənistana qarşı hücuma hazırlaşması" iddiasının həm yalan, uydurma olduğunu təsdiqlədi, həm də bir daha Azərbaycanın əsl məqsədini dünyaya nümayiş etdirmiş oldu.

Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə İlham Əliyev əsl həqiqətləri açıqladı və bildirdi ki, ikili standartların hökm sürdüyü Avropa İttifaqı Azərbaycana qarşı saxta məlumatlar əsasında ittihamlar səsləndirir, ölkəmizin Ermənistana hücuma hazırlaşması ilə bağlı feyklər tirajlayır. Fransanın Avropa İttifaqının Ukraynanı ərazi bütövlüyünü təmin etmək üçün müdafiə etdiyi bir şəraitdə tam tərsinə, ərazi bütövlüyünü təmin etdiyinə görə Azərbaycanı günahlandırması anlaşılmazdır. Bu, islamofobiya nümunəsidir.

Dövlət başçısı onu da vurğuladı ki, vaxtilə ATƏT-in sabiq Minsk qrupunda olmuş Fransa, ABŞ və Rusiya kimi ölkələr Azərbaycanı öz yolundan döndərmək üçün illərlə müxtəlif alətlərdən istifadə ediblər.

Prezident konkret faktlarla, arqumentlərlə müqayisə apararaq reallıqları diqqətə çatdırıb. Belə ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olarkən barbar ermənilər həmin əraziləri dağıdıb yerlə yeksan ediblər. Bir milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşüb. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymayıb.

Amma heç bir beynəlxalq təşkilat, mərhum Minsk qrupu da Ermənistana "gözün üstə qaşın var" deməyib. Məhz bu cəzasızlıq mühitindən yaxşıca yararlanan Hayastan istədiyi vandalizmi həyata keçirib. Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalıb. Lakin 2 ili tamam olan Rusiya-Ukrayna müharibəsində ərazi bütövlüyünü bərpa etmək istəyən Ukraynaya Qərb ölkələri silahlar göndərir və bəyan edirlər ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir.

Bəs belə olan halda Azərbaycan hansı yolu seçməli idi?!

30 il sülh istəyən Azərbaycana heç bir dəstək göstərilmədi və öz gücünə ərazilərini işğaldan azad etdiyinə görə təzyiqlərə məruz qalır. Prezident İlham Əliyev bunun izahını verərək vurğuladı ki, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insan belə düşünür ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstanın və Ermənistanın çox yaxın qəbul edildiyi, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu islam dinimizdir: "Mən demirəm ki, bu, mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?!"

Azərbaycan Prezidenti Almaniyanın da bu prosesdə ikili oyun oynadığını vurğulayaraq dedi ki, bu ölkənin kansleri qərəzsizlik nümayiş etdirir, onun bəyanatları və fəaliyyəti bunu göstərir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Azərbaycan isə bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlib. Əgər Azərbaycanın öz mövqeyini bildirmək hüququ yoxdursa, nəyə görə orada olmalıdır?!

İlham Əliyev qətiyyətli şəkildə vurğuladı ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, Azərbaycan Avropa Şurasından tamamilə çıxmağı barədə məsələyə ciddi şəkildə baxa bilər.

İndi Almaniya Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması istiqamətində tərəflər arasında görüşlərin keçirilməsinə vasitəçilik edir. Ölkə liderlərinin Münxendə, xarici işlər nazirlərinin isə Berlində görüşlərinin təşkili Almaniyanın sülh prosesinə konstruktiv yanaşmağa çalışdığını göstərir. Yəni Almaniya qonşuluğunda yerləşən, Prezidentin söylədiyi kimi, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq, sülh prosesində neytrallıq nümayiş etdirir. Amma bu ölkənin KİV-ində Azərbaycana qarşı çirkin kampaniya aparılır. Azərbaycan haqqında bilərəkdən mənfi təəssürat yaradılır.

İlham Əliyev bir daha bəyan etdi ki, bütün bunlar, o cümlədən Azərbaycana qarşı qarayaxmalar, iftiralar, hədə-qorxu dili ilə danışıqlar həyata keçirilən işlərə mane ola bilməz. Azərbaycan dövləti istər ərazi bütövlüyünün bərpası, istərsə də iqtisadi gündəliyi ilə bağlı xalqın, ölkənin rifahı naminə möhtəşəm işlər görür.

Artıq qonşu Rusiya Federasiyası əsl reallıqları anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransanı da eyni addımı atmağa çağıran İlham Əliyev bəyan etdi ki, əks təqdirdə vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda regionun aparıcı ölkəsi, güclü iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Fransa Ermənistanı ikinci Ukraynaya çevirmək istəyir

**"Berlin platforması çərçivəsində Azərbaycan və Ermənistan arasında görüşlərin keçirilməsi müsbət hadisə olsa da, Paşinyanın Makrondan son dərəcə asılılığı bu danışıqların nəticəsi ilə bağlı nikbin proqnozlar səsləndirməyə imkan vermir. Bu gün Fransa Prezidentinin ölkədaxili uğursuzluqlarını xarici siyasət hesabına kompensasiya etmək istəyi onun ölkəmiz əleyhinə müxtəlif təxribatlara cəhd göstərməsinə səbəb olur. Paris çirkin niyyətlərini reallaşdırmağa çalışsa da, heç bir məqsədinə çata bilmir".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Fransanın 25-ci prezidenti olan Emmanuel Makron mütəmadi olaraq ermənipərəst mövqeyi ilə gündəmə gəlir: "Makrondan əvvəlki prezidentlərin heç biri birmənalı olaraq diplomatiyadan tamamilə kənar şəkildə Ermənistana dəstək və Azərbaycana təzyiq və təhdid siyasəti həyata keçirməyib. Bəs görəsən Makronun bu qədər qatı ermənipərəst olmasının motivləri nə ilə bağlıdır? Ermənilər və fransızlar etnik qohum olmadıqlarına görə burada motiv tamamilə başqadır. Amma səbəbin nə olmasından asılı olmayaraq, o da bəllidir ki, Makron bu gün Fransadakı erməni lobbisinin əlində oyuncağa çevrilib. Makron onu hakimiyyətə gətirən erməni lobbisi və diasporunun sifarişlərini icra edir".

Deputatın dediklərinə görə, Parisin Cənubi Qafqaza marağının kəskin artması həm də onunla bağlıdır ki, Fransa parlamentində Makronun təmsil etdiyi siyasi partiya əsas güc sahibi deyil və bu partiya ölkə qanunlarının qəbulunda çox ciddi problemlərlə üz-üzə qalır. Ona görə də



Fransa Prezidenti ölkədaxili uğursuzluqlarını xarici siyasət hesabına kompensasiya etmək istəyir. Xüsusilə də Cənubi Qafqazda hərbi varlığına nail olmaq istəyir, elə fəallığın əsas səbəbi də budur. "Makron Avropanın seçilən və ən fəal liderlərindən biri kimi tanınmaq istəyir. Bu yaxınlarda NATO ölkələrinin Ukraynaya hərbi qüvvə göndərməsi ilə bağlı təklifi də onun aktiv lider kimi tanınmaq, fərqli ideyaların müəllifi kimi qəbul edilmək istəyindən irəli gəlir. Lakin onun Ukraynaya hərbi yardımla bağlı ideyası elə öz həmkarları tərəfindən süngü ilə qarşılandı", - deyə müsahibimiz söyləyib.

Elman Nəsirov həmçinin deyib ki, Fransa Azərbaycana qarşı təxribatlar törətməklə, Cənubi Qafqaz cəbhəsində fəallıq nümayiş etdirməklə erməni lobbisinin və diasporunun diqqət mərkəzində olmaq istəyir. Bu səbəbdən də çirkin niyyətli Fransanın regiona gəlişi sülh və əmin-amanlığa gətirib çıxarmır. Əksinə, Parisin regionda hansısa formada mövcudluğu yalnız vəziyyəti gərginləşdirə və faşizmi gücləndirə bilər.Təsadüfi deyil ki, Fransanın və müasir Ermənistanın tarixində ilk dəfədir ki, bu ölkənin müdafiə naziri İrəvana səfərə gedir. Paris Ermənistanı silahlandırmaqda israrlıdır, onlara təkcə zirehli texnikanın deyil, eyni zamanda yaxın, orta və uzaqmənzilli raketlərin, hava hücumundan müdafiə sistemlərinin verilməsini planlaşdırır. Həmçinin Fransanın Ermənistanda hərbi müşaviri də fəaliyyətə başlayır. Yəni bütün bunlar ondan xəbər verir ki, Fransa Ermənistan vasitəsilə Cənubi Qafqazda möhkəmlənmək istəyini reallaşdırmaq üçün addımlar atır. Onu da xüsusi qeyd etmək lazımdır ki, Makronun əsas niyyətlərindən biri də Cənubi Qafqazı ikinci Ukraynaya çevirmək, regionda ciddi qarşıdurma yaratmaqdır".

Deputat Fransanın bu cəhdlərini bulanıq suda balıq tutmağa bənzədib. Bildirib ki, Paris nə qədər cəhd edirsə-etsin, heç bir nəticə əldə etməyəcək. Hazırda Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamaqdan boyun qaçırmaqla uduzur. Sülh Bakıdan çox elə məğlub İrəvana lazımdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## *Rusiyalı ekspert:* "Çarəsiz qalan Makron Ermənistanın timsalında nəfəsi kəsilmiş ata mərc qoşmağa məcbur olub"

**Fransa Prezidenti Emmanuel Makron üçün həm daxili, həm də ardıcıl uğursuzluqların onu təqib etdiyi dünya arenasında öz nüfuzunu bərpa etməsi vacibdir.**

O, Rusiyanı düşmən və xarici siyasətdə uğursuzluqlarının başlıca təqsirkarı kimi görür və Fransa liderinin Ermənistanı da Parisin təsiri altına salmaq cəhdləri buradan qaynaqlanır. Makronun Rusiya ordusuna qarşı Ukrayna Silahlı Qüvvələrinə dəstək məqsədilə Ukraynaya Fransa hərbi kontingentini göndərməyə hazır olması barədə bəyanatının səbəbləri də bu amillərlə bağlıdır. Sonra onun üçün tamamilə gözlənilmədən Azərbaycanın Fransa kəşfiyyatçıları şəbəkəsinin ifşası ilə bağlı casus qalmaqalı baş verdi ki, bu da Makronun imicinə heç də müsbət təsir göstərmədi. Hələ rəsmi Bakının Yelisey sarayı ilə hər hansı siyasi əlaqələri dayandırması faktını demirəm, bu həm də şəxsən Makronun sifətinə vurulan möhkəm şillə oldu və onun səsini "Köhnə dünyada" olmasa da, bütün islam aləmində eşitdilər. Bu cür çağırışlara cavab verməK lazımdır və Makron Ermənistanın timsalında nəfəsi kəsilmiş ata mərc qoşaraq bunu etməyə çalışır, çünki onun başqa çarəsi yoxdur. O, hər yerdən qovulub.

Bu fikirləri AZƏRTAC-la rusiyalı tarixçi-qafqazşünas, tarix elmləri namizədi Oleq Kuznetsov bölüşüb.

Agentliyin müsahibi deyib: "İrəvan ilə Parisin hazırkı oyunbazlığı mənə daha çox yüngül, heç bir öhdəliyi olmayan laqqırtı kimi görünür. Hərbi və hərbi-texniki əməkdaşlıq, ordunun yenidən silahlanması barədə söhbətlər hələ ki, ilkin danışıqlar səviyyəsindən o tərəfə keçmir, hətta niyyət protokolları da imzalanmır. Hələ hər hansı real sazişlərin bağlanmasını demirəm. Ermənistana onlarca fransız zirehli kəşfiyyat-müşahidə maşınlarının tədarükü hələ erməni ordusunun yenidən silahlanması demək deyil, belə ki, onlardan asanlıqla polis tapşırıqlarının yerinə yetirilməsində də istifadə etmək mümkündür. HHM sistemlərinin tədarükünün isə, mətbuatdakı xəbərlərdən də bildiyim qədər, Fransadan Ermənistana göndərilməsi təxirə salınır, çünki Paris analoji silahların Ukraynaya verilməsi üzrə NATO-nun qarşısında götürdüyü öhdəlikləri yerinə yetirə bilmir. Görünür ki, Makron fransız silahlarını almağa hazır olduğunu bəyan edən Ermənistanın hesabına Ukraynanı silahlandırmaq istəyir. Belə olan şəraitdə kimin kimi axmaq yerinə qoyduğu tamamilə anlaşılmazdır".



Karbohidrogen ehtiyatları ilə zəngin olan Azərbaycanın Qarabağ uğrunda döyüşmək üçün öz ordusunu sıfırdan yaratmaq prosesinə əsrin dörddəbirini sərf etdiyini xatırladan O.Kuznetsov vurğulayıb ki, təbii sərvətlərə görə daha kasıb olan Ermənistana öz silahlı qüvvələrini sıfırdan dirçəltməyə heç də bundan az vaxt lazım olmayacaq. Bu, hətta beynəlxalq dəstək və diasporun maliyyə yardımı ilə olsa belə. "Bu məsələdə əsas məqam müvafiq ideoloji aşılama ilə yeni müharibənin əsgərinə çevriləcək yeni nəsil gənclərin yetişdirilməsi prosesidir və bu, ən azı 10-15 il çəkəcək. İndi Ermənistan hərbi, mənəvi və ideoloji cəhətdən əzikdir və ona görə də Azərbaycanla istənilən silahlı münaqişə onu daha da böyük dövləti-siyasi deqradasiyaya sürükləyəcək. Ermənistanın rəhbərliyində sağlam düşüncəli, ayıq başlı adamlar olsa, bu vəziyyətin ciddiliyini dərk etməyə bilməzlər. Buna görə də, mənim fikrimcə, Paşinyanın Parisə qarşı bütün tələsik demarşları və saltoları, Makronla qucaqlaşması həm onun, həm də Fransa lideri üçün xarici siyasət hədəflərindən daha çox daxili siyasi məqsədlər daşıyır", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, Robert Koçaryanın oğlunun Ermənistan Milli Assambleyasına deputat seçilməsi ilə parlamentdə əsl anti-Paşinyan müxalifətinin formalaşmasına başlanılıb və Ermənistanın parlament respublikası olduğunu nəzərə alsaq, o zaman bu fakt ciddi problem yaradır. Burada baş nazir Nikol Paşinyanın ölkədə hakimiyyətini qoruyub saxlamaq üçün Qərbə doğru, şəxsən Makronun qarşısında reveranslar etməsi də mühüm rol oynayır.

Rusiyalı tarixçi qeyd edib: "Yeri gəlmişkən, mənim fikrimcə, eyni səbəb Ermənistan hökumətinin başçısının Azərbaycanın tələbi ilə konstitusiya islahatının aparılmasına belə asan razılıq verməsini şərtləndirib, mən hələ təxminən dörd il əvvəl Ermənistanın qonşusuna ərazi iddialarına istinadla bunu deyirdim. Əgər Paşinyan yalan danışmırsa, onda martın 1-də İrəvanda ölkə Konstitusiyasının yeni variantını hazırlayacaq konstitusiya məclisi toplanmalı idi. İndi Ermənistanda çox yaxın gələcəkdə respublikanın hansı formada olacağı tamamilə məlum deyil - istər parlament, istər prezident, istərsə də parlament-prezident olsun. Düzünü deməliyik: Paşinyan hiyləgər və çevikdir, o, Azərbaycanın təhdidlərini yerinə yetirmək adı altında islahatlar nəticəsində hakimiyyətini daha da gücləndirmək üçün ölkənin siyasi strukturunu tamamilə yenidən formalaşdıra bilər. Bütün kartlar onun əlindədir".

Ekspert eyni zamanda kimin indi kimə daha çox - Paşinyanın Makrona və ya Makronun Paşinyana lazım olduğunu söyləməkdə çətinlik çəkib.

O.Kuznetsov sonda deyib: "Görünür, onların hər ikisi indi öz oyunlarını oynayır, düşdükləri məğlub vəziyyətdən layiqli çıxış yolu tapmaq üçün az qala "pasodobl" rəqsi edirlər. İlin sonuna kimi onlardan hansının digərinə olan marağını daha tez itirəcəyini görmək maraqlı olacaq. Çünki onları artıq şəxsi maraqdan başqa heç nə birləşdirmir".

## Pərdələnmiş təhdidlər...

### Prezident İlham Əliyev antiazərbaycançı şəbəkəyə bir daha yerini göstərdi

**"Afrikada acı məğlubiyyətə uğrayan Fransa Prezidenti Emmanuel Makron İrəvan vasitəsilə regiona soxulmağa çalışır və bu ölkəni silahlandırmaqdan çəkinmir. Paralel olaraq Paris beynəlxalq hüquqa uyğun ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı məkrli siyasət yürüdür".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Deputat bildirib ki, işğalçını dəstəkləməklə Emmanuel Makron ikili standartlara yol verir. Təkcə Paris deyil, Avropanın bir sıra beynəlxalq təşkilatları da belə qeyri-konstruktiv mövqe sərgiləyir. Məsələn, son vaxtlar Avropa İttifaqının rəhbərliyi reallıqdan uzaq bəyanatlar səsləndirir. Bu, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozep Borelin çıxışlarında özünü daha qabarıq göstərir.

R.Mahmudov bildirib ki, Alman İqtisadiyyatının Şərq Komitəsinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətilə görüşündə Prezident İlham Əliyev bu məqama toxunaraq təəssüf hissi ilə bu gün ikili standartların bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrildiyini qeyd edib: "Cozef Borelin qeyri-adekvat bəyanatları həqiqətdən tamamilə uzaqdır və məqsədlidir. Prezident İlham Əliyev qonaqların nəzərinə çatdırdı ki, birincisi, Borelin məlum bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına tamamilə ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. C.Borel iddia edir ki, Azərbaycan Ermənistana qarşı guya ərazi iddiaları ilə çıxış edir. Dövlət başçısı almaniyalı qonaqlarla görüşündə bir daha bəyan etdi ki, Azərbaycan sülh prosesinə sadiqdir, Ermənistana hücum etmək planları yoxdur və bu iddialar Emmanuel Makronun insinuasiyalarıdır".

Deputat xatırladıb ki, Prezident İlham Əliyev Fransanın bütün bu əməllərinin ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsi olduğunu diqqətə çatdırıb. Görüşdə dövlət başçısı birmənalı şəkildə bildirdi ki, ABŞ və Fransa regionda yaranmış yeni reallıqları qəbul etməlidir. Beləliklə, Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə növbəti dəfə Azərbaycanın haqlı mövqeyini səsləndirməklə həm ölkəmizin sülh prosesinə sadiqliyini, həm də anti-Azərbaycan dairələrinə, ölkəmiz haqqında məqsədli şəkildə mənfi təəssürat yaradanlara yerini göstərdi. Dövlət başçısının qeyd etdiyi kimi, bütün bunlar istər ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanın iqtisadi gündəliyinə, istərsə də xalqımızın rifahı naminə görülən işlərə mane ola bilməz. Çünki Azərbaycanın mövqeyi hər zaman ədalət və beynəlxalq hüquq prinsiplərinə söykənir.

Azərbaycanın cəmi 44 gün ərzində torpaqlarını erməni işğalçılarından azad edərək tarixi zəfərə imza atdığını deyən R.Mahmudov bildirib ki, 2023-cü il sentyabrın 20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra ölkəmizdə uzun müddət kök salmış erməni separatizminə birdəfəlik son qoyulub. "İndi ölkəmiz 30 illik münaqişənin nəticələrini aradan qaldırmaqla məşğuldur. Ancaq İkinci Qarabağ müharibəsinin nəticələri bəzi dövlətlərin, xüsusilə də Fransanın ürəyincə deyil. Postmüharibə reallıqları ilə barışmaq istəməyən rəsmi Paris erməniləri Azərbaycana qarşı kökləyir və bununla da Cənubi Qafqaz regionunu növbəti təhlükəli astanaya yaxınlaşdırır. Neytrallığını geosiyasi ambisiyalara qurban verən Fransanın bu siyasəti şübhəsiz ki, Azərbaycanı haqlı yolundan döndərə bilməz. Bu, birmənalı şəkildə belədir", - deyə o əlavə edib.

Deputat bildirib ki, Qarabağ münaqişəsi artıq tarixdə qaldı. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi günümüzün reallığıdır. İndi masada sülh gündəliyidir. Bakı İrəvanı düşmənçiliyi bir kənara qoyub qonşuluq münasibətlərində yeni səhifə açmağa dəvət edir. Müzakirə olunacaq məsələlər də məlumdur. Azərbaycan beynəlxalq hüquqa uyğun qərarların qəbul edilməsinin tərəfdarıdır və İrəvanı da belə mövqe sərgiləməyə çağırır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# AZERBAIJAN COP29

## BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası



# "COP29 Azərbaycanın "yaşıl iqtisadiyyat" hədəfinin məntiqi davamıdır"

## Dünya ekspertləri bu sessiyanın fenomenal tədbir olacağını deyirlər

**Bu ilin noyabr ayında keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) dünyanın diqqət mərkəzindədir. Bu möhtəşəm tədbirə Bakının evsahibliyi edəcəyi xüsusi maraq doğurur. Tanınmış siyasətçilər və ekspertlər, aidiyyəti təşkilatların nümayəndələri və sadə insanlar COP29-dan gözləntilərini dilə gətirir, onun yüksək səviyyədə keçəcəyinə inam bəslədiklərini bildirirlər.**



"Mən COP29-un Azərbaycanda keçiriləcəyi üçün çox həyəcanlı və xoşbəxtəm. Bakı tez-tez, demək olar ki, ildə bir neçə dəfə nəhəng tədbirlərə evsahibliyi edir. Bu səbəbdən Azərbaycanın COP29-a da çox gözəl evsahibliyi edəcəyini düşünürəm". Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson bunları deyərkən həm də ölkəmizin xalis sıfır emissiya hədəfinə nail olmaq üçün çoxlu işlər gördüyünü qeyd edib.

"Azərbaycan çox gözəl ölkədir. O, həmçinin Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkədir. Başqa ölkələrin Azərbaycan haqqında bilmədiyi çoxlu faktlar var. Azərbaycan artıq iqlim dəyişikliyi ilə bağlı nailiyyətlərdə də ilk sıralardadır və bu sahədə bp ilə sıx əməkdaşlıq edir. COP29-un Azərbaycanda keçirilməsi çox həyəcanvericidir", - deyə Nikolson əlavə edib.

Qeyd edək ki, Britaniya-Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə Londonda Azərbaycanın evsahibliyi edəcəyi COP29-a hazırlıq haqqında məlumat xarakterli tədbir keçirilib.

Ümumiyyətlə, son günlər müxtəlif ölkələrdə belə tədbirlər təşkil olunur, həmçinin mətbuat sözügedən mövzuya geniş yer ayırır. Məsələn, Meksika yeni bir təşəbbüslə çıxış edib. Bu ölkənin Xarici İşlər Nazirliyi, UNICEF və Latın Amerikasının İqlim Reallığı Layihəsi çərçivəsində "Gənc iqlim səfirləri" proqramı həyata keçirilir. Bu unikal əməkdaşlıq qarşıdakı qlobal tədbirdə iştirak etmək üçün Meksikanın 35 gənc nümayəndəsini seçmək məqsədi daşıyır. Layihəyə Meksika Gənclər İnstitutu, Yerli Xalqların Milli İnstitutu və Matias Romero İnstitutu daxil olmaqla, müxtəlif qurumlar dəstək verir. Latın Amerikası İqlim Reallığı Layihəsi və məsul qurumlar gənclərə iqlim dəyişikliyinin həlli üçün uyğunlaşma, təsirlərin azaldılması və tətbiqi alətləri, həmçinin iqlim dəyişikliyi ilə bağlı beynəlxalq danışıqlar üzrə dərin təlimlər keçirəcək.

Proqram gənc nəslə öz gələcəyini formalaşdırmaqda fəal rol oynamaq üçün səlahiyyətlər verilməsinin vacibliyini göstərərək, gənclərin həm də sabahın liderləri olduğunu vurğulayır.

"COP29 yaxınlaşdıqca dünyanın gözü Bakıya çevrilir və iqlim fəallığında yeni bir səhifə açılır. "Gənc iqlim səfirləri" proqramı vasitəsilə Meksika təkcə nümayəndələr göndərmir, ümid, daxilolma və təcili hərəkət mesajı göndərir. Dünya bu gənc səslərin qlobal iqlim gündəminə öz təsirini gözləyir və bir daha sübut edir ki, planetimizi xilas etmək üçün hər bir səs önəmlidir". Proqram haqqında məlumatda belə deyilir.

Beynəlxalq Enerji Agentliyinin (IEA) qərargahında isə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci və 29-cu sessiyalarına həsr olunmuş yüksəksəviyyəli "dəyirmi masa" keçirilib. Agentliyin icraçı direktoru Fatih Birol bildirib ki, bu il Azərbaycan beynəlxalq arenada ön plana çıxacaq və bütün dünyanın gözü Bakıya yönələcək. Bu, Azərbaycan üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı olacaq. O deyib: "Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüşəm, eləcə də iqtisadiyyat naziri Mikayıl Cabbarov və bugünkü "dəyirmi masa"da iştirak etmiş COP29-un baş danışıqçısı Y.Rəfiyev ilə də görüşdüm. Azərbaycanın COP29-a yüksək səviyyədə evsahibliyi edəcəyinə əminik. Beynəlxalq Enerji Agentliyi olaraq Azərbaycana tam dəstək verməyə hazırıq".

Qeyd edək ki, Parisdə IEA-nın qərargahında baş tutan bu tədbir məhz Fatih Birolun təşkilatçılığı ilə keçirilib.

Pakistanlı ekspert, Avrasiya Əsri İnstitutunun direktoru İrfan Şahzad Təkalvi Azərbaycanın COP29-a hazırlığını və bu tədbirin uğurla həyata keçirilməsi üçün səylərini yüksək dəyərləndirib: "Azərbaycan COP29-a evsahibliyi etmək hüququnu əldə etməklə dünya ölkələri arasında layiqli yer tutdu. Son illər Azərbaycan bir sıra çoxtərəfli beynəlxalq tədbirləri uğurla təşkil edib ki, bu da ölkənin təşkilati aparatının yüksək səviyyədə olduğunu göstərir. Azərbaycanın əsas faydalı qazıntı istehsalçısı və ixracatçısı olmasına baxmayaraq, ölkə qlobal iqlim dəyişikliyinin dünyaya təsirini azaltmaq üçün mühüm praktiki addımlar atır. Təəccüblü deyil ki, Azərbaycana evsahibliyi hüququnun verilməsi beynəlxalq ictimaiyyətin konsensus əsasında qəbul edilmiş qərarıdır. Bakının bu tədbirin təşkilində göstərdiyi səylərə nəzər salsaq, əminliklə deyə bilərik ki, bu, fenomenal uğur olacaq."

İsraildə fəaliyyət göstərən Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avraham "Israel National News" nəşrində dərc olunmuş məqaləsində yazır ki, ölkəsinin iqlim dəyişikliyi ilə mübarizə aparmağa yönəlmiş çoxsaylı yeniliklərinə baxmayaraq, COP29 konfransının orada deyil, ekoloji istiqamətdə əhəmiyyətli irəliləyişləri ilə fəxr edən neftlə zəngin ölkədə - Azərbaycanda keçirilməsi təsadüfi deyil.

Məqalədə qeyd olunur ki, indiyədək evsahibliyi etdiyi bir çox beynəlxalq tədbirin öhdəsindən layiqincə gələn Azərbaycan "yaşıl enerji" mənbələrinə böyük diqqət yetirir və sözügedən siyasət Azərbaycan hökuməti üçün prioritet məsələlərdəndir. Belə ki, Azərbaycan hökumətinin son vaxtlar bərpaolunan enerji mənbələrinin inkişafına əhəmiyyətli sərmayələr qoyduğu göz qabağındadır. Habelə Qarabağda bütün sistemlər yeni standartlara uyğun qurulub.

Müəllif eyni zamanda diqqətə çatdırır ki, Azərbaycan davamlı inkişaf hədəflərini daim diqqətdə saxlayır. Təklif edildiyi vaxtdan Azərbaycan sözügedən hədəfləri müxtəlif perspektivlərdən fəal şəkildə dəstəkləyən və təbliğ edən ölkələrdən biridir və bu baxımdan COP29 konfransına evsahibliyini ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar.

Politoloq həmçinin COP29-un Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcəyini vurğulayır.

COP29-a həsr olunmuş bütün tədbir və məqalələrdə bir daha xatırladılır ki, ilin sonunda Azərbaycan paytaxtı iki həftə ərzində on minlərlə xarici qonaq qəbul edəcək. Bu dəfə iqlim dəyişikliyi ilə bağlı problemlərin həlli yolları Bakıda axtarılıcaq və o gün yaxınlaşdıqca dünyanın nəzərləri Azərbaycana daha çox yönəlir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir

**Prezident İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycan ötən dövr ərzində mühüm nailiyyətlər qazanıb.**

Vətən müharibəsində qazandığımız şanlı Zəfər ölkəmizi dünyada daha güclü dövlət kimi tanıdıb. Eyni zamanda dövlətimizin başçısının uğurlu xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır. Azərbaycan qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə göstərib. Yüksək inkişaf göstəricilərinə nail olan Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura malik olması, təhlükəsizlik baxımından sabit ölkə kimi fərqlənməsi bütün dünya ictimaiyyətinə məlumdur. Dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyinin ölkəmizə həvalə edilməsi Azərbaycan Prezidentinin növbəti qələbəsidir. Dövlətimizin başçısı bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini və beynəlxalq aləmdə böyük etimad qazandığını bütün dünyaya nümayiş etdirdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üzvü Sevinc Fətəliyeva söyləyib.

Deputat bildirib ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfələrini verir. Məlumdur ki, dövlətimiz tərəfindən bu istiqamətdə mühüm layihələr həyata keçirilir. O cümlədən Prezident İlham Əliyev işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrini də "yaşıl enerji" zonası elan edib. Həmin ərazilərdə görülən işlərin qürurverici olduğunu diqqətə çatdıran deputat deyib: "Əlbəttə ki, beynəlxalq ictimaiyyət Azərbaycanın bu fəaliyyətini görür və dəyərləndirir. Biz şahidi olduq ki, Münxen Təhlükəsizlik Konfransında dünya ölkələrinin və beynəlxalq təşkilatların rəhbərləri, rəsmi şəxslər Azərbaycan Prezidenti ilə görüş üçün müraciətlər edirdilər. Görüşlərdə əsas mövzulardan biri də COP29-la bağlı idi. Bu mötəbər tədbirlə əlaqədar ölkəmizə əməkdaşlıq təklif olunur, Azərbaycana inam ifadə edilirdi. Bütün bunlar onu göstərir ki, bu il ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişikliklərinə qarşı səyləri səfərbər etməklə, bu mübarizəyə töhfə verməklə dünyanın xüsusi diqqət mərkəzində olacaq. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu baxımdan müstəsna əhəmiyyət kəsb edir".

Təşkilat komitəsinin inklüzivliyinə gəlincə, S.Fətəliyeva qeyd edib ki, iqlim dəyişikliyi və ekoloji problemlər öz təsirini hər bir sahəyə göstərir. Ona görə də bu məsələlərin bütün sahələrə aidiyyəti var. Məlumdur ki, hökumət səviyyəsində bu məsələ ilə bağlı müvafiq qərarlar qəbul olunur. Bu baxımdan Təşkilat Komitəsində hökumət üzvlərinin yer alması təbii qanunauyğunluqdur. Təşkilat Komitəsində deputatların da təmsil olunduğunu bildirən komitə sədrinin müavini bunu mütəmadi olaraq ekoloji sahədə qanunvericiliyin tənzimlənməsinə və təkmilləşdirilməsinə ehtiyac duyulması ilə izah edib. Onun sözlərinə görə, əsas məqamlardan biri burada vətəndaş cəmiyyətinin təmsil olunmasıdır.

"Nəzərə almaq lazımdır ki, ekologiya və ətraf mühitlə bağlı problemlərlə məşğul olmaq təkcə hökumətin və qanunverici orqanın işi deyil. Bu, hər bir vətəndaşın məsuliyyətidir. Çünki ekologiyanın, ətraf mühitin qorunması bütövlükdə cəmiyyətin hər bir fərdindən də asılıdır. Ona görə də vətəndaş cəmiyyəti tərəfindən bu istiqamətdə maarifləndimə işlərinin aparılması olduqca zəruridir", - deyə deputat vurğulayıb.

# COP29-un nəticələri ölkəmiz üçün müsbət olacaq

**"Beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi Azərbaycan iqlim dəyişikliyi ilə bağlı qlobal məsələlərin həllinə böyük önəm verir və bu istiqamətdə davamlı işlər görür".**

AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev deyib. O qeyd edib ki, son illər ölkənin nəqliyyat sektorunda yaşıl yanaşmaların tətbiqi məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilir: "Bu sahədə 2019-cu ildən etibarən elektrik və hibrid avtomobillərə, eyni zamanda onlara enerji doldurulması ilə bağlı güzəştlər tətbiq edilməyə başlanılıb. 2020-ci il yanvarın 1-dən etibarən isə elektriklə işləyən avtomobillərin idxalı və satışı zamanı ƏDV-dən azad edilir. Güzəştlərin tətbiq olunmasından etibarən bu maşınların idxalı sürətlə artır. 2001-ci illə müqayisədə 2020-ci ildə elektromobil idxalı 19 dəfə çox olub".

Nazir müavini vurğulayıb ki, ekoloji təmiz nəqliyyat vasitələrinin təşviq olunması ilə paralel olaraq, köhnə nəqliyyat vasitələrinin idxalı və istifadəsinin məhdudlaşdırılması istiqamətində qərarlar qəbul olunub: "Nazirlər Kabinetinin 2020-ci il 29 mart tarixli Qərarına əsasən zavod buraxılış tarixinə görə, yaşı 10 ildən çox olan minik avtomobillərinin idxalı məhdudlaşdırılıb. Köhnə və yararsız nəqliyyat vasitələrinin utilizasiyası prosesinin tətbiqi məqsədilə istehsalat və məişət tullantıları haqqında qanunda dəyişiklik edilərək yeni fəsil əlavə edilib. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 yanvar tarixli sərəncamı ilə nəqliyyat vasitələrinin utilizasiyası fondu yaradılıb. Daha sonra isə bu fondun vəsaitinin formalaşdırılması və istifadə qaydaları təsdiq edilib. Nəqliyyat sisteminin inkişafı hər bir ölkənin uğur qazanması üçün mühüm rol oynayır. Son dövrlər isə bütün dünyada ən ekoloji təmiz və təhlükəsiz nəqliyyat növü hesab olunan metrodan istifadənin təşviqi məsələləri aktuallaşıb".

R.Hacıyev Azərbaycanda keçiriləcək COP29 haqda da danışıb: "BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-un Azərbaycanda keçirilməsi olduqca mühüm hadisədir. Bu tədbirdə 20-yə yaxın dövlət başçısı iştirak edir və onun nəticələri həm ölkəmiz, həm də dünya üçün müsbət olacaq. Eyni zamanda iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bütün bunlar göstərir ki, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi dövlətimiz iqlim dəyişikliyi ilə bağlı qlobal məsələlərin həllinə böyük önəm verir. Həyata keçirilən tədbirlər, o cümlədən metrolardan istifadənin genişləndirilməsi ətraf mühitin qorunmasına və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcək".

# Su ehtiyatlarımız təhlükədədir

**Son zamanlar ən çox müzakirə olunan qlobal problemlərdən biri də şirin su qaynaqlarının ciddi şəkildə azalması, içməli və suvarma üçün yararlı olan su mənbələrinin qurumasıdır. Hazırda iqlim dəyişiklikləri, ekoloji problemlər, dünya əhalisinin artması, sulardan səmərəsiz istifadə fonunda qlobal su qıtlığı problemi yaşanır. Mütəxəssislər uzun illərdir bununla bağlı həyəcan təbili çalırlar.**

Beynəlxalq təşkilatların hesabatlarına görə, dünyada bir milyard insan su qıtlığından əziyyət çəkir. Proqnozlara görə, 2025-ci ildən sonra bu qlobal problem dünyanın bir sıra ölkələri üçün siyasi və sosial-iqtisadi təzyiq vasitəsinə çevriləcək. Belə bir vəziyyətdə mövcud su ehtiyatlarından səmərəli istifadə və su mənbələrinin çirklənmədən etibarlı mühafizəsi ciddi əhəmiyyət kəsb edir.

Bütün dünyanı narahat edən bu problem ölkəmizdə də müşahidə olunur. Bunun təsirlərini son illər daha çox hiss edirik.

### Qlobal istiləşmə su mənbələrini azaldır

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Coğrafiya İnstitutunun Qurunun hidrologiyası və su ehtiyatları şöbəsinin müdiri Rza Mahmudov deyir ki, bu gün dünyada iki təbii problem varsa, onlardan biri iqlim dəyişmələri, digəri isə su ehtiyatları ilə bağlıdır: "Bu iki problem müəyyən qədər bir-biri ilə əlaqədar olsa da, su ehtiyatları iqlim dəyişmələrindən daha çox asılıdır. Tarixboyu Yer kürəsində iqlim dəyişimləri baş verib. Bu, heç də hər zaman insan faktorundan asılı olmayıb. Lakin son dövrlərdə planetdə gedən qlobal iqlim dəyişiklikləri təbii amillərlə yanaşı, antropogen amillərlə də bağlıdır".

R.Mahmudovun sözlərinə görə, iqlimdə baş verən dəyişikliklər bu və ya digər formada su obyektlərinə təsir göstərir: "Ölkəmizdə şirin su ehtiyatları, əsasən, çay və yeraltı sulardan ibarətdir. Təəssüf ki, regionumuzda orta illik yağıntının son illərdə azalması müşahidə olunur. Son 20 ilin müşahidəsi göstərir ki, orta çoxillik yağıntının miqdarı 30-35 millimetrə qədər azalıb. Temperaturun və buxarlanmanın artması şirin su mənbələrini azaldan səbəblərdəndir. Məsələn, Kürün orta çoxillik su sərfi 450-500 kubsaniyədirsə, hazırda çayda 50-60 faizə qədər su sərfi müşahidə olunur".

Hidroloq-alim bildirir ki, çoxsulu və azsulu illər olur: "Keçən il yağıntının miqdarı nisbətən yüksək olduğu üçün çay sularında vəziyyət yaxşılaşmışdı. Təbii ki, ayrı-ayrı quraq yerlərdə çayda su ehtiyatının azalması da baş vermişdi. Ölkəmizdə suvarma əkinçiliyi geniş inkişaf etdiyi üçün şirin su ehtiyatlarının azalması birbaşa buna da təsir edir. Buna görə də problemin qarşısının alınması istiqamətində kiçik su anbarlarının tikilməsi, su ehtiyatlarının səmərəli istifadəsi və digər qabaqlayıcı tədbirlər görülür".

### Qarabağ ərazisindəki su ehtiyatlarından istifadə suya tələbatın ödənilməsinə müsbət təsir göstərəcək

İşğaldan azad olunmuş ərazilərimizdə olan su ehtiyatlarının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan R.Mahmudov deyir ki, Qarabağ ərazisinin su ehtiyatları ölkənin ümumi su ehtiyatlarının təxminən 5-7 faizini təşkil edir: "Son dövrdə bu ərazilərimizdə yeni, kompleks su-balans metodu ilə tədqiqatlar aparılır. Qarabağ ərazisindəki su ehtiyatlarının qiymətləndirilməsi və çaylarda aparılan müşahidə sıralarının bərpası məsələləri tədqiqatlarımızın əsas məğzini təşkil edir. Bununla bağlı şöbəmiz tərəfindən son üçillik tədqiqat işinin nəticələri universitetə təqdim olunub. Nəticə odur ki, 1990-cı ilə kimi Qarabağ ərazisində 2.13 kubkilometr olan su ehtiyatı hazırda 1.87 kubkilometrə qədər azalıb. Bu da təxminən su ehtiyatlarının 12-15 faizə qədər azalması deməkdir. Yəni iqlim dəyişmələrinin regional təsirləri Qarabağ ərazisinə də təsir göstərib. Buna baxmayaraq, bu regiondakı su ehtiyatlarından istifadə ölkəmizin suya olan tələbatının ödənilməsinə müsbət təsir edəcək".

Hidroloq-alim qeyd edir ki, şirin su ehtiyatlarının qorunması istiqamətində istər dövlət səviyyəsində, istərsə də ayrı-ayrı qurumlar, hətta ayrı-ayrı vətəndaşlar tərəfindən tədbirlər həyata keçirilir: "Əsas məqsəd su ehtiyatlarının kəmiyyət və keyfiyyət göstəricilərini qorumaq, eyni zamanda onun çirklənməsinin qarşısını almaq, bir sözlə, su ehtiyatlarının azalmasına səbəb olan göstəriciləri aradan qaldırmaqdır. Bununla birlikdə kiçik su anbarları tikilməli, habelə yeraltı, artezian sularından və alternativ su mənbələrindən istifadə olunmalıdır".

Ənənəvi suvarma əkinçiliyindən damcılı suvarma sisteminə keçməyin su itkisinin qarşısını alacağını vurğulayan R.Mahmudov təbii itkiləri bura aid etmir: "Təbii ki, yağıntı yağdıqda mütləq buxarlanma, çay axımı formalaşırsa, onun bir hissəsi süzülməlidir. Çay sularından istifadə edərkən torpaq kanalları mütləq beton kanalları ilə əvəz edilməlidir. Bu da su itkisinin qarşısını ala bilər".

Texniki su ilə içməli suyu ayırmağın vacibliyini vurğulayan mütəxəssis bildirir ki, əksər sənaye mərkəzlərində, avtoyuma yerlərində içməli sudan istifadə edilir. Buna isə heç kimin haqqı yoxdur: "İnkişaf etmiş və etməkdə olan ölkələrdə bağ sahələrinin, yaşıllıqların suvarılmasında şirin sudan isitifadə olunmur. Bu ərazilərdə suyadavamlı bitkilər əkilir. Eyni zamanda şirin sulardan təmizlənmə yolu ilə yenidən də istifadə edilə bilər. Həmçinin Xəzərin suyunun duzsuzlaşdırılması da ölkəmizin şirin suya olan tələbatının ödənilməsi istiqamətində görülən tədbirlər sırasındadır. Su ehtiyatlarından istifadədə israfçılığın qarşısını almaq üçün çıxış yolunu birgə tapmalıyıq. Hər kəs gündəlik həyatında sudan istifadədə diqqətli davranmalı, üzərinə düşən vətəndaşlıq vəzifəsini yerinə yetirməlidir".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İş adamlarımız üçün əsl qurub-yaratmaq zamanıdır

### Bu dəfə işğaldan azad edilmiş ərazilərdə



**İşğaldan azad olunmuş torpaqlarımızda yenidənqurma və abadlıq işləri geniş vüsət alıb. Yaşayış binaları, xidmət obyektləri, parklar, hotellər, fabrik və zavodlar tikilir, çoxlu sayda infrastruktur qurulur. Və bütün bunlar keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşləri ilə müşayiət edilir.**

Ərazilər demək olar ki, elektrik enerjisi ilə tam təmin olunub. Qarabağ da, Şərqi Zəngəzur da ölkənin vahid enerji sisteminə qoşulub. Zəfərdən dərhal sonra nəqliyyat infrastrukturu da sürətlə bərpa olunur, yeni yollar tikilir və onlar ölkənin digər rayon və şəhərlərinin yol strukturuna birləşdirilir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda planlaşdırılan işlərdən biri də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunmasıdır. Su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Bura "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları kimi böyük obyektlərin tikintisini də əlavə etsək, mənzərə aydın olar. Hər iki parkdakı müəssisələr yaxın vaxtlarda fəaliyyətə başlayacaq.

Ağdam Sənaye Parkında müxtəlif çeşidli xüsusi və fərdi geyimlər, sintetik xalça, polimer məhsulları, prefabrik dəmir-beton məmulatları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri istehsal olunacaq. Burada 1000-dən çox iş yerinin açılması gözlənilir. Park Ağdamın işğaldan əvvəl də sənaye zonası kimi istifadə olunan ərazisində tikilir. Ümumi sahəsi 190 hektardır. Cəbrayılda tikilən "Araz Vadisi İqtisadi Zonası" Parkı isə 200 hektar ərazini əhatə edir. Parkın ərazisi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara ayrılıb. Sənaye zonası tam fəaliyyətə başladıqdan sonra orada logistika və anbar kompleksləri, TIR parkı, topdan və pərakəndə satış obyektləri, müxtəlif istehsal və xidmət müəssisələri fəaliyyət göstərəcək. Bu sənaye parkında dağ-mədən məhsulları və bitkiçilik məhsullarının da istehsalı nəzərdə tutulur.

Görülən bu işlər və gələcəkdə inşa ediləcək digər obyektlərin tikintisində yerli və xarici şirkətlər iştirak edirlər. Zəfərdən sonra Prezident İlham Əliyev söyləmişdi ki, dost ölkələr azad edilən ərazilərin bərpasında, böyük layihələrin reallaşmasında iştirak edə bilərlər. Bu çağırışa ilk qoşulan qardaş Türkiyə şirkətləri oldu, daha sonra Avropanın bəzi aparıcı şirkətləri də regionda işə başladılar. Arxada qoyduğumuz illərdə görülən işlər onu deməyə əsas verir ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın sürətlə yerinə yetirilməsində təkcə xaricilər deyil, yerli şirkətlər də fəal iştirak edirlər.

Məlum olduğu kimi, Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində özəl sektoru Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında fəal iştirak etməyə, sərmayələrini bu regiona yönəltməyə çağırmışdır: "Özəl sektora mənim tövsiyəm budur ki, bundan istifadə etsinlər. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün baş planları təsdiqləndi. Şəhərlərin bütün baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanmışdır, o cümlədən Şuşa şəhəri. Şuşa elə bir şəhərə çevriləcək ki, bunun dünyada bənzəri olmayacaq, memarlıq və təbiət bir vəhdət təşkil edəcək". Dövlət başçısı onlara təkcə Bakıda, Sumqayıtda deyil, Qarabağda da tikinti işləri aparmağı tövsiyə etmişdir: "Bizim özəl sektorumuz Bakıda, Sumqayıtda hər bir tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər və görərlər ki, o iqtisadi cəhətdən də səmərəli olar və eyni zamanda biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir. Ona görə biznesin sosial məsuliyyəti, hesab edirəm ki, bu olmalıdır".

Prezidentin bu tapşırıq və tövsiyəsi sahibkarlar üçün stimul olmuş və qısa müddət sonra həmin çağırışa səs vermişlər. Bu günlər İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu (SİF) və "Bank Respublika"nın təşkilatçılığı ilə yerli iş adamları Şərqi Zəngəzur iqtisadi rayonuna səfər ediblər. Zəngilan Konqres Mərkəzində onlar üçün "Zəngilan və Cəbrayıl rayonlarında yaradılan investisiya imkanları" mövzusunda tədbir keçirilib. SİF idarə heyətinin sədri Osman Xaliyev sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlar, azad edilmiş ərazilərdə investisiya layihəsi həyata keçirmək istəyən sahibkarlıq subyektlərinə tətbiq olunan güzəştlər barədə ətraflı məlumat verib, fondun müvəkkil kredit təşkilatları vasitəsilə verilən güzəştli kreditlərlə bu ərazilərdə sahibkarlığın dəstəklənməsindən danışıb.

Tədbir çərçivəsində SİF-in "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" zəmanət və subsidiya mexanizmi təqdim edilib. Bildirilib ki, regionda fəaliyyət göstərən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizədək olan biznes kreditlərinin 90 faizədək hissəsinə dövlət zəmanəti verilir. Sahibkarların diqqətinə çatdırılıb ki, həmin kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır. Üstəlik, kreditin müddətinin yarısından çox olmamaqla 36 aya qədər güzəşt müddəti tətbiq olunur.

Səfər zamanı sahibkarlar Zəngilan Beynəlxalq Hava Limanı, Ağalı kəndi və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkını ziyarət ediblər, üç il ərzində regionda görülən geniş quruculuq və bərpa işləri, eləcə də infrastruktur layihələri və yaradılan şəraitlə tanış olublar.

Bütün bunlardan sonra yerli iş adamlarının işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərində iştirakı, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrə qoşulmaları şübhə yeri qoymur. Bir də axı ortada bir qürur, şərəf və vətənpərvərlik hissi var. Hamımızın çoxdan gözlədiyi bu deyildimi?!

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Köçü planlaşdırılan sakinlərə məşğulluq tədbirləri ilə bağlı məlumat verilib

**Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına köçə hazırlıq və məşğulluq üzrə işçi qrupunun Biləsuvar rayonunda görüşü baş tutub.**

Görüş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Cəbrayıl Rayon İcra Hakimiyyəti tərəfindən birgə təşkil edilib.

Köçü planlaşdırılan bir qrup keçmiş məcburi köçkünün də iştirak etdiyi görüşdə Böyük qayıdış proqramına uyğun olaraq işğaldan azad olunmuş ərazilərə köçürülən şəxslərin məşğulluğunun təmin edilməsi istiqamətində görülən və planlaşdırılan işlərə dair müzakirələr aparılıb. Eyni zamanda Dövlət Məşğulluq Agentliyinin funksional istiqamətləri və layihələri barədə təqdimat edilib.

İşğaldan azad olunmuş ərazilərimizin sakinlərinin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində aparılan işlər barədə məlumat verilib. Daha sonra görüş iştirakçılarının sualları cavablandırılıb.

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni rezident qeydə alınıb

**"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni rezidenti tərəfindən 60 yeni iş yeri yaradılacaq.**

"Mətanət" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən Sənaye Parkının ərazisində quru inşaat qarışıqlarının istehsalı müəssisəsi yaradılacaq.

İnvestisiya dəyəri 5 milyon manat olan müəssisədə 60 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulur. Zavodda istehsal olunacaq məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da planlaşdırılır.

## Bakıda 5-7 ilə 10 metro stansiyası tikilə bilər

**"Bakı metrosunun davamlı inkişafı məqsədilə müvafiq tikinti planı hazırlanıb və "Bakı Metropoliteni" QSC-nin Müşahidə Şurası tərəfindən təsdiq edilib".**

Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov "Bakı Metropoliteni" QSC-nin yaranmasının 10 illiyinə həsr olunmuş "Dəyişməyən dəyərlər, dəyişən imkanlar" adlanan konfransda bildirib ki, tikinti planında minimum ssenari üzrə Bakıda 5-7 il müddətində 10 yeni metro stansiyasının tikintisi layihəsinə üstünlük verilib.

"2022-ci ildən metroda tikinti və yenidənqurma işlərinə, yeni vaqonların alınmasına 194,6 milyon manat vəsait ayrılıb", - deyə Ruslan Əlixanov bildirib.

## KOBİA və Rusiyanın müvafiq təşkilatları arasında əməkdaşlıq haqqında sənədlər imzalanıb



**KOBİA ilə Stavropolun Ticarət və Sənaye Palatası və "Qafqaz.RF" SC arasında imzalanmış anlaşma memorandumları iş adamları arasında əlaqələrin genişləndirilməsi, məlumat və təcrübə mübadiləsi məqsədi daşıyır.**

Rusiya Federasiyasının Stavropol vilayətinin Mineralnı Vodı şəhərində keçirilən XII Rusiya-Azərbaycan Regionlararası Forumu çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Rusiyanın müvafiq qurumları arasında iki sənəd imzalanıb.

Azərbaycan və Stavropolun kiçik və orta sahibkarlıq subyektləri arasında ticarət və investisiya əməkdaşlığını təşviq etmək məqsədilə KOBİA və Stavropolun Ticarət və Sənaye Palatası arasında imzalanmış anlaşma memorandumunda KOB sahəsində yeniliklərə, dəstək və xidmətlərə dair qarşılıqlı məlumat və təcrübə mübadiləsi, işgüzar missiyaların təşkili, birgə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

KOBİA və Rusiyanın "Qafqaz.RF" Səhmdar Cəmiyyəti arasında imzalanmış anlaşma memorandumunda isə KOB-ların dəstəklənməsi üçün qarşılıqlı məlumatlandırma, KOB-lar arasında əlaqələrin qurulmasına və inkişafına köməyin göstərilməsi, birgə layihələrin və investisiya təşəbbüslərinin reallaşdırılması üçün işgüzar dairələrə dəstək və s. istiqamətlərdə əməkdaşlıq tədbirləri öz əksini tapıb.

## Almaniyanın aqrar sahədə ixtisaslaşmış şirkətlərinin nümayəndələri ilə görüş keçirilib

**Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan Almaniyanın aqrar sahədə fəaliyyət göstərən ixtisaslaşmış şirkətlərinin, bank və maliyyə təşkilatlarının nümayəndələri ilə görüş keçirilib.**



Qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatının rolu, kənd təsərrüfatı sahəsində həyata keçirilən islahatlar, əldə olunmuş nailiyyətlər, fermerlərə göstərilən dövlət dəstəyi, ölkəmizdə mövcud olan əlverişli investisiya mühiti, biznes üçün yaradılmış liberal bazar iqtisadiyyatı, eləcə də aqrar sahənin inkişafı üçün müəyyən edilmiş strateji hədəflər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Bildirilib ki, kənd təsərrüfatı sahəsində qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi məqsədilə aqrar sahədə ixtisaslaşmış şirkətlərlə əməkdaşlıq davam etdirilir. Görüş iştirakçıları kənd təsərrüfatı sahəsində ən müasir texnologiyaların transferi, aqrar sahədə istehsalın avtomatlaşdırılması, kənd təsərrüfatı texnikaları, ehtiyat hissələri, texnoloji avadanlıqlar, gübrə təminatı, heyvandarlıq sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Sonda qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycandan keçən nəqliyyat marşrutlarına maraq artır

### Avropanın iri şirkətlərinin ölkəmizlə əlaqələri genişlənir

**Azərbaycan dünyanın mühüm nəqliyyat marşrutlarının keçdiyi ölkə kimi əhəmiyyətini getdikcə artırır. Bu da təsadüfi deyil - dünyanın dörd tərəfinə gedən yollar ölkəmizdə qovuşur. O üzdən "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat marşrutları üzərində yerləşən ölkəmizin gələcəkdə beynəlxalq nəqliyyat qovşağı olaraq dünya ticarətinin sürətlənməsinə müsbət təsir göstərəcəyi şübhəsizdir.**



Bəzi məlum siyasətçilər ölkəmizə qarşı nə qədər qərəzli mövqe tutsalar da, hər hesab kitabını yaxşı bilən biznes dairələri ölkəmizlə əlaqələr qurmağa, birlikdə yeni layihələr həyata keçirməyə üstünlük verirlər. Bu baxımdan Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda Prezident İlham Əliyev tərəfindən qəbul olunması çox mətləbdən xəbər verir. İlk növbədə ondan soraq verir ki, son zamanlar Almaniyanın bəzi siyasətçilərinin Fransa Prezidenti E.Makrona qoşulub ölkəmizin əleyhinə bəyanatlar verməsi alman biznes dairələri tərəfindən ciddi qəbul olunmur. Yeri gəlmişkən, qeyd edək ki, ölkəmizə səfər edən qurum Almaniyada ən iri şirkətləri özündə birləşdirir və ölkələrində ciddi söz sahibidir.

Dövlətimizin başçısı ilə görüş zamanı Almaniya tərəfi açıq şəkildə bildirdi ki, onların ölkəmizə səfərinin əsas məqsədi Azərbaycanla biznes əlaqələrini genişləndirməkdir. Məlumdur ki, alman iş adamları dünyada investisiya qoyuluşunda yüksək həssaslıq göstərmələri ilə seçilirlər. O səbəbdən onların bu səfərini ölkəmizə olan inamın göstəricisi kimi də qəbul etmək mümkündür.

Alman şirkətləri ölkəmizin beynəlxalq nəqliyyat marşrutundakı önəmini düzgün qiymətləndirir. Ona görə də Almaniyadan gələn 10 nüfuzlu şirkətin nümayəndələrinin "Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı" QSC-də investisiya və əməkdaşlıq imkanlarını müzakirə etmələrini sıradan maraq kimi qiymətləndirmək düzgün olmazdı. Məlumata görə, Bakı limanında keçirilən görüşə Almaniyanın Şərqi Biznes Assosiasiyasının təşkilatçılığı ilə "Knauf lnternational", "Falk Beratung", "VNG", "Edison Technologies", "Rhenus", "Gerber Architekten", "HHLA lnternational", "ATLAS International", "Kranich Design" ve "Marburger Tapatenfabrik" kimi şirkətlərin nümayəndələri qatılıblar. Tədbirə Almaniya Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms rəhbərlik edib. Tərəflər görüş zamanı Bakı limanının tarixi, infrastruktur layihələri, Orta dəhlizin inkişafındakı rolunu müzakirə etdikdən sonra terminallardakı iş prosesi ilə tanış olublar.

Xatırladaq ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 1902-ci ildən fəaliyyət göstərən Bakı limanının bazasında 2015-ci ildə yaradılıb. Liman yük, neft və bərə terminallarından ibarətdir. 2018-ci il mayın 18-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuş yeni Bakı limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir. İkinci fazanın yekunlaşmasından sonra Bakı limanından ildə 25 milyon tona qədər yük aşırılacaq, 500 min TEU konteyner keçə biləcək.

Məlum olduğu kimi, Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzu dünya bazarına çıxan mühüm nəqliyyat marşrutundan məhrum etmişdir. Bu üzdən Rusiya vəziyyətdən çıxış yolu kimi "Şimal-Cənub" nəqliyyat marşrutuna üstünlük verir. Hətta o, marşrutun cənub istiqamətindəki imkanlarını genişləndirmək üçün İranda çəkiləcək dəmir yolunun maliyyələşməsini öz üzərinə götürüb.

Bu ərəfədə Azərbaycanı Baş nazirinin müavini Şahin Mustafayev Mineralnıye Vodıda keçirilən XII Rusiya-Azərbaycan regionlararası forumunda bildirib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yükdaşımaların həcmi təxminən 17 faiz artıb. Ş.Mustafayev həmçinin qeyd edib ki, bu dəhliz ötən il Rusiya və Azərbaycan əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəlib. O, həmçinin ölkələrimiz arasında ikitərəfli yükdaşımaların ümumi həcminin 11 faizdən çox artdığını bildirib, inkişaf edən nəqliyyat və tranzit daşımalarından danışıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 fevral Çərşənbə günü) tarixli 112-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 11 cəmadiyələvvəl sənə 1337.
12 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 18 rublə, 2 aylığı 32 rublə, 3 aylığı 45 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Hacı Nağı, Abdulla, Yusif, Mehdi Mehdiyevlər əvvəlincinin oğlu, axırıncıların qardaşı Kəlbəlinin vəfatını öz qövm-əqrabalarına və dostaşnalarına xəbər verirlər. Cənazə bu gün saat 10-da İçəri şəhərdə Tverskoy küçədə 59/10 nömrəli evindən "Şah məscidi"nə aparılacaqdır.

## BAKI QUBERNATORUNUN ƏMRİ

Fevralın 7-dən etibarən Bakı valisi tərəfindən zeyldəki [aşağıdakı] əmrnamə sadir olmuşdur [yayılmışdır]:

Mən vilayəti idarə etmək vəzifəsinə şüru etdikdə [başladıqda] əhalinin həyat və əmlakını təmin edib, bir çox qanunsuzluqdan sonra təhti-idarəmdə [idarəm altında] olan vilayətdə əmni asayiş [əmin-amanlıq və asayiş] bərpa etməyə ciddi surətdə etinamı cəlb etdim. Bundan ötrü mənim təhti-idarəmdə olan polis nəfəratının [nəfərlərinin] öz vəzifələrini lazımi surətdə ifa etmələri üçün ciddi tədbirlər ittixaz edildi [tədbirlər görüldü] ki, bununla gənc Azərbaycan Cümhuriyyəti və onun əhalisi hər bir təhlükədən və axır vaxtlarda çox şiddət etmiş olan cinayət və sui-istemallardan [sui-istifadələrdən] təmin edilsin. Lakin buna baxmayaraq sui-istemal istənilən dərəcəyə qədər əksilmədi və biləks [əksinə] Bakı, Balaxanı qalabəyləri və uyezd naçalniklərin bəratülqövlərinə [protokollarına] baxılarsa, daha da artmışdır. Buna da səbəb polis nəfəratının öz vəzifələrini layiqi surətdə ifa etməmələri və digər tərəfdən isə ali-mənsəb [yüksək rütbəli] məmurlarının ədəmi-nəzarəti [nəzarətsizliyi] və bəlkə heç olmamasıdır. Böylə ki, mən fevralın 6-da axşam gəzərkən bəzi polis idarələrinə getdim. Çox yerlərdə qaradavoylar yox idi. Polis idarələrində isə böyük qaydasızlıq və rüşvətxorluq davam etməkdədir. Qərardadsız olaraq adamlar həbs edilirlər. Buna mən 4-cü polis idarəsində təyin hasil etdim [müəyyənləşdirdim]. Müqəssirləri təhti-mühakiməyə [mühakimə altına] almaqdan ötrü tədbirlər ittixaz edilmişdir.

Xəfiyyə idarəsi dəxi öz vəzifəsini lazımi dərəcə ifa etməməkdədir. Böylə ki, cinayətlərin qabağı alınıb və canilərin tövqif [həbs] edilməsi istənilən dərəcədə deyildir. Buna dəxi səbəb həman yuxarıda göstərilən nizamsızlıqdır.

Cinayətlərlə mübarizə etməkdən ötrü lazım olan tədbirlər isə aşağıda göstərilən maddələrdən ibarət olmalıdır:

1) Bakı və Balaxanı qalabəyləri təhti-idarəsində olan polis dairələrindəki qaradavoylar savadlı və idraklı şəxslər olmalıdırlar. Yerli müsəlman əhalisindən olan şu qaradavoyların əsgərlikdən xilas olmaları üçün mən lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunacağam.

2) Postda (qaravulda) dayanmaq üç vaxta təqsim edilib [bölünüb] 8 saat olmalıdır. Bunun lazımi surətdə ifa edilməsində pristavlar məsuldur. Gecədə bir dəfə təhqiq edilib qaradavoyların dəftərçələrinə qeyd edilməlidir.

3) Cinayət, qətl, qarət çox olan yerlərə xüsusi mühafizə dəstələri göndərməlidir. Bu dəstə qaradavoylardan ibarət olub bir nəfərin komandasında olmalı. Okolodoçnilar mümkün olan qədər tez öz dairələrini gəzib qaradavoylara nəzarət və onların dəftərçələrinə qeyd etməlidirlər. Böylə gəzişlər ələlxüsus gecələr olmalıdır.

4) Pristavlar özləri və ya müavinləri vasitələri ilə okolodoçnuların [polis sahə rəislərinin] dəftərçələrini təhqiq edib, qaydasızlıq kəşf etdikdə müqəssirləri təhti-məsuliyyətə almaqdan ötrü lazımi məhəllərinə [yerlərinə] bildirsinlər. Ondan əlavə, öz növbələrində qəflətən olaraq uçaskaları [sahələri] özləri gəzməli və qaradavoyların, okolodoçniların post xidmətlərini təhqiq etməlidirlər. Böylə gəzişlər ələlxüsus gecələr olmalıdır, bu dəxi qaradavoyların dəftərçələrinə qeyd ediləcəkdir.

5) Bakı və Balaxanı qalabəylərinə əmr olunur ki, indidən qaradavoylar üçün dəftərçələr hazırlayıb və yuxarıda göstərdiklərimə əməl etsinlər. Bununla onlar şəhərin mühafizəsini öhdələrinə alıb təhtidarələrində olan məmurlara binagüzarlıq [göstəriş] verərək gecələr qaradavoyların postlarını gəzsinlər, bununla ancaq cinayətin önü alına bilər.

6) Polis idarələrinin vəzifələri ciddidir. Mən ümid edirəm ki, Bakı və Balaxanı qalabəyləri mənə kömək edib cinayətin önünü alarlar və əhalinin asayişini təmin edərlər.

7) Məmləkətin ali idarələri cinayətin artmasına diqqətini cəlb edib və öz tərəfindən polis məmurlarının maişətini dəxi nəzərə almışlardır. Bu barədə lazımi binagüzarlıqlar edilmişdir.

8) Həmin əmrnaməni bütün polis idarələrində oxuyub və bu barədə qaradavoylara izahat verməlidir.

*Əslində imza etdi*
*Bakı valisinin vəzifəsini ifa edən: Axıcanov*

## ÜZƏRİMİZDƏKİ QARA BULUDLAR

Rus Könüllü qoşunu ilə gürcülərin Soçi yanındakı toqquşması Qafqazda əmələ gələn yeni cümhuriyyətlərin həmisini əndişə və təşvişə salacaq böyük bir məsələdir. Gürcü Hökuməti "Dobrovolçeski armiya" deyilən bir rus könüllü qoşununun Soçi yanlarında yığılmalarına çoxdan bəridir ki, şübhə və ehtiyatla baxmaqda idi. Lakin ingilislər gürcüləri sakit edib bu qoşunun Gürcüstan istiqlaliyyəti əleyhinə heç bir fikri olmadığını təmin ilə Gürcü Hökumətini ümidvar etdi. Halbuki qəzetələrdə oxuduğumuz üzrə Könüllü qoşunu bu günlərdə Gürcüstan əleyhinə düşmənanə hərəkətlər başlayır, komandanlarını həbs etmək, qüvvətini qırmaq və ultimatumlar verməkdədir.

Digər tərəfdən Şimali Qafqazda Dağıstan Hökuməti qoşununun dəxi bu Könüllü ordu hissələrilə müsadimələri [toqquşmaları] olmuşdur.

Rus Könüllü ordusu Rusiyanı bolşeviklərdən təmizləmək, hökuməti ələ almaq, bununla köhnə Rusiyanı təcdid [bərpa] etmək fikrində olan monarxik bir təşkilatdır ki, əsl məqsədi Rusiya tac və taxtını genə öz yerində bərqərar etməkdir.

Bu təşkilatın, məqsədlərinə yetişmək üçün yürütmək istədikləri fikrindən biri də budur ki, Qafqazı üssülhərəkə [baza] edib, burada bərkiyib, möhkəmləşib üzüyuxarı bolşeviklərə qarşı mühəribə hərəkatı açsınlar. Bunların bu fikri Qafqaz cümhuriyyətlərinin istiqlalını təhdid edən qorxulu bir qüvvətdir. Bu qüvvətə qarşı təklikdə deyil, birlikdə qalxıb ümumi bəlanı ümumi qüvvətlə rədd etmək lazım gələcəkdir.

Lakin bizi böyük əndişıyə salan işin burasıdır ki, gürcülər və dağıstanlıların bu qara qüvvətlə olan təması məmləkətlərinin kənarı olan hüdudlarında olduğu halda, biz azərbaycanlılar bunları öz içimizdə, öz paytaxtımızda görürük. Bakı, Dobrovolçeski armiyanın təhşid [toplaşma] yeri olmuşdur. Burada, paytaxtımızda asudə və aşkar olaraq kamali-gərmi ilə [qızğın bir surətdə] qoşun təşkilatı əmələ gəlir. O qoşun ki, ehtimal bir az keçməz ki, bizə qarşı əməliyyatını, gürcülər kimi kənari-hüduddan deyil, bəlkə başımızdan başlayacaqdırlar. Biz bu təhlükəyə qarşı heç bir tədbirə təvəssül [müraciət] etməyib də paytaxtımız küçələrində özgə qoşununun gəliş-gedişinə, manevralarına, paradlarına öylə bir adi nəzərlə baxırıq ki, guya bu görünüşlərdə, bu nümayişlərdə bizim üçün bir təhdid və bir təhlükə olduğunu xəyalımıza belə gətirmirik.

Halbuki paytaxtları küçələrində öz qoşunları əvəzinə özgə qoşunu görən və o qoşun əhlindən əksəriyyətinin Mart hadisatı "qəhrəman"ları olduğunu görüb tanıyan və politika "hikmətlərindən" bir o qədər də xəbərdar olmayan əhali təşviş və həyəcana gəlib, bu sirrin faş edilməsini arzu edirlər.

Məsələ hər bir barədə böyük məsələdir. Bunun müzakirəsi də, həlli də xüsusi bir şərait üzərilə keçmək məcburiyyətini iqtiza edir. Zira bu işdə, yəni Dobrovolçeski armiya təşkili işində ingilislər dəxi bir dərəcəyə qədər əlaqədardırlar. Dobrovolçeski armiya təşkilatı fikri başında duranların ingilislərdən və bilümum [ümumiyyətlə] Müttəfiqlərdən müavinət və kömək və hər halda rəğbət və hüsntəvəccöh ümidində olduqları bizə məlumdur. Özləri də bir dərəcəyə qədər bu ümidlərində əsaslıdırlar. Zira Rusiyanı diriltmək fikri Müttəfiqlər tərəfindən dəxi dəfələrlə bəyan edildiyi kimi, bolşevikləri süqut et[dir]mək qəsdi dəxi onların proqramlarına daxil olan bir əmrdir.

Qafqazda olan Müttəfiqlər nümayəndələri, Qafqaz millətlərinin müqəddəratı Paris Sülh Konfransında həll olunana qədər, Dağıstanda dağıstanlıların, Azərbaycanda Azərbaycan türklərinin, Gürcüstanda gürcülərin, Emənistanda ermənilərin müstəqil bir cümhuriyyət surət[in]də yaşamalarına razı oldular və bunu rəsmən və feilən isbat etdilər. Bu gün bizi son dərəcə maraqlandıran odur ki, görək Dobrovolçeski armiya təşkilatının qafqazlılara qarşı düşmənanə olduğu Soçi hadisəsilə isbat edilən məqsədlərinə ingilislər və bilümum Müttəfiqlər nə nəzərlə baxırlar. Bu nəzəri bilmək işində Parlamanımız və Hökumətimiz təşəbbüsata girişməlidirlər.

Paytaxtımızda asudəliklə təhəşşüd edən [yığılan, cəm olan] özgə qoşununun görünüş və nümayişləri qeyri-təbii bir əmr [iş] olmaqla gözlərimizi heyrətləndirməkdən daha artıq qəlbimizi təşviş və əndişələr ilə doldurur. Bunun üçündür ki, bu işə tezliklə diqqət yetirilib, həyəcanımızı sakit edəcək və ya başımıza çarə qılmaq əmri qarşında olduğumuzu aşkar edəcək məlumat almağa əşəddi-ehtiyac [şiddətli ehtiyac] hiss edirik.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

10-uncu iclas, ikinci gün

*(keçən nömrələrdən mabə'd)*

**Məhəmməd Əmin Rəsulzadə** - Hökumətə verilmiş olan sorğu müzakirəsi öylə bir şəkil aldı ki, adətən Məclisi-Məbusanda büdcə müzakirəsi surətinə düşdü. Qaydadır, ümumi siyasət və Nəzarətlərin [Nazirliklərin] fəaliyyətindən büdcə təsdiqi müzakirəsi əsnasında böylə ətraflı bəhs olunar. Fəqət sorğular üçün məhdud bir dairə var: Müəyyən sorğu verilir. Hökumət bəyanat verər, Parlaman qane olar və qərar çıxarar. Madam ki, şimdi Parlaman qaydası pozulmuş, iş cığırından çıxmışdır, onda ümum siyasət haqqında mütaliatımı [fikirlərimi] bəyan üçün mənə də müsaidə verərsiniz zənnindəyəm.

Əfəndilər! Burada Hökumətdən bəhs edilərkən Parlamandan əvvəlki halı da nəzərə almalıdır, sonrakını da. Məclisi-Məbusan dəvətindən əvvəlki hökumət dövründə olan halların sorğu-sualını sonrakı hökumətə isnad vermək müvafiq olmaz və ədalətə uymaz. Əgər Parlamandan əvvəlki hökumətin siyasətindən xalqa zərər dəymişsə və şimdi lazım görülürsə, sabiq nazirləri təhtiməsuliyyətə alalım, məhkəməyə cəlb edəlim. Fəqət, onların günahı üçün yeni Kabinəyə etimad, ya ədəmi-etimad [etimadsızlıq] məsələsi qaldırmaq heç də münasib şeylərdən deyildir.

Keçən natiqlər hökumət siyasətindən çox bəhs etdilər. Ona görə bu xüsusda bir qədər bəyanat verilməzsə, zənnimcə, məsələ birtərəfli tənvir edilmiş [işıqlandırılmış] olar ki, o da mətlub [arzuedilən] deyildir. Ağamalıoğlu Parlamandan əvvəlki halı və o halın qeyri-təbii olduğunu türklərin buraya gəlmələri ilə əlaqədar tutur. Zopadan və qatı tədbirlərdən şikayətlə Ağamalıoğlu türklərin buraya gəlmələrinin səbəbini "Müsavat"ın siyasətində görür və deyir ki, türklər gəldilər, bu fəna bünövrəni qoydular və şimdi həman hal davam edir və bir müddət edəcəkdir də. Digər tərəfdən Ağa Aşurov cənabları deyirlər ki, məmləkətimizdə düz adam yoxdur. Bu iki mətləb bir-biri ilə sıxı surətdə mərbut [əlaqədar] və hər ikisi yanlışdır. Zira bunların nitqlərinin ruhundan böylə anlaşılır ki, biz özümüzü idarə etməyə, müstəqil olmağa layiq deyilmişik. Mən bütün vicdanımla buna protesto edirəm. Bizim şimdi giriftar olduğumuz hal yalnız Azərbaycan deyil, yalnız Ermənistan və Gürcüstanda deyil, hətta sabiq Rusiya ərazisində təşəkkül etmiş bütün dövlətlərdə deyil; əskidən bəri müstəqil yaşayıb özlərini idarə etməyə adət eyləmiş olan böyük cahan dövlətləri belə aləmşümul müharibə nəticəsi olaraq təbii halını qeyb etmişdir.

Sənələrdən bəri kəndisini idarə etmək nə olduğunu bilmədiyimiz, əsarətdə yaşayıb milliyyət hissindən məhrum olduğumuz halda hökuməti əlimizə alırız. Ona görə biz özümüzü idarə etməyə layiq deyiliz fikri yanlışdır.

Türklərin buraya gəlməsində bir günah təsəvvür olunur. Guya türklər buraya gəlib zopa işlətmişlər. Onları qeyri yolsuzluqlarla da töhmətləndirirlər və bu işdə hər nədənsə natiq əfəndi "Müsavat" firqəsini əlaqədar tutur və buyurur ki, türkləri Azərbaycana "Müsavat" gətirmişdir. Qəribədir ki, digər tərəfdən də "Müsavat" türkləri istəmir deyə bizi itham edirlər. Əvət, biz həm türkləri gətirdik, həm də gətirmədik. Bunların ikisi də doğrudur.

"Müsavat" türkləri çağırdı, çünki burada Azərbaycan türklərinin həyatı təhlükədə idi. Bu məsələdə o zamankı Azərbaycan Şurayi-Millisi müttəfiq idi. Bu nöqteyi-nəzərdə sosialistlər bu gün peşiman olsalar da, o gün bizimlə bərabər idilər. Ağamalıyev də türkləri çağırmışdı, fəqət, onlar bundan nükul [imtina] etsələr də, biz etməyiz. Biz kamali-cəsarətlə deriz: türkləri çağırdıq və bununla da iftixar edəriz. *(Alqışlar)*

Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan Mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycanı istila edəcəkdi; millət də ümumi bir qitala [qırğına] məruz qalacaqdı. *(Mərkəzdən alqış)* İştə, bu ali məqsəd üçün türklər buraya dəvət olunmuşlardı və burada əgər bəziləri tərəfindən bir taqım üsulsuz hərəkət vaqe olmuşsa, o kimi münfəridən [fərdi qaydada] icra olunan ədəbsizlikləri bizi xilasa qoşmaqdan başqa günahları olmayan fədakar Türk Ordusuna, Anadolu Məhmədciklərinə təhmil etmək [yükləmək] olammaz. Böylə bir nəməkbəharamlığı [nankorluğu] millət irtikab eyləməz [bu pis işi işləməz]! *(Mərkəzdən alqış)* Əcəba, türk əsgərləri tərəfindən görülən bəzi şiddətləri görərkən rus inqilabçı ordusunun cəbhədən qayıdarkən bütün dəmiryol boyu ilə müsəlman füqərayi-kasibəsi üzərinə yapdıqları hədsiz-hesabsız və haqsız samosudlarını unutduqmu əcəba? *(Mərkəzdən səslər: Doğrudur! Soldan: Öylə deyildir!)*

Əfəndilər! Bununla bərabər "Müsavat" türklərin əleyhinə idi də. Bu da bir nöqteyi-nəzərdən doğrudur. "Müsavat" firqəsi birinci firqədir ki, Qafqaziyada türklüyün bayrağını yüksək qaldırıb, türklük hissiyyatını oyatmışdır. *(Mərkəzdən alqış)* Fəqət, bununla bərabər "Müsavat" hər zaman türklərin ittihadını [birliyini] bir konfederasyon şəklində təsəvvür eyləmişdir. Biz bilirdik ki, şimal istibdadından yeni yaxasını qurtarmış Azərbaycan türkünün yüz sənədən bəri adət eyləmiş xüsusi əhvalları vardır. Biz bilirdik ki, İstanbul doğrudan-doğruya Bakını idarə etmək istərsə, xalq bu idarəyə təhəmmül eyləməz [dözməz]. Bakı İstanbula qarşı üsyan edər. Bunu biz hər zaman bilirdik, onun üçün də Azərbaycanın kəndi başına idarə olunmasını istəyirdik. Biz istəmirdik ki, Azərbaycanın da ağırlığı zavallı Anadolu türkləri boynuna atılsın və Azərbaycanda bulunacaq Türk Ordusu əfradından [əsgərlərindən] bəzilərinin yolsuzluqları [qanunsuzluqları] Azərbaycan türkləri nəzərində Osmanlı türklərini ləkələndirsin.

İştə bu nöqteyi-nəzərdən biz məsələyə idrakla baxaraq türklərin bizləri xilas üçün buraya gəlmələrinə tərəfdar olduğumuz kimi, bizim və onların nəfinə [xeyrinə] olaraq buranı qanunən idarə etməmələrinə dəxi tərəfdar idik. Buna görə dəxi bu iki məsələ ancaq söylədiyim bu tərzdə doğrudur.

Əfəndilər! Bilirsiniz ki, Parlamandan əvvəlki üsul və əhval nə qədər fövqəladə idi. O zamanda siyasi firqə və müxtəlif cəmiyyətlərin nə dərəcə və nə qədər idarəyə nüfuz etdiklərini bilirsiniz. O zaman hökumət ayrı cür idi. Fəqət hal-hazırda Parlaman təşkil olunandan sonrakı hökumət qarşısında məsul olduğu üçün əhval hər dürlü haqqı-təshihə daha müsaiddir. Bu səbəblə bizim düşünəcəyimiz bir məsələ var ki, qarşımızda məsul olacaq [Fətəli] Xan [Xoyski] və hökumətə biz idarəni nə vaxt və nə kimi halda tapşırmış idik. Əvvəl bunu düşünməli, ondan sonra hökuməti təbdil [dəyişdirmək] üçün deyil, ancaq hökumətə doğru bir yol göstərmək və bu yolda bir fayda bəkləmək qəsdi ilə bu kürsüyə çıxıb tənqidat yolunda bulunmaq lazımdır.

Bir az müddət zərfində imkan daxilində nə ola bildi, olmuş. Mümkün olan işlər əcəba olmuşmudur və yaxud olacaqsa nə dərəcə, nə qədər olasıdır? Bunları əvvəla salim bir fikrə sahib olaraq tənqid etmək lazımdır.

Türklər bir anda, bir dəqiqədə buradan getməli oldular. Siz bir kərə türklərin buradan çıxdıqları vaxtı təsəvvür ediniz, o zamandakı hissiyyatınıza əlinizi vicdanınıza qoyaraq müraciət ediniz və sonra da xaricdən gələn bir qüvvəni və o qüvvə dolayısı ilə doğulan və qorxulu fikirləri düşününüz, tərəziyə qoyaraq çəkiniz. Həyatınız həp böhranlı və nə kimi xof ilə rəca [qorxu ilə ümid] arasında idiniz. Sizi xarici qüvvələrə qarşı müdafiə edən bir qüvvə, dolayısı ilə haminiz olan Türk Ordusu bilməcburiyyə [məcburi qaydada] gedir; əvəzində digər bir qüvvət gəlir ki, sizinlə olan əlaqəsini qətiyyən bilmirsiniz, sizə qarşı nə cür hərəkət edəcək və sizi müdafiə edəcək, yoxsa başqa bir cürə hərəkət edəcək, onun vəziyyəti-siyasiyyəsi nə olacaq, Azərbaycan taxtı salamat olacaqmı, yoxsa yox? İştə öylə təhlükəli bir zamanda Azərbaycan Şurayi-Millisi Parlamanı dəvət etdi.

Parlaman üzvləri iclas günündə nə kimi xof ilə rəca arasında toplandılar, bunu da siz özünüz pək əla bilirsiniz. O zaman təsadüfi olaraq ingilislərdən maəda [başqa] bir çox xarici qüvvətlər gəlmiş idilər, paytaxtımızda nələr törətdiklərini də unutmamısınız. Bunların hərəkətləri nə tövr idi. Hər saat, hər dəqiqə Parlamanımız hücuma məruz olacağını düşünməkdə idik. Paytaxtımız böylə, başqa şəhərlərimizdə, vilayətlərimizdə nələr vaqe olduğunu bilməyirdiniz. Bir ümidimiz var idi ki, türk qardaşlarımız gedəndən sonra onların yerində bir Azərbaycan qüvvəsi oturacaq və bizləri müdafiə edəcək. Fəqət, o fikrin həqiqətə müvafiq olmadığı görüldü. Təəssüf ki, Azərbaycanda bir qüvvə də qalmamışdı. Bunu siz də bilirsiniz ki, bu xüsuslarda daha fəzlə danışmağa zaman və məkan müsaid deyildir. Bilirsiniz ki, türklər burada ikən nümayəndəlik müəssisəsi olmadığından hökumət nə surətlə idarə edilirdi və nə dərəcəyə qədər idarənin namüsaid olduğunu da bilirsiniz. O zaman işlərin bəzi türk zabitləri ilə nə qədər əlaqəsi var idi.

Nəzarətlərin [Nazirliklərin] təşkilatları nə surətlə idi. Sabiq nazirlərdən Ağa Aşurov cənabları bu gün buyurmuş xitabında buyurdular ki, nazirlər xırda işlərlə məşğul olurlar. Neft, bez və sairə şeylərlə, ərizələrə baxaraq imza edirlər. Sabahdan axşama qədər məşğuliyyətləri ərizəyə baxmaqdır və böyük işlərlə uğraşmağa vaxtları olmur. Fəqət, Ağa Aşurov cənabları kəndiləri nazir ikən nəinki bez, neft və sair vəsiqələrə baxmaq, bəlkə də pomidor icazənaməsini də kəndi imza edirdi. İştə, ümumi nöqteyi-nəzərdən məsələyə ətraflıca baxılaraq vəziyyəti-siyasiyyəmiz göz önünə gətirilərək bitərəfanə mühakimə etməli və məsələyə öyləcə yanaşmalıdır.

Şimdi meydandakı əsl mətləbə gələlim. Meydanda olan yalnız sorğu məsələsidir. Bu sorğu əvvəlcə müəyyən maddələrdən ibarət idi. O maddənin ən əhəmiyyətli məsələsi məmləkətimizin yeganə sərvəti və bütün dünyada məmləkətimizi mümtaz edən [tanıdan] neftin müvafiq üsul ilə satılmaması və bezin xalqa yaxşıca paylanmaması idi. Bu sorğu əsas etibarı ilə Ticarət və Sənaye Nəzarətinə aid idi. Fəqət, sorğunu verən əfəndilər əvvəlcə söylədikləri bu oldu ki, onlar heç bir şəxsi müttəhim etmək deyil, sistemi əsasən [kökündən] dəyişdirmək istəyirlər və bunun üçün də bir komisyon təşkilini təklif edirdilər. Fəqət sorğu veriləndən sonra gördük natiqlər nəzarətləri büsbütün ayrı tərəfə çəkdilər. Ticarət Nəzarətinin üsulsuzluğunu düzəltmək qəsdi ilə neftdən başladıqları halda əsl mətləbin özünü xəfifcə basdıraraq qaradavoylar üzərində dayandılar. *(Alqış)* Doğrudur, qaradovoylara əhəmiyyət vermək lazımdır, çünki onlar camaata daha yaxındırlar. Fəqət bunu bilmək lazımdır ki, hamı məsələlər haqqında birdən danışmaq bir nəticə verməz. Bir məsələ meydanda ikən və həll olunmamışkən, digər bir məsələyə keçmək – necə ki neft xüsusunda danışan natiq əsl məqsəddən ayrılıb şiddətlə qaradovoy üzərində durur – doğru deyildir. *(Alqış)*

Tənqid, Parlaman əzasının [üzvlərinin] və hər bir vətəndaşın haqqıdır. Sorğunu öylə verməli və o məqsədlə sormalıdır ki, hökumətin qüsurunu düzəltmək və hökumətə kömək etmək olsun nəinki hökuməti yıxmaq qəsdi ilə hücum edilsin. Bu surətlə hökumətə verilən sorğu bir nəticə verəmmədiyi kimi, yaxşı bir üsuli-tənqid də deyildir. Bu hallarla irəli gedib, bir yana çıxa bilmərik. Paytaxtımızda bir neçə qəzetə çıxır və hərəsi bir surətlə hökuməti tənqid edir. Fəqət, bu tənqidlər arasında böyük fərq var. Məsələn, bizim sosialistlərimizin mürəvvici-əfkarı [mətbuat orqanı] olan "Zarya" qəzetəsinin də tənqidi var, "Yedinaya Rossiya" qəzetəsinin də. Bunların arasında olan təfa-vütü anlatmaq üçün "Y. R."-dən bir fəqərəni [məsələni, bəhsi] ərz edəyim. Məsələn, Quba qəzasından hangi bir kənddə isə birisi demiş ki, bizə rus məmuru göndərin. Bunu eşidən "Y. R." qəzetəsi həman "Azərbaycan camaatı rus hakimiyyəti istəyir" deyə nəşriyyatda bulunur. Əgər bizim də tənqidatımız böylə olarsa, vay bizim halımıza, hangi qüvvətlə və kimlə olursa-olsun, hökuməti düşürəcəyəm deyə düşünmək və bu nöqteyi-nəzərdən tənqidatda bulunmaq vətən və millət mənafeyi ilə uymaz. *(Alqışlar)*

Siz yenə diqqət etməlisiniz ki, Parlaman dəvətindən sonra bütün əhval müşkilat içində olmaqla bərabər, məmləkət bu hökumətə tapşırılmasından ancaq beş həftəlik bir vaxt keçmişdir. Bu müddət öylə uzun bir vaxt deyil ki, hökumət əski qüsurları islah edib öylə bir vəziyyət vücuda gətirsin ki, qurd quzu ilə otlasın və Ağamalıoğlunun göstərdiyi şeylər olmasın. Bu dərəcə nikbin olsaq özümüzü aldatmış olarız. Zira insan imkan xaricində şeylər tələb edərsə, şübhəsiz təbiət onu verməz və nəticədə insan məyus olar. Bu gün bir hökumətdən beş həftə müddətində bütün işlərin dəyişməsini və yenidən bir çox işlər görməsini tələb etsək və bunu nikbinliklə gözləsək, şübhəsizdir ki, gözlədiyimiz su səhrada görünən sərab olub bizi aldadar. Ağamalıoğlu bu hökuməti keçən hökumətin misalı hesab edərək "ya keçəl Həsən, ya Həsən keçəl, nə təfavütü var, o hökumətin vaxtında nə vardısa heç dəyişməmişdir", deyir. Məsələn deyir ki, Qazaxda şikayət edənləri döyürlər, filankəsi tuturlar, sudyalar [hakimlər] yerində tapılmırlar. Bunların düzəldilməsi həp bu hökumətdən gözlənir. Köhnə qüsurlar da tamamilə buna tövcih olunur. Hər bir şeyin islahı tələb edilir və az bir müddətdə işlər düzəlməyəndə deyilir ki, hökumət iş görmür.

Ağa Aşurov dəxi hökuməti tənqid edir. Yalnız hökuməti deyil, milləti də tənqid edərək deyir ki, məmurlarımızın əksəri rüşvətxordur. Lakin yaxşı ki, fikrini islah edərkən deyir ki, məmurların məvacibi azdır, müəllimlər aldıqları məvacib kifayət etmədiyindən başqa işlər aramağa məcbur olurlar. Hökumət onların məvacibini artırmalı, həyatlarını təmin etməlidir. Ağa Aşurovun bu rəyinə mən də şərikəm, bu sözləri mən dörd əl ilə imza edərəm. Fəqət, bu işlərin həpsini yalnız hökumətmi görməlidir? Biz bu xüsusda təşəbbüs edə bilməzmiyiz?

Məvaciblərin artması haqqında Parlaman bir qanun vəz edə bilməzmi? Ağa Aşurovu və sair məbusları qanun vəz etmək hüququndan kim məhrum qıldı? Parlaman edə bilərdi ki, ümum məmurların təmini üçün bir qanun versin. Odur ki, qüsur yalnız hökumətdə deyil, bizim özümüzdə də böyük qüsurlar var. Siyasi firqələr hər yerdə gördüyü, eşitdiyi nizamsızlıq və haqsızlığı hökumətə həml [yükləyir] və onu tənqid edirlər. Fəqət, mən sual edirəm ki, hökuməti fəaliyyətsiz adlandıran siyasi firqələr əllərini döşlərinə qoyub vicdan rahatlığı ilə deyə bilərlərmi ki, onlar xalq mənfəətinə lazım olan qədər işləmişlərdir? Hanı bu firqələrin xalqa doğru getdikləri, hanı xalq içinə təşkil etdikləri şöbələr? Bu firqələr camaat üçün nə yapmışlardır? … Hansı yolda işləmişlərdir? Tiflisdə oturaraq qəzetə çıxarmaq asandır, kənardan tənqid etmək mümkündür. Odur ki, bunu edirsiniz. Amma xalq içinə getmək, xalq arasında işləmək çətindir. Odur ki, heç kəs onun dalınca getmir. Deyirsiniz ki, uyezdni naçalnik quldurlara, adam öldürənlərə istinad edir; əgər öylə isə yenə təqsir siyasi firqlərdədir. Çünki həman uyezdni naçalniklərin ya sair məmurların yanı başında firqə şöbəsi olsaydı, şübhəsiz ki, o məmur çalışardı siyasi firqəyə istinad etsin. Əgər firqələr o köylərə, xalq içinə getmiş oralarda çalışmış və xalqa anlatmış olsaydılar yəqin ki, xalq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı. Şimdi bu şeylərin heç biri yox ikən, ümumən pərişanlıq vaqe ikən hökumətdən tələb etmək ki, bir ay zərfində hər işi düzəltsin, hər şeyi islah etsin, bu ona bənzər ki, hökumətdən tələb edəsən kimya ilə, əliksir ilə hər işi düzəltsin, kün desin fəyəkün olsun. Amma bunu gözləmək, quru səhrada su axtarmaq kimi puç bir ümiddir.

Sonra bir şeyə daha nəzərinizi cəlb edirəm. Əfkarımıza daha artıq icrayi-təsir etmək üçün burada bizə deyirlər ki, Azərbaycanın halı hamı məmləkətlərdən fənadır. Qonşularımız bizdən rahat və ucuz yaşayırlar. Fəqət, bu iddialar əsassızdır. Hamınıza məlumdur ki, Ermənistan acından və ənvai [müxtəlif] xəstəlikdən qırılır. Gürcüstan buradan daha bahalıqdır, orada ağ çörək 7 manata, qara çörək 4 manat yarımdır. Sui-istemal [sui-istifadə] hər yerdə var, hətta Gürcüstanda bir dərəcəyə varmışdır ki, hökumət xüsusi bir məhkəmə qurmağa məcbur olmuşdur. Sui-istemallar ittifaqında [sui-istifadə hallarında] məmurlardan bu məhkəməyə şikayət verilir. Görürsünüz ki, qonşularımız da mələk deyildirlər. Biz Azərbaycanı qonşularımızla müqayisə edərkən görürüz ki, Azərbaycanın halı onlardan yaxşıdır.

Əlbəttə, mən bu iddiada deyiləm ki, bizim hər işimiz mükəmməldir. Amma bunu deyirəm ki, o dərəcə kamalda deyilsə təqsir yalnız hökumətdə deyil, bizdə də var. Gürcüstan ilə özümüzü müqayisə edərkən biz bunu nəzərdə tutmalıyıq ki, əvvəla Gürcüstan Hökuməti və Parlamanı yeddi aydır işləməkdədir. Bizimki isə bir ay, ay yarımdır. Bundan əlavə, onların vəziyyəti siyasiyyəsi daha yaxşı, daha əlverişli idi. Onların vəziyyətini yaxşılaşdıran böyük bir amil də var ki, o da siyasi firqələri və müntəzəm əsgərləri mövcud olmasıdır. Onlar altmış-yetmiş il siyasi həyat keçirmiş firqələrə malikdirlər. Biz onlarla bərabər olmaq istəsək, onlar kimi uzun müddət bir siyasi həyat keçirməliyiz.

Hökumətə etimad, ya ədəmi-etimad [etimadsızlıq] məsələsini müzakirəyə qoymaqdan ötrü bezdən, qaradavoydan başlayıb, bu ikisini bir-birinə mərbut [bağlı] qoymaq əsla dövlət nəzəri deyildir. Həmçinin hökuməti nə olur-olsun düşürəcək və sonra nə olacaqsa təvəkkül Allaha demək, doğru bir nəzər deyildir. Bir məbus heç vaxt bunu böylə düşünməz ki, hökuməti hərçi bada bad yıxsın. Bir məbus xarici və daxili düşmənləri görməli, hökuməti bu halda düşürməyi[n] bütün vətənə və millətə nə kimi nəticələr verə

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 fevral Çərşənbə günü) tarixli 112-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

biləcəyini düşünməlidir. Hökumətə etimad məsələsini araya çıxarırkən bunu bir ətraflı ölçməli, biçməli, ətrafa nəzər yetirməli və fikir etməlidir ki, məmləkət böylə təbəddülata təhəmmül edə bilərmi [dəyişikliyə dözə bilərmi]? Xaricdəki düşmənlər, daxildəki təşkilatlar, hökumət sürənlər nəzərə alınsın da sonra böylə məsələlər araya atılsın. Bu mülahizələrlə də ki, mən deyirəm etimad məsələsi bilmərrə qaldırılsın, çün məmləkətin vəziyyətinə müvafiq deyildir. Doğrudur, Ticarət və Sənaye Nəzarətində, neft satışında, bez təqsimində [paylanmasında], malların mübadiləsində üsulsuzluq vardır. Fəqət, tədqiq etsəniz görərsiniz ki, bu üsulsuzluqlar yalnız hökumətin təqsiri deyil, fabrikanın özündə də, fabrika məmurlarında da bir çox nöqsan vardır. Tağıyev fabrikasının özünə məxsus bir politikası var ki, xalqı müşkülata salan da odur. Fabrikaya yaxın olan adamları sorsaydınız onlar daha ətraflı məlumat (исчерпивающе объяснеие) verərdilər. Hökumətin qüsuru budur ki, fabrika politikasına göz qoymayıb laqeyd baxmış və bu işlərin qabağını almaq təşəbbüsündə bulunmamışdır. Əgər hökumət vaxtlı-vaxtında fabrika politikasına diqqət verib, onu kökündən kəsmiş olsaydı, bu gün böylə şiddətli hücum və tənqidlərə məruz qalmazdı. Fəqət hökumət bunu etməmişdir, əgər etmişsə də, bəlkə lazım bilsələr məlumat da verərlər. Fəqət bu gün mən təklif edərdim ki, hökumət bu işə baxmaq üçün xüsusi bir komisyon təşkil etməlidir ki, ümumiyyətlə, mal mübadiləsinə və fabrikanın müamilatına [əməliyyatlarına] diqqət yetirsin ki, daha böylə üsulsuzluqlar olmasın. Məsələn, Bakıda olan neft Bakının içində satılıb qurtaran bir şey deyildir. Allah bərəkət vermiş bir xəzinə ki, yalnız Bakıda deyil, hətta bütün Azərbaycanda satılmaqla qurtarmaz. Nefti xaricə çıxarmalı, xarici məmləkətlərə satmalıdır. Nefti də dəmiryolu ilə çıxara bilərik. Yolumuz nə qədər neft çıxarmağa imkan verirsə, hökumət çalışıb o qədər neft buraxmalıdır. Ancaq neft ixracına müsaidə verilərkən Nəzarətdə heç baxılmır ki, görək izin istəyən adam həmişə bunun alış-verişini edənmidir ya yox. Çünki, hal-hazırda neft alış-verişi tif xəstəliyi kimi bir xəstəlik olub Azərbaycanı tutmuşdur. Tacir, doktor, müəllim xülasə hər kəs bu alış-verişlə məşğul olub və müsaidə istəyir. Ticarət Nəzarəti də hər istəyənə bilatəhqiq və tədqiq [təhqiq və tədqiq etmədən] izin verir. Böylə tədqiqsizlik nəticəsidir ki, müşahidə etdiyimiz üsulsuzluq çıxır. *(Alqış)*

## QƏZETƏLƏRDƏN

Rusiyadan gələn qəzetələrin son nömrələrində Moskva barəsində zeyldəki [aşağıdakı] məlumat verilir:

Şura Hökuməti iki milyard manat Moskvanı cərimə eyləmişdir və bu məbləği şəhərin mərkəzində olan böyük evlərin üzərinə qoymuşdur. Bəzi böyük evlərdən bir milyon, hətta dörd milyon manat cərimə alınmışdır. Bir çox sərvətli ailələr 100 min manat cərimə vermişlərdir. Kəndlərdə isə hər komadan 2-3 min manat cərimə alırlar. Moskvada hər gün yüzlərlə adamlar səpmə yatalaq xəstəliyinə mübtəla olur. Yatalağa məxsus 10 ədəd xəstəxana açılmışdır. Xəstəxana qarşısında yüzlərlə xəstələr növbə gözləyirlər. Bir çox xəstəxanaların bütün qulluqçuları, həkimləri xəstələnmişlərdir.

**Bolşeviklərin məlumatı**

Bolşeviklərin məlumatına nəzərən Yevpatoriyada böyük üsyan əmələ gəlmişdir. Könüllü qoşunlarla camaat arasında dəhşətli və qanlı müharibə olmuşdur. Mahal naçalniki qətl edilmişdir. Sevastopoldan teleqrafla qüvveyi-hərbiyyə istənilir. Könüllü ordu komandanlığı isə teleqrafla Fransa komandanlığından minanos [torpedo gəmisi] tələb edir. Müharibələrin nəticəsində Yevpatoriya üsyançıların əlinə keçmişdir. Göndərilmiş olan ərəb qoşunları qətiyyən müharibədə iştirak etməyəcəklərini bildirmişlərdir.

Krım Hökuməti bu əhvaldan son dərəcə xofa düşmüşdür. Üsyanın bütün Krıma sirayət edəcəyindən ehtiyat edirlər.

**Sazonov Sülh Konfransında**

Sabiq Rusiya vəziri Sazonov Rusiyanın şimal-şərqindən Sülh Konfransında nümayəndə olmaq üçün Kolçak tərəfindən müvəkkil edilmişdir.

**Vladiqafqazda**

Bu günlərdə Vladiqafqaz əhvalı haqqında təzə bir məlumat yoxdur. Tersk kazakları, osetin və Könüllü ordu əsgərləri ilə inquşlar arasında müharibə davam edir. Müharibələrin hansı cəbhədə vaqe olduğu dürüst məlum olmamışdır.

* İstanbul qəzetələri yazırlar ki, Mərkəzi hökumət nümayəndələrinin Sülh Konfransına buraxılmayacaqları barəsində olan şayiat doğru deyildir. Babi-Ali Sülh Konfransına getmək üçün heyət intixab eyləmiş [seçmiş], namizədlərdən birisi də Prins Səbahəddindir. Səbahəddinin xüsusi katibi Lütfü bəy bu günlərdə Parisə əzimətlə [getməklə], Səbahəddin bəyin Sülh Konfransına nümayəndə təyin edilməsindən ötrü etibarnamə aparacaqdır.

* Çoxdan bəri Fransada və sonra Səlanikdə olan Rusiya qoşun dəstəsi Feodosiyaya övdət etmişdir [qayıtmışdır].

**Ərəbistanda**

Yeni Ərəbistan padşahlığı və qırmızı, qara, ağ və yaşıl rənglərdən ibarət yeni bayraq tərtib ver[il]mişdir.

**Gürcüstan ilə Könüllü ordu müharibəsi**

Tiflisdən teleqraf edirlər ki, Zaqafqaziyada olan İngiltərə komandanı [Forester-]Volker Gürcüstan Xariciyyə nazirinə xəbər vermişdir ki, Gürcüstanla Könüllü ordu əsgərləri arasında vaqe olan ixtilafı bərtərəf etmək üçün İngiltərə zabiti Uayt göndərilir. Gürcüstan Hərbiyyə naziri, general Mazniyevdən böylə bir məlumat almışdır: Bu gün fevralın 5-ində ümumi hücum başlanmışdır. Çxakoura, Çiro, Mikelsminda, Çurquni, Partsxaçiçeli kəndlərini candalardan [quldur dəstələrindən] azad etmişəm. Sabah hərəkat davam edəcəkdir.

**Şatilovun həbsi**

Bakıya verilən xəbərlərə nəzərən Gürcüstan Hökuməti Könüllü qoşunların nümayəndəsi olan general Şatilovu həbs etdirmişdir.

**Kolçak ordusunun hərəkəti**

Amiral Kolçak əsgərləri Perm şəhərini işğal etdikdən sonra Samara və Vyatka üzərinə hücum etməyə başlamışlardır.

**Petlyura əsgərlərinə ultimatum**

Petlyura əsgərlərinə (Ukrayna istiqlalçıları) əmr verilmişdir ki, Odessadan Vapnyarka mövqifinə [stansiyasına] qədər 286 verst kənara çəkilsinlər.

**Petlyuranın Almaniyaya getməsi**

Petlyura baş ərkani-hərb [qərargah] naçalniki Osetski ilə bərabər Kiyevdən çıxıb Almaniyaya əzimət etmişdir [yola düşmüşdür].

## VÜKƏLA ŞURASINDA

* Rəisi-vükəla [Baş nazir] fövqəladə istintaq komitəsi təşkili barəsində Şurayi-Vüzərada [Nazirlər Kabinetində] dakladda bulunmuş [məruzə etmiş] və qərar qoyulmuşdur ki, Ədliyyə vəziri [naziri] qısa bir müddətdə böylə bir komissiya tərtibi layihəsini Şuraya təqdim eyləsin. Bu fövqəladə komissiya hökumət məmurlarının xəyanətini kəşf və istintaq edəcəkdir.

* Yenə Rəisi-vükəlanın dakladına görə Ticarət vəzirinə mühəvvəl edilmişdir [tapşırılmışdır] ki, Tağıyev fabrikasından çıxan mallar üzərinə kontrol qoyulsun.

* Rəisi-vükəlanın bahalıqla mübarizə barəsindəki məruzəsinə görə, Ərzaq nazirinə mühəvvəl edilmişdir ki, beş gün müddətində Şürayi-Vükəlaya Azərbaycanda bahalıqla mübarizə haqqında nə kimi tədbirlər görülməsi təsəvvürünü söyləsin.

* Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanov cənabları fevralın 9-da Xaçmaz yoluna nəzarət üçün Dərbənd tərəfinə əzimət eyləmişdir [getmişdir].

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Bu günlərdə Məsai Nəzarəti [Əmək Nazirliyi] Gədəkənddə cəm olmuş Zəngəzur qaçqınlarının əhvalını yoxlamaq qəsdi ilə bir nəfər öz nümayəndəsini göndərmişdi. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] də Mirbağırov cənablarını oraya göndərmişdir. Bununla bərabər Nəzarət Gəncədəki nahiyə müfəttişinə teleqrafən xəbər vermişdir ki, Mirbağırova para və başqa vəsaitlə müavinətdə bulunsun [kömək etsin].

Bu günlərdə həman oraya Səhiyyeyi-Ümumiyyə Nəzarəti [Xalq Səhiyyəsi Nazirliyi] tərəfindən bir sair müavinət dəstəsi göndəriləcəkdir.

**Məsai Nəzarətində**

* Məsai Nəzarəti tərəfindən Gəncə quberniyası Gədəbəy qəzasındakı mis mədənləri fəhlələrinin əhvalını təhqiq etmək qəsdi ilə Rəhim Hüseynov cənabları oraya göndərilir.

* Novo-Bayəzid müsəlman qaçqınları Gədəbəy tərəfə cəm olmuşlar. Məsai Nəzarəti əhvaldan müxbir [xəbərdar] olaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən onlara təcili surətdə müavinətdə bulunmağı rica etmişdir.

**Post və Teleqraf Nəzarətində**

* Post və Teleqraf Nəzarətinə Ağdamdan bir teleqram gəlmişdir. Teleqramda denilir ki, Zəngəzur müsəlman qaçqınları Ağdama dolub aclıq və soyuqdan tələf olmaqdadırlar. Onları yerləşdirmək üçün yer olmadığından Post və Teleqraf idarələrində yerləşmişlərdir.

* Post və Teleqraf Nəzarəti Şurayi-Vükəlaya müraciətən məlum etmişdir ki, Post və Teleqraf xidmətçilərinə məxsus bir ambulatoriya təmir edilməlidir.

* Məlum olduğu üzrə bu vaxtadək gəlir vergisi hər min rublədən alınırdı. Şimdi Maliyyə naziri həzrətləri Şurayi-Vükəlaya bir layihə təqdim etmişdir. İşbu layihəyə görə gəlir vergisi hər 5000 rublədən alınmalıdır. Zira pulun fiyatı düşdüyünə görə vergi də azalmalıdır.

## DAĞISTAN CÜMHURİYYƏTİ NÜMAYƏNDƏLƏRİ GENERAL TOMSON HÜZURUNDA

Dağıstan Cümhuriyyətinin Ticarət və Sənaye naziri Mallaçıxan ilə inquş camaatı nümayəndəsi Əbubəkir Pliyev fevralın 10-da general Tomson tərəfindən hüzura qəbul edilmişlərdir. İnquş nümayəndəsi İnquşistan əhvalını müfəssəl surətdə nəql edib demişdir ki, bu axır günlərdə Dağıstan Cümhuriyyəti zabitləri başda olmaq üzrə göndərilən başıpozuq dəstələri müharibə ilə Vladiqafqazı işğal edib, Qırmızı ordu əsgərlərinin silahını almaqla bərabər bolşevik komissarlarını həbs etmişlərdir. Sonra da Vladiqafqaz rayonuna gələn Denikin ordusunun könüllü əsgərləri inquşlar əleyhinə müharibə açmışlardır.

Dağıstan Hökumətinin Ticarət və Sənaye naziri Mallaçıxan Qroznı ilə Vladiqafqazın Dağıstan əsgərləri tərəfindən işğal edilməsini öz hökumətinin sifarişinə görə generala məlum edib, Könüllü ordu dəstələrinin inquşlar əleyhinə hücumda və həmçinin Dağıstan Hökumətinə və Qroznı ilə Vladiqafqaz şəhərlərinə düşmənanə münasibatda bulunmaqlarının qət edilməsi [kəsilməsi] üçün müavinət göstərilməsini xahiş etmişdir. General Tomson dağıstanlıların bolşeviklərlə mübarizədə müvəffəqiyyətə nail olmalarından məmnun olduğunu izharla demişdir ki, həmin məqsədi təqib edən Denikin ordusu Dağıstan Hökumətinə düşmənanə münasibatda bulunmaz. Dağıstan Hökuməti bolşeviklərdən təmizlənmiş olan yerlərdə tezliklə asayiş və qanun bərpa etməlidir. General Tomson inquş nümayəndəsi Əbubəkir Pliyevə verdiyi məktubunda inquşların Vladiqafqazda olan İngiltərə heyəti işlərində iştirak etməsindən öz razılığını izhar edib, eyni zamanda ümidvar olur ki, ümumi düşmən olan bolşeviklərin pərakəndə edilməsi ilə inquşlardan ötrü asayiş və rahatlıq günləri başlayıb, onları xoşbəxtlik və nəşvü nüma [tərəqqi] yoluna çıxaracaqdır.

## BAKI XƏBƏRLƏRİ

**Qəzavətdən [Qazılıq İdarəsindən]**

Müdiri-möhtərəm! İşbu neçə kəlmə sözlərimi[n] "Azərbaycan" qəzetəsinin bir guşəsində dərcini rica edirəm.

Dün Ümuri-Xeyriyyə [Sosial Müdafiə] naziri həzrətləri tərəfindən Məşixət İdarəsi təvəssütü [Şeyxülislamlıq İdarəsi vasitəçiliyi] ilə Bakı qazısı cənabına 5 min manat para, Bakıda fəqir əşxaslar [şəxslər] vəfat etdikdə dəfn-kəfninə [kəfənlənərək dəfn edilməsinə] sərf etməyə vasil oldu. Buna binaən [buna əsasən] Bakı qazısı şəhərdə olan müsəddəq [yoxlanmış, inanılmış] ruhanilərə əlahiddə məşruhə [izahat] ilə bəyan etmişdir ki, hər bir fəqir və ya qəribə vəfat edə, varislərinin təşyiyə [cənazəni yola salmağa] qüvvəsi olmaya, o vaxt ruhani mollalar bir qəbz verib Bakı qazısı qəbz sahibinə mütəvəffanı [vəfat edən şəxsi] dəfn və kəfn etmək üçün para verir. Ümuri-Xeyriyyə naziri həzrətlərinə təşəkkürümü bəyan edərək bir neçə kəlmə Bakı qəbristanına olunan təcavüzlərdən ərz etmək istəyirəm.

Şeyxülislam ilə Bakı qazısına əfvahən [ağızdan-ağıza, şifahi olaraq] xəbər çatmışdır ki, Bakı qəbristanında əsirlər üçün bina olunmuş budkanı söküb aparırlar və bir para şəxslər qəbir qazmaqdan ötrü vicdansızlıqla fövqəladə məbləğlər alırlar. Bundan əlavə, bir para islama yaraşmayan təcavüzlər olur. Onu yazmaq istəməyib fəqət ərz edirəm ki, dər xanə kəs əst yek hərf bəs əst. Bu barədə də Bakı qazısı hər məhəllədən bir neçə nəfər zəvat [şəxs] həmin cümə günü fevralın 14-də bu barədə bir heyət təşkil etmək üçün dəvət etmişdir. Lakin mən yenə qəzetə vasitəsilə xəbər verirəm ki, bu barədə savaba çatmaq istəyən fəal adamlar dəxi təşrif gətirib böylə işlərə sərəncam çəkilərsə eyi olar, əfəndilərim.

*Məhəlli-idarə [idarə yeri]:*
*Verxni-Priyutski küçə*
*nömrə 18*
*Bakı qazısı katibi:*
*Həsənağa Yusifxanlı*

**Telefon xəttində tətil**

* Keçənlərdə telefon xidmətçiləri məvacib artırılmasından ötrü Telefon Xətti Cəmiyyətinə bir məruzə pişnihad [təqdim] etmişdilər. Fəhlə konqresi də qət etmişdi ki, şubatın [fevralın] 11-dək onların tələbatına [tələblərinə] əməl edilməzsə tətil elan edilsin. Dün tətil elan edilmişdir. Lakin xidmətçilərin tələbləri Telefon İdarəsi tərəfindən qəbul edildiyinə görə, günortadan sonra telefonlar işləməyə başlamışdır.

* Axır vaxtlar şəhərin müsəlman hissələrində hər gecə tüfəng atılmağa başlamışdır. Xüsusən dördüncü dairədə hər gecə saat 7-dən sonra tək-tük silah atılır. Əhali axşamdan evlərinə girib bayıra çıxmamağa məruz qalmışlardır. Müsəlman hissələrinə gecələr milissiya nəfəratı [nəfərləri] göndərməklə böylə işlərin önü alınmalıdır.

**Qızlar üçün hünər məktəbi**

1917-ci sənəsi oktyabr ayında Bakı Ünas Cəmiyyəti-Xeyriyyəsi [Qadın Xeyriyyə Cəmiyyəti] tərəfindən kasıb müsəlman qızlarına məxsus bir hünər [sənət, peşə] məktəbi açılmışdı. Bu məktəb Mart hadiseyi-əliməsi [faciəli Mart hadisələri] münasibətilə qapanmağa məcbur olmuşdu. Şimdi Cəmiyyəti-Xeyriyyə həman məktəbin yenidən açılması barəsində təşəbbüsdə bulunur. Cəmiyyəti-Xeyriyyə bu təşəbbüsdə müsəlman qızları üçün həman məktəbin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Məktəbin açılmasından birinci məqsəd odur ki, camaat hünər vasitəsi ilə öz ehtiyacatını rəf etməyə [ehtiyaclarını aradan qaldırmağa] qadir olsun.

Bizə yetişən mövsuq [etibarlı] xəbərlərə nəzərən, hökumət bu cür hünər məktəbinə artıq əhəmiyyət verir və bu xüsusda cəmiyyətlərə kömək edəcək, özü də ayrıca məktəblər açacaqdır. Maarif naziri həzrətləri Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] vermək üçün bu barədə bir məruzə dəxi hazırlamışdır.

**Məhəmmədovun qətlinə dair**

Fevralın 9-unda gecə, məşhur Bakı neftçilərindən Nəcəfqulu Məhəmmədov öz evində qətl edilmişdir. Mərhum Vrangelski küçədə öz evində yaşayırmış, həman [evin] digər bölmələrində isə ailəsi olurmuş. Mərhum şənbə günü axşam öz kantorunda bəyan eyləmişdir ki, sentyabr hadisəsində qətl edilmiş olan dostu Teymur bəy Qulubəyovun təbidi-namı [adını əbədiləşdirmək] üçün məscid və darülə-cəzə [qocalar evi] inşasına yarım milyon pul buraxacağını bildirmişdir. Bu sözü dedikdən sonra mərhum evinə qayıtmış.

Gecə saat 12-də evdən qonşular səs eşidirlər. Sübh vaxtı isə Məhəmmədovu evində başı kəsilmiş halında tapmışlardır. İstintaqdan anlaşılır ki, Məhəmmədovu qarət qəsdi ilə deyil, başqa qəsdlə qətl etmişlərdir. Hökumət bu işi ciddi təqibə başlamışdır.

**Salarüddövlənin həbsi**

İran inqilabından sonra şahi-məxlu [taxtdan salınmış şah] Məhəmmədəlinin bəradəri [qardaşı] Salarüddövlə üsyan bayrağı qaldıraraq İran taxtına sahib olmaq xəyalında idi. Salarüddövlə talış və şahsevənlərdən mürəkkəb [ibarət] bir çetə dəstəsi ilə Gilan və İranın başqa cəhətlərində qətl və qarətə məşğul idi. Sonraları Salarüddövlə məğlub olaraq Yevropaya fərar etmişdi. İşbu günlərdə müşarileyh [adı çəkilən şəxs] Bakıya gəlmiş imiş. Mövsuq [etibarlı] mənbədən aldığımız məlumata görə Salarüddövlə burada həbs edilmişdir.

**Bələdiyyə İdarəsində**

* Müsri [yoluxucu] xəstəliklərlə mübarizə edici komisyon Bələdiyyə İdarəsinə bir kağız göndərib məlum etmişdir ki, şəhər təthirat [təmizlik] şöbəsi təvilələrinin [tövlələrinin] təmiri başlanmışdısa da yenə qət edilmişdir [dayandırılmışdır]. Şimdiki əhvalı nəzərə alaraq təvilələr təmiratını Bələdiyyə İdarəsi təcdid [bərpa] etməlidir. Zira təmirat yapılmazsa, atlar qırılacaqdırlar.

* 9-uncu məntəqə sakinləri 76 imza ilə Bələdiyyə İdarəsinə bir ərizə verib rca etmişlər ki, orada yerləşmiş ümumi xanələr [fahişəxanalar] həman dairədən çıxarılsın.

## TEATRO VƏ MUSİQİ

Möhtərəm camaatı drama tamaşasından məhrum etməmək üçün Hacıbəyli Qardaşları Müdiriyyəti böylə qərar veribdir ki, Azərbaycan Hökuməti Teatrosunda ayda bir dəfə olaraq məşhur dramalardan oynasın. Böylə ki, bu cümə üçün məşhur tarixi "Ağaməhəmməd şah Qacar" faciəsi mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanır.

## İDARƏDƏN CAVABLAR

Gəncədə **Osman Nuri** əfəndiyə: Məqaləniz qeyri-məmul [arzuedilməz] hadisələrə səbəb ola bilər.

**Əlihəsən Cabbar oğlu** əfəndiyə: Bu xüsusda əvvəlcə Bələdiyyə İdarəsinin məkatib [məktəblər] şöbəsi ilə məsləhətləşməlisiniz.

Gəncədə **İlyas Turqud** əfəndiyə: Açıq məktubunuzu örtülü olaraq Məhəmməd Əmin Rəsulzadə cənablarına verdik ki, yazdıqlarınız xüsusunda təhqiqatda bulunsun.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Arvad diş həkimi**
**M.S.İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini fevralın 12-sində çaharşənbə [çərşənbə] günü gündüz saat 12-də Qafqaz Merkuri Cəmiyyətinin kantorunda olacaq ümumi iclasa dəvət edir. Bu iclas, irəliki iclasın məbədidir [ardıdır].

*2680*

**Elan**

Ərzaq Nəzarətinə 40-50 otaqdan ibarət mənzil lazımdır.
Telefon nömrə: 36-70.

*35*

**Ziraət və Əmlak naziri tərəfindən**

Bununla ümuma elan edilir ki, Bakı quberniyası, Cavad qəzası, Muğan düzündə, Orta Muğan kanalı və Aşağı Muğan kanalının cənub-şərqi dairəsindəki suvarılan yerlər müzayidə (torq) ilə icarəyə verilir. Hər kəs orada 1919-uncu il yazlıq, 1919 və 1920-nci il payızlıq, 1920-nci il yazlıq əkin əkmək istəsə, həman yerlərdən icarəyə götürə bilər. Bunu da bilməlidir ki, icarənin vaxtı son məhsul yığıldıqdan iki həftə sonra bitir.

Məzkur [adı keçən] yerlər Cavad qəzası, Qalaqayın (Petropavlovka) kəndində xəzinə yerləri mübəssiri [nəzarətçisi] Yuryevin təhti-sədarətində [sədrliyi altında] bulunan xüsusi komisyon tərəfindən yeni qayda mart ayının 1-indən 7-sinədək bir həftə zərfində [ərzində] icarəyə veriləcəkdir. İcarə şəraiti [şərtləri] konditsiyalarda [müqavilənamələrdə] müfəssələn [ətraflı] yazılmışlardır. Şəraiti bilmək olar: Ziraət Nəzarətinin Torpaq şöbəsində (Vodovoznı küçə, nömrə 8). Yenə həman Nəzarətin Su şöbəsi və Əkin və fəllahət [kənd təsərrüfatı] şöbəsində (Telefonnı küçə, nömrə 6), Gəncə Ziraət şöbəsində (Gəncə şəhəri) və məhəllərdə [yerlərdə] xəzinə yerləri mübəssirləri, qəza qaimməqamları, Cavad, Şamaxı, Göyçay, Quba, Gəncə, Ərəş, Cavanşir, Zəngəzur, Qazax, Qaryagin, Şəki və Şuşa qəzalarında məntəqə pristavları dəftərxanalarında.

*Ziraət naziri vəzifəsini ifa edən:*
*H.Sultanov*
*Nəzaətin Torpaq şöbəsi müdiri:*
*Şpitalski*
*36*

**Drama**
**Axşam Tamaşası**
**Azərbaycan Hökumətinin Teatrosunda**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti cümə günü cəmadiyə-ləvvəl ayının 13-ündə 1337 sənəsi (fevralın 14-ündə 1919-cu ildə) təntənəli bir surətdə bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır məşhur tarixi faciə

**Ağaməhəmməd şah Qacar**

8 pərdədə

Əsər: **Əbdürrəhim bəy Haqverdiyev**

**Ağaməhəmməd şah Qacar** rolunu ifa edəcəkdir məşhur artist **Hüseyn Ərəblinski.**

İştirak edən əşxaslar [şəxslər] müfəssələn [ətraflı olaraq] məramnamədən [proqramdan] məlum olunar.

Biletlər imdidən teatrın kassasında satılmaqdadır.

Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

Rejissor: Abbas Mirzə Şərifov;
Müavin: Hacıbaba Şərifov;
Məsul: Xəlil Hüseynov;
Mübaşir [icraçı müdir]: Rövşən bəy Əfəndiyev;
Müdir: Zülfüqar bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"Tverskoy": Bakıda, İçəri şəhərdə indiki Mirzə Mənsur küçəsi.

***Azərbaycan Məclisi-Məbusanında***

"Bu firqələr camaat üçün nə yapmışlardır?": bu cümlədən sonra bir neçə söz silinmişdir, oxunmur.

"Əgər firqələr o köylərə, xalq içinə getmiş oralarda çalışmış və xalqa anlatmış olsaydılar yəqin ki, xalq quldurları, qatilləri gəlib hökumət qulluqçusu olmağa qoymazdı.": qəzetdə "oralarda" yerinə "ordular"; "xalqa" yerinə "xalqı" getmişdir.

"əliksir": sehrli xassələrə malik olduğuna inanılan məhlul, iksir.

"kün fəyəkün": "Quran"ın müxtəlif ayələrində işlədilən ifadə: "[Allah] Ol [deyər] və [istədiyi şey dərhal] olar".

"…o dərəcə kamalda deyilsə…": güman ki, "o dərəcə kamil də deyilsə" olmalı idi.

"…xarici məmləkətlərə satmalıdı.": qəzetdə "xarici" yerinə "daxili" getmişdir.

***Qəzetələrdən***

"…Mərkəzi hökumət nümayəndələrinin…": Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətlərinin (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan) nümayəndələri nəzərdə tutulur.

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

***Nəzarətlərdə***

"…Mirbağırov cənablarını oraya göndərmişdir.": Mirabbas Mirbağırzadə nəzərdə tutulur.

***Bakı xəbərləri***

"dər xanə kəs əst, yek hərf bəs əst": (farsca) "evdə kim var, bir söz bəsdir".

Verxni-Priyutski: Bakıda indiki Şamil Əzizbəyov küçəsi.

***Teatro və musiqi***

"Ağaməhəmməd şah Qacar": Əbdürrəhim bəy Haqverdiyevin dram əsəri nəzərdə tutulur.






# Gənclik






● Vətən sevgisi



# Könüllülərimizin Azərbaycanın inkişafına töhfələri

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsidir. Dövlət başçısının bununla bağlı tövsiyəsi əsasında əksər dövlət qurumları yanında könüllülər hərəkatı yaradılıb.**

2009-cu ildə "Könüllü fəaliyyəti haqqında" qanunun qəbul edilməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında xüsusi rol oynadı. Qanuna əsasən, könüllü fəaliyyəti əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi, insanpərvərliyin və dözümlülüyün təbliği, istehlakçıların hüquqlarının qorunması, hüquqi və mədəni maarifləndirmə, uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı, idmanın inkişafı, xəstəliklər və epidemiyalar barədə məlumatlandırma, sağlam həyat tərzinin təbliği üzrə həyata keçirilir. Həmçinin ətraf mühitin mühafizəsi, tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması, silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması, o cümlədən fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi, idmanın inkişafı, cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə (ailələrə) kömək edilməsi kimi sahələr qanunda öz əksini tapıb.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci il ölkəmizdə "Könüllülər ili" elan edildi. Sərəncamda bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımların atıldığı, normativ hüquqi bazanın təkmilləşdirildiyi, dövlət dəstəyi mexanizmlərinin formalaşdırıldığı bildirilib: "Könüllülük bir çox fəaliyyət sahəsinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. "ASAN Könüllüləri", "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə Könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır".

Ötən illər ərzində ölkəmizdə könüllü təşkilatlarının sayı artıb, əhatə dairəsi genişlənib. Hazırda bu proses davam etməkdədir.

Respublikamızda "Gənc Könüllülər", "ASAN Könüllüləri", "RİİB Könüllüləri", "BİR" Tələbə Könüllüləri, "Aqrar İnkişaf Könüllüləri", "KOB Könüllüləri", "Miqrasiya Könüllüləri", "Ədliyyə Könüllüləri" və başqa qurumlarda müxtəlif könüllü təşkilatlarının fəaliyyəti uğurlu olub.

Bu il ölkəmizin həyatında mühüm hadisəyə çevrilən növbədənkənar prezident seçkilərinin baş tutmasında da könüllülərin fəaliyyəti təqdirəlayiq oldu. "Gəncin səsi, Gələcəyin səsi!" şüarı ilə reallaşan səfərlər Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı ilə həyata keçirildi. Ötən ilin 28 dekabr tarixindən start verilən səyyar görüşlər ölkəmizin bir çox bölgəsini əhatə etdi. Maarifləndirici-əyləncəli formatda təşkil olunan görüşlər ilk olaraq Şirvan, Sabirabad və Şamaxıda baş tutdu. Seçki könüllüləri daha sonra respublikamızın Ağdaş, Ağcabədi, Mingəçevir, Naxçıvan, Masallı, Goranboy, Şərur, Qazax, Lənkəran, Culfa, Şahbuz, Şəki, Ordubad, Qəbələ, İsmayıllı və digər yerlərində oldular. Keçirilən görüşlərin əsas məqsədi 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərində ilk dəfə səs verəcək region gənclərinə seçicinin hüquq və vəzifələri, seçki prosesində iştirak etmək üçün lazım olan prosedur qaydaları barədə ətraflı məlumat vermək və bütün gəncləri seçkidə fəal iştiraka səsləmək idi. Gənclərlə görüş zamanı maarifləndirmə sessiyaları ilə yanaşı, rəqəmsal texnologiya barədə məlumat sessiyaları, intellektual yarışlar, fərdi və peşəkar inkişafa, eləcə də səsvermə hüququndan istifadəyə dair təlimlər, müxtəlif oyunlar və musiqili əyləncələr də təşkil edildi.

2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi qürur verən tariximizdir. Bu tarixi yazanlar arasında könüllü gənclərimizin müstəsna yeri oldu. Prezident İlham Əliyev Azərbaycan Könüllülərinin V Həmrəylik Forumunun iştirakçılarına təbrik məktubunda qeyd etdiyi kimi, minlərlə könüllü 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana müqəddəs övladlıq borcunu şərəflə yerinə yetirmişdir: "Müharibədə qazandığımız parlaq Zəfərdən sonra ölkəmiz üçün artıq yeni dövr başlamışdır. Xalqımız müharibə meydanında nümayiş etdirdiyi hünəri azad olunmuş torpaqlarımıza həyatın yenidən qaytarılmasına yönələn genişmiqyaslı abadlıq-quruculuq və bərpa işlərində göstərir. İnanıram ki, siz könüllülər bütün qüvvə və bacarığınızı səfərbər edərək, Böyük qayıdışın uğurla gerçəkləşdirilməsi prosesində də ön sıralarda dayanacaqsınız".

Cəmiyyətin təkanverici qüvvəsi olan gənclərimiz onlara bəslənən ümidləri yenə də doğruldurlar. Onlar bu gün işğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma işlərində də fəaldırlar. Könüllü gənclərimizin Böyük qayıdışa öz töhfələrini vermələri üçün onlara imkan və şərait yaradılıb. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə xüsusi nümayəndəliklərinin, Gənclər Fondunun, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi və "Böyük Qayıdış" Gənclər Təşkilatının təşkilatçılığı ilə həyata keçirilən "Qayıdış Könüllüləri" Proqramının əsas məqsədi işğaldan azad olunmuş rayon və şəhərlərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən həmin ərazilərdən olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, həmçinin bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etməkdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Vətən uğrunda ölməyi özünə şərəf bilirdi

**Torpaq - ona sahib çıxıb yolunda can verəndə, qan tökəndə, bir yüksəkliyi uğrunda minlərlə can fəda verməyə hazır olanda Vətən olur.**



Şəhidlik zirvəsinə ucalan igidlərimiz bəlkə də ölümlərinin yurdumuza azadlıq, qələbə gətirəcəyi barədə heç düşünməmişdilər. Kiçik bir kənddən, balaca bir rayondan, şəhərdən çıxıb cəbhəyə getmişdilər. Vətən çağırmışdı, yurd "övladım, məni qoru" demişdi. Oğlanlarımız da əllərinə silah alıb ana Vətənin çağırışına hay vermişdilər… Getdilər və qanları ilə bu xalqın yeni qəhrəmanlıq dastanını yazdılar.

44 günlük Zəfər müharibəsi zamanı vətənin çağırışına hay verənlərdən biri də şəhid Ayaz Qnyaz oğlu Xəlilov oldu. Ayaz Xəlilov 25 yanvar 1998-ci ildə Ucar rayonunun Alpout kəndində dünyaya gəlib. Üçüncü sinfə kimi ibtidai təhsilini Alpout kəndində alıb. Ailəsinin Bakı şəhərinə köçməsi ilə əlaqədar təhsilini Maştağa qəsəbəsindəki 128 saylı məktəbdə davam etdirib. Musiqiyə olan marağı Ayazı qəsəbədə yerləşən musiqi məktəbinə aparıb. O, burada respublikada tanınmış kaman ustası Elnur Salahovdan dərs alıb. Ailələrinin maddi durumunun ağırlığını hiss edən Ayaz 2015-ci ildə orta məktəbi bitirdikdən sonra musiqi sahəsində deyil, ailəyə kömək olmaq üçün başqa sahədə iş axtarmalı olur. Bir müddət avtomobil təmirçisi işləyir.

2016-cı ildə hərbi xidmətə çağırılan Ayaz Xəlilov müddətli hərbi xidmətini Murovdağda keçir. İşğalda olan başıqarlı şiş qayaları, Azərbaycan təbiətinin dilbər guşələrini görən gəncin qəlbi intiqam hissi ilə döyünür.

2020-ci ilin isti yay günləri Ayazın da ürəyinin odunu, alovunu artırır. Hərbi səfərbərlik idarəsinə gedib könüllü döyüşçü olmaq üçün qeydiyyatdan keçir. 21 sentyabrda qardaşı Samiri Vətənə xidmət etmək üçün cəbhəyə yola salanda qucaqlayıb bağrına basaraq "Sənin bəxtin gətirdi, yaxşı yol. Mən də ardınca gələcəyəm" deyib qardaşına uğurlar arzulayır. Sentyabrın 28-də isə Ayazın gözlədiyi xəbər gəlir.

Anası Xalidə xanım o günləri belə xatırlayır: "Ayazın üzündə sanki gün doğmuşdu. Elə bil cəbhəyə, qanın, ölümün içinə deyil, toya, bayrama, hər hansı bir şənliyə gedirdi. Tələsirdi… Ayazı yola salanda nənəsi onu müqəddəs kitabımız "Quran"ın altından keçirdi. Oktyabrın 4-ü gecə saat 12 radələrində zəng etmişdi. Son sözü bu oldu ki, məndən narahat olmayın. Bir-iki gün telefonla danışmaq imkanım olmayacaq. Elə mənimlə danışa-danışa komandirinin səsini də eşidirdim. Ayazı çağırıb deyirdi ki, "Xəlilov, tez gəl, ləngimək olmaz". Bu, bizim Ayazla son danışığımız oldu".

Döyüş yoldaşı Ağasıyev Tural Rasim oğlu o günləri xatırlayaraq deyir:

- Çox maraqlı adam idi. İnsanlarla münasibət qurmaqda olduqca mahir idi. Qısa bir zamanda bütün komandanlıq və şəxsi heyət arasında özünə böyük sevgi, hörmət qazana bilmişdi.

Oktyabrın 6-sı səhər saat 6-7 radələrində kolonla döyüş mövqeyinə doğru hərəkətə başladı. Döyüş planı qurulanda bildim ki, bu dəfə Həsənqaya, Levonarx istiqamətində irəliləməli olacağıq. Birinci mövqe ilə ikinci mövqeyin arasında 900 metrə yaxın məsafə var idi.

Həmin ərazidən irəliləyib düşmənin əlində olan ikimərtəbə deyilən postu və həmin ərazini ələ keçirməliydik. Oranı azad etdikdən sonra Gödəkburun və 530 istiqamətində irəliləməliydik. Bu döyüşdə məndən bir qədər aralıda Xəlilov Ayazın qorxmadan bizə tuşlanan o mərmiləri heçə sayaraq irəlilədiyini gördüm.

Bu döyüşdə iki ayağımdan yaralandım. Məndən bir qədər aralıda Ayaz da yaralanaraq yerə uzanmışdı. Mən sürünə-sürünə Ayazın yanına gəldim. Dedim "qardaş, vəziyyət ağırdır, taleyimizə nə yazılıbsa, o da olacaq". Ayazın yarası ağır idi. O anları xatırlayanda belə dəhşətə gəlirəm… Ayaz qəlpə yarası almışdı. Dedim "Ayaz, narahat olma, yəqin indi təxliyə gəlib bizi çıxarar". Dedi ki, "deyəsən Allah mənim səsimi eşidib, arzuma çatıram. Mən şəhid oluram". Ayazı qucaqlayıb ona təsəlli vermək istəyirdim. Elə bu andaca Ayaz qucağımda son nəfəsini verdi.

Vətən müharibəsində göstərdiyi şücaət dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ayaz Xəlilov "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif olundu.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "7-dən 17-yə vətənpərvər!" layihəsinə maraq artır

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumtəhsil müəssisələrində "7-dən 17-yə vətənpərvər!" layihəsi çərçivəsində tədbirlər keçirilir.**



BŞTİ-dən bildirilib ki, layihənin əsas məqsədi məktəbliləri Vətənə məhəbbət ruhunda tərbiyə etmək, onlarda vətənpərvərlik, xalqa, torpağa bağlılıq hissini gücləndirməkdən ibarətdir. Layihə çərçivəsində Azərbaycanın tarixi və coğrafiyası, mədəni abidələri, adət-ənənələri, tanınmış şəxsiyyətləri, dövlət bayramları, anım günləri ilə bağlı ümumi təhsil məktəblərində tədbirlər təşkil olunur. İstedadlı şagirdlər tərəfindən ölkəmizin dünyaya tanıdılması istiqamətində müxtəlif dillərdə materiallar hazırlanır və internet resurslarında yerləşdirilir, Qarabağa həsr olunan tədbirlər və görkəmli ziyalıların şagirdlərlə vətənpərvərlik mövzusunda görüşləri keçirilir. Bundan əlavə, məktəb kitabxanaçılarının iştirakı ilə vətənpərvərliyə həsr olunmuş əsərlərin oxu və müzakirəsi təşkil edilir. "7-dən 17-yə vətənpərvər!" layihəsi çərçivəsində şagirdlər tərəfindən yaradıcılıq nümunələri də hazırlanır.

Qeyd edək ki, layihə çərçivəsində ümumtəhsil məktəblərində həyata keçirilən tədbirlərdə fərqlənən şagirdlərin müxtəlif nominasiyalar üzrə təltif olunması nəzərdə tutulur.

# Gənc qiraətçilərin beynəlxalq müsabiqəsi keçirilib

**Qusarda gənc qiraətçilərin "Canlı klassika" beynəlxalq müsabiqəsinin dördüncü regional mərhələsi keçirilib. Rusiya İnformasiya-Mədəniyyət Mərkəzindən (RİMM) bildirilib ki, layihənin təşkilatçısı "Canlı klassika" Fondudur. Azərbaycanda layihənin kuratoru Azərbaycanın Rus Gəncləri Assosiasiyasıdır. Qusar şəhərində təşkil olunan dördüncü regional mərhələ Bakıdakı Rus evinin və Azərbaycanın Rusdilli Tədris Müəssisələrinin Müəllimləri Assosiasiyasının dəstəyi ilə baş tutub.**

Gənc qiraətçilər rus və sovet müəlliflərinin əsərlərini Rusdilli Tədris Müəssisələrinin Müəllimləri Assosiasiyasının sədri Lyubov Yakunina, Gəncə və Qərb bölgəsi üzrə Rus İcmasının sədri Dmitri Kozin, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Rus Gəncləri Assosiasiyasının İdarə Heyətinin üzvü, Ədəbiyyat klubunun rəhbəri Lalə Həsənovanın daxil olduğu münsiflər heyəti qarşısında oxuyublar.

● Gələcəyə dəstək

# Gənclər milli-mənəvi dəyərlərə sadiq olmalıdırlar

**Ölkəmizdə ən güclü və nüfuzlu siyasi təşkilat olan Yeni Azərbaycan Partiyası öz sıralarında cəmiyyətin bütün təbəqələrini təmsil edən insanları birləşdirir.**



Hazırda cəmiyyətin ən dinamik təbəqəsi kimi çıxış edən və üzvlərinin əksəriyyətini gənclərin təşkil etdiyi YAP bu zümrənin ictimai-siyasi proseslərdə aktiv iştirakını təmin etmək üçün çox geniş imkanlar yaratmışdır. Sevindirici haldır ki, gənclərimiz yaradılmış bu imkanlardan bacarıqla istifadə edərək dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsinə yeni-yeni töhfələr verirlər.

YAP Yasamal rayon təşkilatının gənclər və gender bərabərliyi üzrə məsləhətçisi Fuad Həbibzadə ilə söhbətimizi əsasən gənclərlə aparılan işlər və onlara göstərilən diqqət və qayğı üzərində qurduq. Söhbətimiz zamanı F.Həbibzadə dedi ki, gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla aparılır. Həmin siyasətə uyğun olaraq YAP Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət yetirir. Eyni zamanda Yeni Azərbaycan Partiyası fəaliyyətində daim gənclərin rəylərini, təkliflərini nəzərə alır və onları yüksək qiymətləndirir. Qarşıya qoyulan məqsədlər demokratik idarəçilik prinsipləri əsasında icra olunur.

F.Həbibzadə bildirdi ki, YAP Yasamal rayon təşkilatının gəncləri aktiv fəaliyyətləri ilə həmişə seçilirlər. Ötən il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdi. Bununla əlaqədar olaraq Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə bağlı çox möhtəşəm və yaddaqalan silsilə tədbirlər keçirildi. Rayonda təşkil edilən idman, intellektual və başqa yarışlarda YAP Yasamal rayon təşkilatının gəncləri fəal iştirak etdilər və uğurlar qazandılar. Keçirilən intellektual yarışlarda əsas məqsəd Ümummilli Lider Heydər Əliyev irsini gənclərə daha dərindən aşılamaq idi. Biz məqsədimizə nail olduq.

Rayonun gəncləri 44 günlük Vətən müharibəsində şəhid olan zabit və əsgərlərin ailələrini tez-tez ziyarət etməyi özlərinin mənəvi borcu bilirlər. Onlar şəhidlər haqqında çəkilmiş sənədli filmlərdə, yurdumuzun azadlığı uğrunda canlarından keçən oğullarımıza həsr olunmuş tədbirlərdə və sərgilərdə böyük fəallıq göstərirlər.

YAP Yasamal rayon rəhbərliyinin təşkilatçılığı ilə gənclərin ölkəmizin görkəmli ictimai-siyasi xadimləri, yazıçı və şairləri ilə də tez-tez görüşləri keçirilir. Belə görüşlər yeni nəslin dünyagörüşünün formalaşmasında çox mühüm rol oynayır. Fuad Həbibzadə onu da qeyd etdi ki, gənclərin fəaliyyətləri həm rayon rəhbərliyi, həm də YAP Yasamal rayon təşkilatı tərəfindən layiqincə qiymətləndirilir və mükafatlandırılır.

2024-cü ilin yanvar-fevral aylarında gənclərimizin aktivliyini xüsusi olaraq qeyd etmək istəyirik. Onlar ölkəmizin həyatında böyük tarixi əhəmiyyətə malik olan 7 fevral prezident seçkilərində də fəallıq göstərdilər. Gənclər ölkəsinin vətəndaşı kimi öz məsuliyyətlərini dərindən anlayaraq həm sosial şəbəkələrdə aktiv fəaliyyətləri ilə seçildilər, həm də ərazilərdə sakinlərlə görüşlərdə iştirak etdilər. Prezident seçkilərindən öncə təbliğat-təşviqat prosesində, bununla bağlı keçirilən tədbirlərdə YAP Yasamal rayon təşkilatının fəal gəncləri potensiallarını nümayiş etdirərək ölkəmizin gələcəyinin onların çiyinlərində olduğunu bir daha əyani surətdə ictimaiyyətə göstərdilər.

Söhbət zamanı müsahibimiz dedi ki, hər il olduğu kimi, 2024-cü ilin fevral ayının 2-də də Gənclər Günü ilə əlaqədar təşkil olunan möhtəşəm tədbirdə rayonumuzun gəncləri fəal iştirak etdilər. Azərbaycan Prezidenti İlham Əliyev biz gənclərin qarşısında çox mühüm vəzifələr qoyur. Dövlətimizin başçısı fevral ayının 14-də Milli Məclisdə andiçmə mərasimindəki tarixi çıxışında demişdir: "Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz".

İnanırıq ki, əvvəlki illərdə olduğu kimi, 2024-cü ildə də ölkəmizin gəncləri fəal olacaq, üzərlərinə düşən tapşırıqları yerinə yetirəcək, nəzərdə tutulan işlərdə bacarıqlarını nümayiş etdirəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "Könüllü DOST" proqramına ötən dövrdə 4,6 min şəxs cəlb olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin "Könüllü DOST" proqramına bu il daha 4,3 min müraciət olub və proqrama 224 nəfər cəlb edilib.**



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, proqram fərqli ictimai və yaş təbəqələrini, habelə fəaliyyət sahələrini əhatə edən bir neçə altproqramdan ("Gənc DOST", "Gümüşü DOST", "Korporativ DOST", "İnklüziv DOST" və "Distant DOST" altproqramları) ibarətdir.

DOST könüllüləri DOST mərkəzlərində vətəndaş məmnunluğuna uyğun xidmətlərin göstərilməsi, vətəndaşların qarşılanması, məlumatlandırılması, xidmət pəncərələrinə yönləndirilməsi və s. işlərdə dəstək verirlər.

Onlardan böyük əksəriyyəti gənclərdir və "Könüllü DOST" proqramında iştirak onlara əhəmiyyətli işgüzar vərdişlər, sosial sahədə bilik və təcrübə əldə etmək, fərdi inkişaf, yeni dostlar və karyera yolunda ilk uğurlu addımlar atmaq imkanı yaradır.

DOST Agentliyi və ilk DOST mərkəzi 2019-cu ilin mayında açılıb, sonralar yeni DOST mərkəzləri yaradılmaqla həmin mərkəzlərin sayı 7-yə çatıb. Ötən dövrdə "Könüllü DOST" proqramına 108 mindən çox müraciət olub. Proqramda iştirak edənlərin sayı isə 4,6 min nəfər təşkil edib.

# Fransa parlamenti Makron barəsində impiçmentə başlayır

## **Florian Filippo:** "Prezident öz ölkəsinə nifrət edir və onu üçüncü dünya müharibəsinə sürükləməyə çalışır"

**"Fransa parlamenti ölkə prezidenti Emmanuel Makronun Ukraynadakı münaqişə zonasına Qərb ölkələrindən qoşun göndərilməsinin mümkünlüyü ilə bağlı bəyanatlarından sonra ona qarşı impiçment elan etməlidir". Bu fikri fevralın 29-da "Vətənpərvərlər" partiyasının lideri Florian Filippo "X" sosial şəbəkəsində bildirib.**



Siyasətçi Fransa parlamentindən Makronun impiçmentini tələb edib və öz səhifəsində bu barədə yazıb: "Parlamentarilərin nəhayət, hərəkətə keçmələri üçün milli petisiya! Konstitusiyanın müharibə ilə bağlı məsələ üzrə səsə qoyulmasını tələb edən 35-ci maddəsi və 68-ci maddə: onun impiçmenti!"

Pariya sədrinin dediyinə görə, hazırkı Fransa lideri öz ölkəsinə nifrət edir və onu üçüncü dünya müharibəsinə sürükləməyə çalışır. Filippo rəhbərlik etdiyi partiyanın saytında müvafiq petisiya da yerləşdirib.

Qeyd edək ki, Makron Qərb dövlətlərinin liderlərinin Ukrayna münaqişə zonasına öz hərbi qüvvələrini göndərmək imkanını müzakirə etdiyini açıqlayıb. Onun sözlərinə görə, bu məsələdə konsensusa gələ bilməyiblər.

"Amerikanın səsi" radiostansiyası xəbər verir ki, Ağ Ev Ukraynaya qoşun yeritməyəcəyini bildirib. İngiltərə, Almaniya, İspaniya, İtaliya, Polşa və Çexiya da Makronun bu ideyasından uzaqlaşıblar.

Almaniya hökumətinin sözçüsü Şteffen Hebeştrayt fevralın 28-də bildirib ki, Paris sammitində iştirak edənlərdən heç biri Makronun Ukraynaya hərbçi göndərmək ideyasını dəstəkləməyib. Onun dediyinə görə, Almaniya kansleri Olaf Şolts bu təklifi yersiz hesab edib. Şolts bir daha əmin edib ki, Almaniya öz ordusunu Ukraynaya göndərməyəcək və NATO münaqişə tərəflərindən birinə çevrilməyəcək. Bundan əvvəl də Almaniya kansleri dəfələrlə oxşar bəyanatlar verib. Öz növbəsində Qərb ölkələri rəsmilərindən biri deyib ki, Makron bəyanatları ilə NATO üzvləri arasında çaşqınlıq və narahatlıq yaradıb. Onun sözlərinə görə, belə bir addım ABŞ-də Ukraynaya təqribən 60 milyard dollarlıq yardımın ayrılmasını nəzərdə tutan qanun layihəsinin müzakirəsini çətinləşdirəcək, çünki münaqişənin genişlənməsi qorxusu yaranacaq.

Bu arada Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Qərb ölkələrinin Ukraynaya hərbi kontingent göndərəcəyi təqdirdə NATO ilə birbaşa hərbi münaqişənin baş verəcəyini qaçılmaz adlandırıb. Kreml nümayəndəsi qeyd edib ki, alyansa üzv ölkələr bu cür hərəkətlərin nəticələrini qiymətləndirməli və bundan xəbərdar olmalıdırlar.

Son məlumata əsasən, Makronun yersiz ideyası Fransanın müttəfiqləri tərəfindən də rədd edilib. Daha sonra onun bu sərsəm təklifinə reaksiyanı yumşaltmaq üçün ölkə rəsmiləri izahat veriblər ki, Makron müharibə ilə əlaqəli diskussiyanı stimullaşdırmaq istəyib və müzakirə olunan ideyalar minalardan təmizləmə, sərhəd təhlükəsizliyi və ya ukraynalı hərbçilərin təlimi kimi funksiyaları yerinə yetirən qeyri-döyüş qoşunları ilə bağlıdır. Fransanın xarici işlər naziri Stefan Sejurne bildirib ki, Ukraynanı dəstəkləmək üçün yeni addımlar nəzərdən keçirilməlidir. Bu addımlar çox konkret tələbatlara cavab verməlidir: "Məsələn, minalardan təmizləmə, kibermüdafiə və yerində, Ukrayna ərazisində silah istehsalı haqqında düşünürəm".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Rusiya Hayastanı cəzalandıracaq

## Erməni siyasi dairələri təşviş içərisindədirlər

**Rusiyanın orbitindən uzaqlaşmaq, ərazisindəki rus hərbi bazalarını çıxarmaq Hayastanın baş nazirin Nikol Paşinyanın qarşısında duran prioritet məsələ olub və indi də nəyin bahasına olursa-olsun, bu tələbi reallaşdırmağa çalışır.**

Şübhəsiz, bu istiqamətdə növbəti addım Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) Ermənistanın iştirakını dondurmaq qərarıdır. Belə qənaətə gəlmək olar ki, Paşinyan təşkilatı tərk etmək barədə Qərbin qoyduğu tələbi artıq reallaşdırır.

Bir neçə gün bundan öncəki açıqlamalarında Hayastan baş naziri bir çox problemin yaranmasında Rusiyanı günahkar hesab edərək deyib ki, Moskvanın hərbi mövcudluğu İrəvanın təhlükəsizliyinə təhdid yaradır.

"Əgər biz indi faktiki olaraq fəaliyyətimizi dondurmuşuqsa, məsələlər həllini tapmasa, de-yure də bunu edəcəyik", - deyən baş nazir konkret olaraq Moskvanı təxribata çəkməyə çalışır və müəyyən jestlərlə Kremli qıcıqlandırmağa cəhd edir. Deməli, rəsmi İrəvan çox açıq tezislərlə Rusiya ilə əməkdaşlığı mənasız sayır və ya bu birgə fəaliyyətdən birmənalı formada imtina edir. Bütün bunlar Avropa İttifaqının və Qərb institutlarının hazırladığı planauyğun şəkildə həyata keçirilir. Buna görə də Paşinyan maksimum şəkildə diplomatik qaydada Moskva ilə münasibətlərinə son qoymaq üçün ölkəsinin təhlükəsizlik məsələlərinə diqqət çəkir.

Erməni ekspertlər Paşinyanın "Azərbaycanın hücum etmək ehtimalı var" sözləri fonunda KTMT-də fəaliyyətin dondurulmasının məntiqinin anlaşılmaz olduğunu bildiriblər. Onların fikrincə, Paşinyan Rusiya qüvvələrini ölkədən çıxarıb, İranın silah və hərbçilərlə yardım etmək, hərbi müttəfiqlik sazişi imzalamaq təklifini geri çevirməklə faktiki olaraq ölkəni müdafiəsiz qoyur.

Bəzi erməni politoloqlar isə Rusiyanın fəaliyyətsizliyini sübut etmək üçün rus qüvvələrinə qarşı təxribat törədiləcəyini belə istisna etməyiblər. Belə görünür ki, erməni ekspertlər özləri də "Rusiya qüvvələrinin fəaliyyətsizliyini sübut etmək üçün təxribat" deyərkən, Azərbaycana qarşı təxribat törətməyi nəzərdə tuturlar.

Bütün bunların fonunda Ukrayna Prezidenti Zelenskinin Hayastana səfər etmək istəməsi Qərbin Rusiyaya birbaşa əzələ nümayişi kimi də dəyərləndirilə bilər. Zelenskinin indiki çətin məqamda İrəvana səfər etməsinə haqq qazandıracaq heç bir siyasi, iqtisadi və hüquqi əsası yoxdur. Ortada yalnız bir ehtimal qalır. Bu da ondan ibarətdir ki, Paşinyan da Zelenski kimi Qərbin "adamı"dır. Yəni bu iki lideri birləşdirəcək tək ortaq faktor budur. Məqsəd isə Hayastanı Rusiyaya qarşı daha "təsirli" və "effektiv" mübarizəyə təşviq etməkdir.

Almaniyada yaşayan erməni siyasi məsləhətçi, PR texnologiyası üzrə mütəxəssis Ara Manuçaryan deyib ki, cəmiyyətimizin həddindən artıq qütbləşməsindən və müzakirələrdən narahatam: "Heç kimə sirr deyil ki, Azərbaycan hərbi mənada Ermənistandan daha həssasdır. Lakin müharibə zamanı xatırlayırıq ki, Hayastanın artıq keçmiş prezidenti Armen Sarkisyan azərbaycanlılara qaz kəmərlərinin təhlükə altında qalmayacağına dair təminat vermişdi. Ermənistanda üstünlük təşkil edən anti-Rusiya tezisi nəinki dağıdıcıdır, həm də ölkə üçün böyük təhlükələr ehtiva edir. Zelenskinin gələcəyinə əmin deyiləm. Belə bir şey olarsa, Hayastan daha böyük təhlükə ilə üz-üzə qalacaq".

Politoloq Arşaluys Mqdesyan da Ukrayna liderinin Paşinyanla konkret nəyi müzakirə edə biləcəyini bilmədiyini etiraf edir: "İki KİV öz mənbələrinə istinadən eyni xəbəri yayıb. Bundan başqa, Ermənistan Xarici İşlər Nazirliyi və Ukrayna nümayəndəsi heç nəyi inkar etməyib. Bu baxımdan, çətin ki, biz sadə şayiə ilə məşğul olaq, çox güman ki, həqiqətən də səfər hazırlanır, lakin onun baş tutub-tutmayacağını söyləmək hələ də çətindir".

Ekspertin fikrincə, Rusiya belə bir görüşü mənfi qarşılayacaq, lakin bu, Ermənistan-Rusiya münasibətlərinin son bir neçə ilin ümumi tendensiyasına uyğun olacaq. "Ola bilsin ki, müxalifət Zelenskinin səfərinə qarşı kütləvi mitinq keçirsin, lakin daha radikal addımlar atması çətin ki, mümkün olsun. Parlamentdəki müxalifət İrəvanın Qərblə təmaslarının qəti əleyhinə deyillər, lakin Paşinyanın Rusiya ilə münasibətlərini poza biləcəyindən narahatdırlar".

Beləliklə, bütün bunlar onu deməyə əsas verir ki, İrəvan bu istiqamətdə yaxın vaxtlarda daha kəskin və maraqlı addımlar ata bilər. Görünən odur ki, Hayastanda anti-Rusiya ritorikası və bəyanatları artmaqda davam edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**



RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

№ 46 (9501) 29 FEVRAL 2024-cü il CÜMƏ AXŞAMI AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Azərbaycan hər bir təxribatı dəf etməyə hazırdır

Prezident İlham Əliyev qəti şəkildə şərt qoydu

"Əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik"

XII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına

Berlində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında görüş keçirilib

Azərbaycan Fransanın əsarətindəki xalqların azadlıq carçısına çevrilib

Müstəmləkəçi ölkə beynəlxalq səviyyədə ifşa olunur

Fransada fermerlər Makronu istefaya çağırdılar

Etirazçılar polisi torpaq, saman və yumurta atəşinə tutublar

SOCAR və bp ekologiyanı da birgə qoruyacaqlar

COP29 ərəfəsində atmosferin mühafizəsi üzrə bu şirkətlər arasında əməkdaşlıq genişlənir

azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarının sosial müdafiəsi və dəstək ilə bağlı ictimai maarifləndirmənin təşkili" adlı təkrar ***müsabiqə keçirir***

Təkrar müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 06 mart 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 07 mart 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Novruz bayramı münasibətilə şəhid övladları üçün bayram tədbirlərinin təşkili" (Bakı, Abşeron, Sumqayıt, Gəncə və respublikanın digər şəhər və rayonları üzrə) və "Novruz bayramı münasibətilə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün bayram tədbirlərinin təşkili" (Bakı, Abşeron, Sumqayıt, Gəncə və respublikanın digər şəhər və rayonları üzrə) adlı ***müsabiqələr keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 12 mart 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 13 mart 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


# Bakıda hava şəraiti dəyişkən buludlu olacaq

Azərbaycanda martın 1-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman, az çiskin olacaq. Cənub-şərq küləyi əsəcək. Hava temperaturunun gecə 0-3°, gündüz 6-9° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 774 millimetr civə sütunundan 772 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 2-7° şaxta, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin




Daşkəsən və Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Hava temperaturunun gecə 4-9° şaxta, gündüz 0-5° isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9° şaxta, gündüz 1° şaxtadan 4°-dək isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Hava temperaturunun gecə 4° şaxtadan 1°-dək isti, gündüz 6-11° isti olacağı güman edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 2-7°, yüksək dağlıq ərazilərdə 10-15° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4° şaxtadan 1°-dək isti, gündüz 7-12° isti olacağı proqnozlaşdırılıb.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Hava temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 3-6° şaxta, gündüz 0-3° isti olacağı ehtimalı var.

Bəzi regionlarda gecə və səhər dağlıq ərazilərdə yollar buz bağlayacaq.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4302**
**Sifariş 455**

**Qiyməti 60 qəpik**